# Füzuli YAVƏR







# MEŞƏLİ KƏNDİNİN

# YAY GÜNLƏRİ

**(KOMİK-DRAMATİK FRAQMENTLƏR)**

**"MEŞƏLİ KƏNDİNİN QƏRİBƏ ƏHVALATLARI"**
**fraqmental povesti əsasında**



# İÇTİRAKÇILAR:

YAZIÇI
QARPIZ SATAN ARVAD
SƏMƏ GEROY
ALİK
ZIRPI HƏTƏM
GÖYGÖZ VEYSƏL
MİRZƏ MÜXBİR
HURAMAN
TAYQULAQ USUF
QANCIQ FATMANİSƏ
FISTIQ SƏFTƏR
CUPPULU QƏŞƏM
HƏSƏNQULU KİŞİ
MOLLA PİRVƏLİ
XƏSTƏ QASIM
AMBARDAR FƏRZƏLİ
JURNALİST
GÖRÜŞOV
KƏNDLİLƏR
GƏNCLƏR
"Tamaşaçıxardanlar"ın AKTYORLARI
"Konsertverənlər"in MUSİQİÇİLƏRİ

***HADİSƏLƏR XX ƏSRİN SONLARINDA, UCQAR BİR AZƏRBAYCAN KƏNDİNDƏ BAŞ VERİR.***





## S Ə H N Ə:

**Uzaqlarda bəyaz gövdəli qovaqlar, nəhəng palıdlar, yaşıl söyüdlər, talalar, kiçik ot tayaları, təpəciklər, mavi göl.**

**Öndə yaşıllığa qərq olmuş kənd meydanı.**

**Telefon dirəyində vedrə-reproduktor. Dirəyin aşağısında taxta lövhə. Lövhəyə yapışdırılmış divar qəzetinin "M E Ş Ə L İ" sərlövhəsi aydınca oxunur.**

**Sol tərəfdə qurşaq boylu taxt üstə düzəldilmiş səhnəcik. Ucuz, köhnə parçalardan fiqurla asılmış bir plan kulis və poduqa. Səhnənin üstündən çəpəki çəkilmiş məftildən rəngli, xırda lampalar sallanıb. Səhnənin bir küncündə yeşik taxtalarından hazırlanmış tribuna, üstündə mikrofon.**

**Səhnənin künclərində rəngli kağızlardan düzəldilmiş fırfıralar.**

**Sağ tərəfdə divarına "XORUZQUYRUĞU" sözü yazılmış çayxana binasının giriş qapısı.**

**Yay olduğundan çayxananın stol və stulları çölə çıxardılıb, həyətdəki alçaq boylu ağacların altında üzü səhnəciyə tərəf düzülüb. Oturacaqlar, masalar müxtəlif çeşiddədir. Burda son dəbli ağ plastmass kreslo və stollardan tutmuş əldə düzəldilmiş taxta taburetlərə, kötük skamyalara qədər hər şeyə təsadüf etmək olar... Budaqları stolların üstə sallanmış ağaclardan da rəngli lampalar asılıb.**

**Meydanın dərinliyində, arxa tərəfdə üstünə ot, saman, ağac budaqları atılmış böyük qarpız topası. Yanında yatacaq.**

**BIRINCI FRAQMENT**

**Quşlar oxuyur.**
**Xoruzlar banlayır.**
**Pərdə açılır.**
**Sübh alatoranıdır.**

**REPRODUKTOR -** *(Ritmik, şux bir melodiya. Kişi səsi.)* Quq-qu, quq-qu...
*(Qadın səsi.)* Quq-quuu...
*(Kişi səsi.)* Danışır Meşəli radiosu. Sabahınız xeyir, əziz meşəlilər.
*(Qadın səsi.)* Bu gün 21 iyul cümə günüdür.
*(Kişi səsi.)* Başlanmış təzə gün qoy sizə uğur və sevinc gətirsin.

**Bütün danışıqlar musiqi fonunda gedir. Boşluqlarda musiqi güclənir, mətn qurtarınca tədricən azalır, sönür.**

**Iki nəfər oğlan telefon dirəyinə yaxınlaşır. Taxta lövhədəki divar qəzetini qopardıb yerinə təzəsini vurur.**

**REPRODUKTOR** – "Meşəli" divar qəzetinin növbəti nömrəsi artıq vitrində sizi gözləyir. *(Qadın səsi.)* Mühüm bir elanı nəzərinizə çatdırmaq istəyirik. Kim kolxoz sədri olmaq istəyir? Bildiyiniz kimi, nə müddətdir zırpı Hətəm istefa ərizəsi yazıb. Lakin rayon rəhbərləri hələ ki, onun istefasını qəbul etməyiblər. "Yerinə bir adam tap, sonra baxarıq" deyiblər. Bu axşam yay səhnəsində kəndin ümumi iclası olacaq. Rayondan hətta Görüşov cənabları özü sizin görüşünüzə təşrif buyuracaq. Zırpının ərizəsi müzakirə ediləcək. Hamının iştirakı vacibdir. *(Kişi səsi.)* İndisə "Meşəli" qəzetinin bu günki sayında getmiş bəzi yazılardan parçalar... *(Qadın səsi.)* Meşəli kəndinin hayd-park kürsüsü dünəndən fəaliyyətə başlayıb. Tamaşaçıxardanların və konsertverənlərin öz qüvvələrilə kənd camaatı üçün hazırladıqları üstü fırfıralı yay səhnəsində yerləşmiş bu kürsüdə mikrofon da quraşdırılıb. Həmin mikrofona deyilmiş sözlər həm qarşı tərəfdəki çayxanada oturmumuş adamlara çatdırılır, həm də radiomuz vasitəsilə bütün kəndə yayılır.

Kimin ürəyi doludursa, buyursun, çəkinməsin, desin dişinin dibindən çıxanları, boşaltsın içini.

*(Kişi səsi.)* Sağ tərəfdəki düyməni basaraq mikrofonu işə salmağı unutmayın. İşıq yoxdur deyə ehtiyat etməyin. Mikrofon həmişə işləyəcək. Bir-iki günə Əzəmməd kişinin su dəyirmanında quraşdırılmış generatordan bura elektrik xətti çəkiləcək. Axşamlar səhnənin işıqları da daim yanacaq.

**Musiqi davam edir.**

*(Qadın səsi.)* Kənd xəbərləri...
Dünən Şərəbanı qarının axsaq hinduşkasını maşın vurub öldürüb. Dərdinə şərik oluruq, Şərəbanı nənə. Amma vallah adamı maşın vurub öldürəndə də bu qədər qarğış qarğamırlar.

*(Kişi səsi.)* Daha bir kədərli xəbər. Dərin hüznlə bildiririk ki, saqqal Şabanın növbəti arvadı da əbədi olaraq gözlərini yumdu. Mərhumun ailəsinə başsağlığı verir, dərdinə şərik oluruq. Və böyük Allahdan diləyirik ki, arvad itkisi dağı bir daha Şaban kişinin qəlbini yandırıb yaxmasın.
*(Qadın səsi.)* Fıstıq Səftərin qancıq iti küçükləyib. Bu dəfə küçüklərin hamısı quyruğu və qulağı kəsik doğulub. Fıstıq həmişəkitək dişi küçüyü bir quzuya, erkək küçüyü iki quzuya dəyişir. Amma bu dəfə yeni şərt: küçüyü gərək siz bəri başdan götürəsiniz, quzuları isə mal-qara tövləyə çəkilən vaxtlar verəsiniz.
*(Kişi səsi.)* İndi də şad bir xəbər. Kənd cavanlarının nəzərinə. Çaqqal Mirzəlinin şəhərdə yaşayan ögey qızı gözəl-göyçək Huraman xanım hər yay olduğu kimi yenə də kəndə dincəlməyə gəlib. Əziz dostlar, təzə sevdalar, eşq macəraları, kolluqlarda, meşəliklərdə xəlvəti görüşlər, intim əhvalatlar mövsümünün başlanması münasibətilə sizi ürəkdən təbrik edir, işinizdə uğurlar arzulayırıq.

**Elə bu vaxt hardasa bərkdən anqıran eşşəyin səsi radioya düşür.**

Oy, üzr istəyirik, əziz dinləyicilər. Yenə qıllı Qulamın ulağı zəngulə vurmağa başladı. Saatlarınızı düzəldə bilərsiniz. *(Eşşəyə acıqlnır.)* Hoç! Hoç! A köpəyoğlunun heyvanı, get bir az o tərəfdə anqır da. Başımıza oyun açdı da bu Qıllı...

**Səsləri həzin musiqi əvəz edir.**

## İKİNCİ FRAQMENT

**Səliqəli geyimli, orta yaşlarında bir nəfər təbəssümlə səhnə önündə görünür.**

**YAZIÇI -** O yay tale yenidən məni doğulduğum, qoynunda uşaqlığımı keçirtdiyim kəndimizə gətirib çıxartmışdı. Hamı dost idi, tanış idi, qohum idi, lakin bununla belə, nədənsə, məndən qaçırdılar, qaynayıb-qatışa bilmirdik.
Ev-eşikləri, güzəranları dəyişsə də - düzdü, o ili xeyli ağırlaşmışdı – özləri heç dəyişmirdilər. Həmişəki zarafatcıl, söyüşün birini bir qəpik bilən, hərəsi bir zırpı ləqəb daşıyan, deyib-gülən, keyfcil adamlar olaraq qalırdılar
O yay kənd cavanlarının çıxardıqları qəribə oyunlar, gördüyüm əhvalatlar, sözün əsil mənasında, çox gülməli bir tamaşa idi. Kənd radiosunda nələr söyləmirdilər? Divar qəzetində nələr yazmırdılar? Hər səhər kənd sakinləri inəyini, camışını qabağına salıb malqatana gətirəndə bu qəzetin önünə toplaşar, bir-birinin çiyni üstən boylanaraq ləzzətlə, gülə-gülə məzəli, zarafatyana bir üslubda yazılmış kəndin ən son, təzə xəbərlərini, əhvalatlarını oxuyardılar və başlarını bulayaraq uğuna-uğuna dağlıb gedərdilər. Ən maraqlısı bu idi ki, "Meşəli" qəzeti demək olar ki, hamıya sataşırdı. Lakin heç kim bundan incimirdi, özündən çıxmırdı, uzaqbaşı "Yalançının anası-dədəsi belə-belə olsun" deyə yağlı bir söyüş söyüb aralanırdı. Nömrələrin birində hətta mənə də toxunmuşdular.

**Yazıçı bir an fikrə dalır. Qəzetdə getmiş sözlər sanki yenidən səslənir.**

**REPRODUKTOR –** "Əgər səhərlər kəndin kənarlarında əynində "Nayk" idman kostyumu, gözündə eynək, qoltuğunda bir qalaq kağız olan şübhəli şəxs görsəniz onu xarici ölkə şpionu hesab edərək polisə xəbər verməyin. "Azadlıq" radiosunun verdiyi məlumata görə, o adam şpion yox, yazıçıdır, özü də əslən bizim kənddəndir. Əvvəlki yaylarda olduğu kimi yenə gəlib ki, meşələri gəzib zoğal yığsın, araq çəksin və şəhərə qayıdarkən yaxın dostları, yaxın mamlı-matan xanımlarla oturub kəndimizin şərəfinə badə qaldırsın. Çox təəssüf ki, bu il amansız quraqlıq zoğalları ağacdaca qurudub, yazıçının işi müşkülə düşüb.

**YAZIÇI -** *(Təbəssümə başını bulayır.)* Və təbii ki, mən də bina heç məhəl qoymadım.

**Bu vaxt "Dırrr-dırrr..." səsləri çıxardaraq əynində tör-töküntü paltar bir nəfər qaça-qaça səhnəyə gəlir, əlində bir qırıq rul tutaraq maşın sürürmüş kimi meydanda o üzə-bu üzə dövrə vurur.**

Bu isə Meşəlinin dəlisidir. Səmə Geroy deyirlər adına. Igid oğlan imiş. Qarabağda qoçaqcasna vuruşurmuş. Döyüşlərin birində beləcə başı pozulub.

**Səmə Geroy "siqnal verə-verə maşınını" çayxananın stolları arasından keçirdib qarpız topasının qabağında saxlayır. Təəccüblə qarpızlara baxır. Belindən asdığı telefon dəstəyini qulağına tutub sirli bir tərzdə həyəcanla, pəltək-pəltək danışır.**

**SƏMƏ GEROY -** Alo! Alo, alo! Cənab qa-qa-qamandir! Tu-tu-tumuşam! Dü-dü-düz bit topa top!
Bax, bu-bu-bu boyda! Top-top-top! Bir şəhəri da-da-dağıdar! Top-top-top! *(Atılıb düşür.)*

**Yazıçı hiss olunmadan səhnədən çəkilib.**

**Qarpız topasının yanındakı qatlama çarpayıda bayaqdan tərpənməzcə uzanmış kök, gombul qarpız satan arvad yuxulu-yuxulu arxası üstə çevrilir. Üstü açılır.**

**Səmə onu görüncə donub qalır. Sonra çox maraqla qadına yaxınlaşır, üstündən o üzə-bu üzə hoppanır. Qorxa-qorxa iri döşlərinə əl vurmaq istəyir.**

**SƏMƏ GEROY -** *(Aralanır, həyəcanlı pıçıltılarla dəstəyə.)* Qa-qa-qamandir! To-oooo-opçu da burda! İçində iki-iki-iki top. Bi-bi-ri sənin, bi-bi- biri mənim. Pardayar? Çıxardım o-o-onda! *(Yaxınlaşıb ehtiyatla qadının döşlərini tutub dartmaq istəyir.)*

**Qarpız satan arvad yuxudan ayılır, bərkdən qışqırır. Səmə qaçıb "maşınına oturur, onu işə salır", sürətlə meydanda dövrə vurub uzaqlaşır.**

**QARPIZ SATAN ARVAD –** *(Onun ardınca söyür.)* İt oğlu! Eşşəy oğlu! Səmə donuz oğlu! Neynəmək istiyirdin, qancıq qarnından çıxan! *(Oturub ağlamsınır.)* Aman Allah! Bu nə bəladı düşdüm? Haçan satıb qurtaracağam bu zəhrimarları? Haçan çıxıb gedəcəyəm bu cəhənnəmdən?

**SƏMƏ GEROY -** *(Qayıdıb gəlir, aralıda dayanıb ağlayan arvada baxır.Yaxınlaşır.)* N-n-n-niyə ağlayırsan? Pu-uu-lun yoxdu? A-a-ağlama, gəl pul verim sə-əə-nə. *(Boynundan aşırdığı dolu çantadan bir neçə ovuc kağız pul çıxardıb qarpız satanın qabağına atır, "maşınını sürüb" gedir.)*

**QARPIZ SATAN ARVAD -** *(Bir müddət gözlərinə inanmırmış kimi pullara baxa-baxa qalır, cəld ayağa qalxıb sevinclə onları yığır. Sonra bərkdən çağırır.)* Səmə huy! Ədə qayıt gəl, sənə qarpız verim. *(Oturub pulları sayır.)* Vay, başıma xeyir, bunların hamısı təklik imiş ki. Beş paçka olsa heç bir neçə qarpızın pulu eləmir. Səmə köpəyoğlu, qancıq oğlu məni dolamaq istəyib. Görəsən bu ölü pulları hardan ələ keçirdib donuz oğlu? Yəqin kimsə də onu dolayıb. Tfu!.. *(Pulları göyə atır, əskinaslar xəzan yarpaqları kimi yağır. Birdən qarnı sancılanır deyəsən. O üzə-bu üzə boylanıb səhnədən çıxır.)*

**İki oğlan uşağı əyilə-əyilə qarpız topasına yaxınlaşır. Yan-yörəni gözdən keçirdib tələsik hərəsi bir qarpız götürüb qaçır.**

## ÜÇÜNCÜ FRAQMENT

**Aralıdan inək, camış maaltıları, böyürtüləri eşidilir. Əlində çomaq, çubuq tutmuş kəndlilər tək-tək, iki-bir qəzet önünə yığılır, maraqla oxumağa başlayırlar.**

**I KƏNDLI -** Hə, baxaq görək bu gün nədən yazırlar? *(Oxuyur.)* Xırman xəbərləri. Əziz buğda oğruları, sizin nəzərinizə! Xəbər verdiyimiz kimi, oğruluğun qarşısını almaq məqsədilə kolxoz sədri zırpı Hətəm xırman qarovulçularının sayını üç nəfərdən on üç nəfərə qaldırıb. Ehtiyatı əldən verməyin.

**II KƏNDLI -** On üç nəfərin qabağında daa ora yaxınlaşmaxmı olar?

**I KƏNDLI -** *(Oxuyur.)* Bir neçə gecədir ki, bizim igid oğrular xırmanın həndəvərində dolaşsalar da əliboş qayıdıblar evlərinə. O qədər silahlının qabağında nə etmək olar?

**III KƏNDLI -** Genə də arada bir-iki səhləm çırpışdırırdıq, onnan da olduxmu?

**I KƏNDLI -** Hər halda uşaxlar genə nəsə fikirləşib tapacaxlar.

Məncə, bu oğruluğa görə dölü. Deyirlər, Zırpının oğlu qumarda uduzub neçə tonsa...

**II KƏNDLI -** Düz deyirsən, vallah, elə ona görə gücləndirib oxrananı.

**IV KƏNDLI -** Bu nəyin reklamıdı belə? *(Oxuyur.)* Hə, X.-gildə (İt-qurd əlinə düşməsin deyə adını yazmırıq, onsuz da lazım olan adamlar onu yaxşı tanıyırlar.) bu ilki tutdan yeni "məhsul" hazırdır. Ikinci dəfə çəkilərkən qazana kömür də atılıb, limon yarpağı da, gül suyu da. Qiyməti "zavodskoy"lardan bir məmməd artıqdır. Bu bir məmmədə özünü öldürsən bir çörək düşür, o da onun zakuskası. Amma X-gildəki "məhsula" zakuska lazım gəlmir, bir dəfə dərindən ovucunu iyləsən bəs edir.

**II KƏNDLI -** Bəh-bəh, gərək bu gün özümü verəm ora. Görəsən nisyə buraxır?

**III KƏNDLI -** Buraxmayıb neyləyəsidi ? Hamısını özü içəsi dölü ki. Hindi nağdı kimdə var?

**I KƏNDLI -** *(Oxuyur.)* Dükançı oçki Vəli xəstələnib. Xəstəyə baş çəkmək istəyənlər gündüz də gedə bilər, axşam da. Kişinin kəsilmiş çolpaları da var,təzə çəkilmiş əl arağı da.

**II KƏNDLI -** Gəlsənə, elə burdan birbaşa gedək Oçkinin yanına.

**I KƏNDLI -** Vallah, düz deyirsən, bir azdan kəndin lotu-potusu hamısı orda olacaq.

**III KƏNDLI -** Aha, bu nədir belə? *(I Kədliyə.)* Ə Cəfər, sənin gözün yaxşı görür, atovun goru bunu bir oxu görək dollar Vahid neyləyib yenə?

**I KƏNDLI -** Xəbərin yoxdu, öyünü yıxıblar kişinin. *(Oxuyur.)* Dollar Vahidin əyri qozun yanındakı kuza budkasını qarət ediblər. Budka sahibinin uçastkovı göygöz Veysəllə apardığı ilkin yoxlamadan sonra məlum olub ki, oğrular kəndin komersantına əməlli-başlı ziyan vurublar. Qarətçilər nə az-nə çox, düz on iki saqqız, bir "Fanta" bankası, bir şüşə pivə, üç "Bakuş" və iki biskivit aparıblar. Hə, bir dənə də ağzı açıq "Astra" qutusu...

**IV KƏNDLI -** Bah səni, yazığa əməlli-başlı ziyan dəyib ki!..

**I KƏNDLI -** Dayanın, dayanın... yenə bir oğruluq hadisəsi. *(Oxuyur.)* Molla Pirvəlinin həyatində oğruluq baş verib. Oğrular da, oğurlanmış mal da hələ ki gizli qalır. Bu barədə məlumatı olan redaksiyamıza müraciət etsin. Göygöz Veysəl

vəd edib ki, bu hadisə haqqında ətraflı və dolğun informasiya verən adamı böyük bir sürpriz gözləyir.

**IV KƏNDLI -** Ə, görəsən nəyini aparıblar şeyxin? Uşaqları tutdurmasa əl çəkən dölü keşiş oğlu.

**II KƏNDLI -** Sus... Şeyxin özü gəlir deyəsən.

**Sol tərəfə boylanırlar.**

**IV KƏNDLI -** Bəlkə özündən soruşaq bir.

**I KƏNDLI -** Olmaz. Görmürsən, hələ gizli saxlayırlar hər şeyı... Sən ölmüyəsən, burda nəsə bir sirr var.

**IV KƏNDLI -** Bu nədi əə, kənddə oğruluq baş alıb gedir. Əvvəllər Meşəlidə belə şeylər olmazdı ee heç.

**Molla Pirvəli salam verib tələsik keçib getmək istəyir.**

A molla, səhər-səhər hara belə tələsirsən? Xeyir ola?

**MOLLA PIRVƏLI -** Xeyirdi, ay oğul. Şabangildə yas düşüb, tez gərək özümü ora yetirəm. *(Dayanmadan gedir.)*

**Ardınca baxıb xəlvəti gülüşürlər.**

**IV KƏNDLI -** Dayanın ee, Şabanın nəyi ölüb ki?

**III KƏNDLI -** Xəbərin yoxdu? Dünən gecə arvadı başını qoydu da yerə.

**IV KƏNDLI -** Sən Allah, düz deyirsən? Ədə, bu Saqqal bunnan neçəsinin başını yiyir?

**III KƏNDLI -** Vallah, mən biləni bu diyəsən on ikincidi.

**IV KƏNDLI -** Bah səni... On ikisinin dadına baxıbmı yəni bu dünyada.

**II KƏNDLI -** Tələsmə, bir də eşidəcəksən ki, on üçüncünü də prob iliyir.

**IV KƏNDLI -** Nə gözdüyürük? Biz də gedib bir baş çəkək də ora.

**I KƏNDLI -** Gedək, gedək...

**II KƏNDLI -** *(Xəlvəti birinci Kəndliyə.)* Bəs Oçkinin yanı?..

**I KƏNDLI -** *(Birdən xatırlayır.)* Hə, siz gedin, biz də bir azdan gəlirik. Yaxşı dölü, səhər-səhər görünmək lazımdı orda, soora inciyib iliyər.

**Üçüncü, dördüncü Kəndli bir az aralanır.**
**Birinci və ikinci Kəndli özlərini hələ qəzetə baxırmış kimi göstərir.**

**III KƏNDLI -** İndi yəqin Pirvəli özünü çatdırıb ora.

**IV KƏNDLI -** Eh, ona nə var ki. Harda aş, orda başdı. Gözü doymur da zalımın. Helə də simicdir ha.

**III KƏNDLI -** Bir gün başına oyun açdım da. Kiminsə yası idi, yadımdan çıxıb, oturub təsbeh çevirə-çevirə axirət dünyasından, halallıqdan vəəz iliyir: "Bax, yadınızda qalsın, bu dünyada bir adamnan beş məmməd borc alıb qaytarmasanız, bilin ki, o dünyada bu borcu yüz dəfə artıqlaması ilə qaytarmalı olacaqsınız. Yəni ki, beş məmmədin yerinə əlli şirvan qaytaracaqsınız." Arsızlığıma salıb didim, a molla, eyibi yox, gəl sən mənə beş məmməd borc ver, o dünyada mən sənə əlli şirvan nədi ee, lap beş yüz şirvan qaytararam. Xırp səsini kəsdi.

**IV KƏNDLI -** Pirvəlidən beş məmməd qopartmaq olar? Allah verdiyi canı ondan ala bilmir.

**III KƏNDLI -** Pul verən olsa, canını da verər. Keçən payız kəndə tez-tez alverçilər gəlirdi axı. Qapı-qapı gəzib şabalıd, qoz, fındıq alırdılar. Bir axşam qaranlıqlaşandan sonra bizim şeyxin darvazası döyülür. Yerə düşməyə qorxan şeyx eyvandan soruşur: "Kimdi?" Dələduzlardan kimsə boğuq səslə diyir: "Əzrayıl." Qulağı ağır eşidən şeyx heç nə başa düşməyərək soruşur: "Nəyə gəlmisən?" Boğuq səs diyir: "Can almağa." Pirvəli bir az götür-qoy edib yenə soruşur: "Neçədən alırsan?"

**Gülüşürlər.**

Bir gün də bına iki məmməd vermişəm ki,rəhmətlik dədəmə bir yasin oxusun. Tələsik pulu cibinə soxub diyir: "Məndə oxuyub zapas yığdığım hazır yasinlər var, onlardan birini əta iliyim, yoxsa svejisini oxuyum?"

**Yenə gülüşürlər.**
**Gedirlər.**

## DÖRDÜNCÜ FRAQMENT

**Qəzet önünə daha iki Kəndli yaxınlaşır.**
**Elə bu dəm eşşək yenə bərkdən anqırır.**

**V KƏNDLI -** Saatlarızı düzəldin, qıllı Qulam anqırdı.
**I KƏNDLI -** Ə, hardan gətirib çıxardı Qıllı köpəyoğlu bu eşşəyi? Baş-beynimiz getdi ki...
**II KƏNDLI -** Yox, a kişilər, vallah belə olaz. O Qıllını başa salmaq lazımdı, rədd eləsin murdarı. Meşəlidə heç vaxt eşşək olmayıb axı.
**VI KƏNDLI -** Yazıq özü də başını itirib, bilmir neynəsin. Zarafat dölü e, cağbacağ bir matasklet verib o eşşəyə.
**I KƏNDLI -** Mən ölüm?
**VI KƏNDLI -** Eşitməmisən bəs? Nemes Callat hökümətin bağışdadığı qoz kimi "Cuquli"sini qonşu kənddə bir ata dəyişib, bu da Nemesə baxıb mataskletini verib eşşək alıb.
**V KƏNDLI -** Başdarına hava gəlib də.
**IV KƏNDLI -** Neyləməlidilər e? Yazıqlar benzin ala bilirlər ki. Callat diyirmiş, gündə cəmi bir litrə benzn alsam, bu pula ilin axırında alababat bir maşın düşür. Hardadı məndə bir maşının pulu? Hazır benzinsiz işdiyən dədə-baba maşınımı sürüb gedirəm də hara olsa.
**V KƏNDLI -** Dağılasan səni, dünya, daa sənə sözüm-zadım qalmadı.

## BEŞİNCİ FRAQMENT

**Radioda musiqi səslənir.**
**Birinci və ikinci Kəndli hələ qəzetin önündədir.**
**Onlara daha bir neçə nəfər yaxınlaşır. Maraqla qəzeti oxuyurlar.**

**Ayağında rezin şəpətkə, gözündə qara eynək, əynində üstü bəzəkli mayka və idman şalvarı olan bir oğlan əsnəyə-əsnəyə çayxananın stollarının üstünü silir.**

**Qarpızsatan arvad qayıdıb əl-üzünü yuyur.**

**Yazıçı səhnəciyin yanında görünür.**

**YAZIÇI -** Bu hayd-park kürsüsü lap dəhşət idi. Dünən açılış günü burda nələr deyilmədi? Yəqin ki, ən maraqlı çıxışlar hələ

bundan sonra olacaq. Kimin ağlına gəlib belə bir şey quraşdırmaq- bilən yoxdur. Amma hər halda yaxşı fikirdir bu. Düzdü, indi deyilən sözə elə bir məhəl qoymurlar, kimi istəyirsən söy, nə istəyirsən de, hə, yalnız təhqie etmə. Heç olmasa, ürəklərini ki boşaldırlar. Bu özü böyük işdir...

**II KƏNDLI -** *( Birinci Kəndliyə.)* Hə, gedəkmi Oçkinin yanına?

**I KƏNDLI -** Ə, qoy kişi bir yerindən dursun, əl-üzünü yusun.

**II KƏNDLI -** Eləisə gedək zəqrəniş Aliyin yanına, nisyə bir çay vurax, vaxt keçsin.

**Çayxanaya tərəf gedirlər.**
**Yazıçı səhnənin dərinliyində gözdən itir.**

**II KƏNDLI -** *(Birdən yerə səpələnmiş pullar görür.)* Ə, bu nədi ə belə? Pula bax ee... *(Sevincək yığır.)*

**Birinci Kəndli də yığmağa başlayır.**
**Qarpız satan arvad bərkdən gülür.**

Nəyə gülürsən, ay arvad? Gəl bir qıraqdan da sən yığ. Bir həftədi bitib qalmısan qarpızların yanında.

**QARPIZ SATAN ARVAD -** Bir həftə yox, bu gün düz on gündür yatıb qalmışam burda. Beş ton qarpız gətirmişdik, hələ bir tonu getməyib. Bu boyda kənd on gündə beş ton qarpız yeyə bilməyib.

**I KƏNDLI -** Vallah, bir gündə yeyib qurtararlar, lap günortaya qədər yiyib qurtararlar. Camaatda pul yoxdu da. Ağlın öz yerinizə getməsin, bizim kənd çox kasıbdı.

**QARPIZ SATAN ARVAD -** Ee, bizimkilər bundan da kasıbdı. Sizə nə var ki? Meyvəniz olur, mal-qaranız olur. Satıb bir təhər dolanırsınız. Bizim külfət gözünü bunnara dikmişdi. *(Qarpızları göstərir.)* Guya bir yerdə satıb illik taxıl alasıydıq. Gündəlik yeməyimi düzəldə bilmirəm.

**II KƏNDLI -** Nağıllarda deyilir ee, su arxının başında div oturub, suyu camaata buraxmır. Hindi də elə bil pulun başında nəhəng bir div oturub, bir məmməd buraxmır bu üzə.

**QARPIZ SATAN ARVAD -** *(Pullara işarə edərək təbəssümlə.)* Amma diyəsən Allahın rəhmi gəlib yağış kimi yağdırıb kəndin başına.

**II KƏNDLI -** *(Birdən.)* Adə, bunnarın hamısı təkliy imiş ki. Tfu!

**Qarpız satan arvad qəh-qəhə çəkib gülür.**

**I KƏNDLI -** Allahın da gücü buna çatırmış. *(Əlindəki pulları cırıb atır.)*

**QARPIZ SATAN ARVAD -** Başı batsın cəmə Geroyun, gəlib buraları zibilliyib gedib.

**II KƏNDLI -** Hə, diyirəm axı... Kimsə Səməyə bir çantey təklik verib, guya hökümət göndərib onun adına, Qarabağda yaxşı vuruşduğuna görə. O da bu pulları sıxma-sıxma paylayır ona-buna.

## ALTINCI FRAQMENT

**Əldə düzəldilmiş stol arxasında otururlar.**
**Radiodakı musiqi yavaş-yavaş eşidilməz olur.**

**I KƏNDLI -** hə, Alik bala, sabahın xeyir. Bir balaca çaynik dəmlə görək.

**ALIK -** Nisyədi yenə?

**II KƏNDLI -** Molla Nəsrəddin demiş, kişidə söz bir olar. Qorxma, bu yaxınlarda ödəcəyik hamısını. Altıaylıx niyə olursan?

**ALIK -** Ə, insafınız olsun, siftəmi pozmayın, bir nizami də varsa verin.

**I KƏNDLI -** Odey siftə. *(Yerdəki pulları göstərir.)* Yığ da nə qədər istəyirsən.

**ALIK -** Geroyun pulları gözünə girsin. Dünən də gedib dükanın qabağını zibilləyib beləcə. *(Narazı halda öz-özünə başını bulayır.)*

**QARPIZ SATAN ARVAD -** *(Əlində iri bir qarpız yaxınlaşır.)* Ala,siftə olsun. Bir çaynik də mənə dəmlə. Bu gündən qarpızın biri bir nizamiyədi. irisi də, xırdası da. Kim tez gəlib alsa irisini seçə biləcək. Görək bir təhər başımnan iliyib çıxıb gedə bilərəmmi öz xarabama. Belə getsə, bütün yayı burda keçirtməli olucam diyəsən.

**II KƏNDLI -** Sən nisyə burax, payızda gəlib yığarsan da pulunu.

**QARPIZ SATAN ARVAD -** Yox, əlimnən verib ayağımnan axtara bilmərəm. Qarpızın nisyəsi olmaz.

**Alik "əlin yüngül olsun" deyib qarpızı götürərək gedir.**
**Qarpız satan arvad aralanır.**

**II KƏNDLI -** Vallah, maraxlıdı e, bizim kişilər belə şey iliyər? Neçə gündü gətirib arvadını bir topa qarpıznan bura atıb gedib.

**I KƏNDLI -** Ee, o tərəflərdə belə şeylər adi şeylərdi. Sərin yerdi də, arvad da qarpızları yağa-şora dəyişib gününü keçirdir, atdıxat iliyir özüyçün. Bir də, kimdi ee onnan işi olan. Hamı özünkünnən bezardı.

**ALIK -** *(Stəkan-nəlbəki, qənddan gətirir.)* Nisyələrlə Vəlinin dükanını bankrot ilədiz. Hindi yazıx on-on beş şirvan tapmır ki, gedib təzə mal gətirsin. Belə getsə, diyəsən, mən də onun gününə düşəcəm.

**II KƏNDLI -** Vermiyeydi də nisyə.

**ALIK -** Hindi mən sizi geri qaytara bilərəm? O da elə. Kəndçidi, qohumdu, üz-üzdən utanır. Hamı ehtiyac içindədi. Gəlib yalvar- yaxar edirlər. Amma sonra verə bilmirlər pulu. Yığışıb qalır. Elə adam var ki, ildən çoxdu filan qədər borcludu.

**I KƏNDLI -** Pensiyaynan, uşax puluynan dolanan camaatdı da. O da vaxtlı-vaxtında verilsə. Bir zamanlar qarğıyıb deyərdilər,görüm səni maaşnan dolanasan. Indi də hamı pensiya umudundadı.

**ALIK -** Eh, axırda yazıq fikirdən xəstə düşüb.

**I KƏNDLI -** Allah onun canına qıymasın. Kənd, inan ki, onun sayəsində qənd-çay işdədir, duz işdədir, sabun işdədir. Yoxsa, camaatın vəziyyəti lap ağır olardı. Böyük savabdı. Di gəl, hindi özü qalıb quru yurtda. Dükanın qabağına elan vurub ki, nisyələri azacıq da varsa ödəsinlər, yoxsa, kənd tamamilə qənd-çaysız qalacaq...

**Qarpız satan arvad əlində bir bağlama gəlib aralıdakı ctolun arxasında üzü qarpızlarına sarı oturur. Bağlamanı açır, şorla, soyutma yumurta ilə çörək yeyir.**

**REPRODUKTOR –** *(Kişi səsi.)* Quq-quu... quq-quu. Bayaqkı vacib elanı təkrar edirik. Kim kolxoz sədri olmaq istəyir? Bildiyiniz kimi, nə müddətdir zırpı Hətəm istefa ərizəsi yazıb. Lakin rayon rəhbərləri hələ ki, onun istefasını qəbul etməyiblər. "Yerinə bir adam tap, sonra baxarıq" deyiblər. Bu axşam yay səhnəsində kəndin ümumi iclası olacaq. Rayondan hətta Görüşov cənabları özü sizin görüşünüzə təşrif buyuracaq. Zırpının ərizəsi müzakirə ediləcək. Hamının iştirakı vacibdir.

**II KƏNDLI -** Ə, maraxlıdı ee, bu zırpı Hətəmə nə gəlib ki, öz xoşuynan sədirlikdən getmək istəyir?

**I KƏNDLI -** Allah bilir... Sən ölmüyəsən, burda nəsə bir sirr var.

**II KƏNDLI -** Onun gözü doyan dölü, hindi nə olub görəsən?

**I KƏNDLI -** Uşaxlıxdan heylə acgözdü. Qabağına hansı qabda yemək qoysalar baxıb ağlayırmış: "Bəs görün özüvüz nə qarta yimisiz ki, məə saxladıız budu." Bir dəfə iri bir qazan aş bişirib üstünnən qaşıq da götürmədən gətirib qoyullar qabağına ki, görək bu dəfə səsi kəsilərmi. Qazana baxıb başdıyır bu dəfə daha bərkdən ağlamağa. Dədəsi dözmüyüb hirslə diyir: "A köpəy oğlu, hindi nəyə ağlayırsan?" Hətəm gözünün yaşını tökə-tökə genə diyir: "Görün özüüz nə qarta yemisiz ki, məə saxladığınız cəmi bir qazandı."

**Alik gətirib onların qabağına çay qoyur.**

**II KƏNDLI -** Sağ ol ee! Vallah, bu yaxınlarda xəcalətinnən çıxacağıx.

**Alik bir söz demədən gedir.**
**Qarpız satan arvada da çay aparır.**
**Divar qəzetinə baxan kəndlilərdən iki nəfər onlara yaxınlaşır.**

**VI KƏNDLI -** Bəh-bəh... Əlüvüzə pul keçib diyəsən, özüüzü vurmusuz çayxanaya.

**II KƏNDLI -** Pul odey, Allah töküb kəndin başına.

**V KƏNDLI -** O pullar yiyəsinə qismət olsun. Hansı əclafsa Səməni dolayıb. Bir çantey ölü pul verib ona diyib, nə qarta istiyirsən xərclə, lazım olduqca hökmət genə göndərəcək sənə. O da kəndi gəzə-gəzə harda bikef adam görsə bir sıxma atır üstünə.

**Otururlar.**

**I KƏNDLI -** *Çağırırı.)* Alik, iki stəkan da gətir, balaca çayniyin birini də.

**VI KƏNDLI -** Eşitdiiz də... Zırpı genə "mıstafa" diyib durub. Özü də işin-gücün belə qızgın vaxtı.

**V KƏNDLI -** Dayan ee, bəs onun yerinə kim olacax?

**I KƏNDLI -** Kim istəsə o. Görmürsən, car çəkirlər, kim qalxoz sədri olmax istiyir?

**VI KƏNDLI -** Vallah, yaxşı zəmanədi. Keçmişdə, heç adama belə sual verərdilər?

**Alik dinməzcə iki stəkan gətirib qoyur.**

Kim belə sual eşitmişdi əvvəllər? Qalxoz sədri yeri boşalan kimi dayılar işə düşərdi, pul sandıxları açılıb-örtülərdi. Bir də görərdin ki, budu ha, dayısı göyçəyin, özü göyçəyin biri gəldi və didi, salam-məleyküm, bəs mən sizin qalxozun təzə sədriyəm. O dəqiqə başdar əyilərdi, cannara qorxu düşərdi, xəlvəti qonaxlıxlar başdıyardı, "Filankəsov, burda oturmuyun, sizə soyux dəyər, zəhmət olmasa, başa keçin, burda üstünüzə gün düşər."

**Alik çayniyi də gətirir.**

**II KƏNDLI -** Demoqratiyadı da. Dünya dəyişib.

**VI KƏNDLI -** Kim qalxoz sədri olmax istiyir? Hindi bu sual kəndin qapılarını bir-bir döyür, kişilərin yaxasından yapışır. Nə pul istiyən var, nə dayı soruşan. Yalnız bircə o qalır ki, bir igid çıxıb qabağa, əlni çırpa sinəsinə. O igidsə tapılmır ki, tapılmır.

**I KƏNDLI -** O iyid sən. Götür işlət.

**VI KƏNDLI -** Yox, keçəl suya gedən dölü. Az aşım, ağrımaz başım. Bostan daa ur olub. Hindi mənə nə gəlib ki, göz görə-görə özümü atım cəncələ.

**I KƏNDLI -** Bəs onda Zırpını niyə qınıyırsan?

**VI KƏNDLI -** Qınıyıb iləmirəm. Hər kəs öz işini daha yaxşı bilir.

**II KƏNDLI -** Sus... Zırpı özü gəlir.

**Söhbəti kəsirlər.**

## SƏKKİZİNCİ FRAQMENT

**Zırpı Hətəm yaxınlaşıb salam verir, aralıdakı ağ plastmass kresloda oturur.**
**Kəndlilər yerlərində qurcalanaraq onunla salamlaşır, susub qalırlar.**

**ZIRPI HƏTƏM -** Ədə, Alik, bir çay gətir görək. Bir paprıs da gətir. *(Narahatdır.)* Pah atonnan, a kişilər, belə də iş olar?

**VI KƏNDLI -** Nə olub, Hətəm məllim, niyə dilxorsuz?

**ZIRPI HƏTƏM -** A kişi, dilxor olmuyum, neyniyim? Min əzab-əziyyətnən taxıl becərmişik, biçib gətirib xırmana tökmüşük. Allah bərəkət versin, yaxşı da məhsul olub bu il. Bu gün-sabah bölgü çıxardasıyam. Di gəl boğdanı xırmandanca oğruyub qurtarırlar. On nəfər də təzə axrannik vermişəm, əllərinə tüfəng vermişəm ki, bəlkəm oğruluğun qabağı kəsilə. Iki gecə gedib arxayıncasına yatmışam ki, daha xırmana yaxın duran olmaz. Bu iki gündə nə ambara, nə də tədarükə bir torba da buğda aparmamışıq. Gəlib görürəm ki, boğda dağları buz təpəcikləri kimi əriyib. Diyirəm, a köpəy uşağı, bu nədi belə? And-aman iliyirlər ki, səhərə kimi yatmamışıq, heç kəs də bura yaxın gəlməyib.

**Alik Hətəmin də qabağına çay gətirir.**

Sağ ol, a bala. Hə, di tap görüm, necə olub boğda. Ətrafları fırlanmışam ki, bəlkəm hansı nadürüstsə lağım atıb xırmanın altına. Heç bir izə-zada rast gəlməmişəm. Bu gecə iləmə tənbəllik, gəlib pusquda durmuşam. Səhərə yaxın nə görsəm yaxşıdı? Qarovlçuların özdəri meşok-meşok dartıb aparırlar boğdanı. Üzdərinə tüpürdüm. Qovdum hamısını. Analarına, bacılarına söyüb. Didim, ay haramzadalar, oğrular sizdən insaflıymış ki, siz olmuyanda boğda heç bu qədər azalmırdı, ay sizin arvaddarınızı belə-belə iliyəm hə... Di gəl işdə belə alçaxlarnan, görüm necə işdiyirsən.

**VI KƏNDLI -** Bah səni, belə də iş olar?

**ZIRPI HƏTƏM -** Özdərinə tapşırmışam, nə qarta aparmısınızsa, qramına qədər qaytarıb gətirib boşaldın xırmana. Özü də camaatın gözü qabağında. Qoy hamı tanısın sizi. Yoxsa, hamınızı basdıracam qoduxluğa. Xalx acınnan qırılır, bölgü gözdüyür, bu oğraşlar isə tay-tay daşıyıb qurtarırlar boğdanı. Camaata nə böləcəyəm hindi? *(Çayı nəlbəkiyə töküb hirsli-hirsli içir, üstən siqaret tüstülədir, öskürür.)*

**Üzünü çevirib Hətəmin söhbətinə diqqətlə qulaq asan qarpız satan arvad qarpızlarını tamamilə unudub. Birdən nə isə duyubmuş kimi geri dönür. Qarpız oğurlamaq istəyən uşaqları görüncə söyə-söyə onların üstə qaçır.**

**QARPIZ SATAN ARVAD -** A köpək uşağı, ay it uşağı! Hər gün sizə nə qədər pay verirəm, yenə əl çəkmirsiz burdan? Eyibi yox, bir də gələrsiz yanıma...

**ZIRPI HƏTƏM -** Buyur!.. Görürsüz, uşaxları da hindidən öyrədirlər oğruluğa . Bizdən keçər, bu yazıx arvad qonaqdı axı. Öyünü-eşiyini atıb nə müddətdi ki, gəlib görək beş-on manat çörək pulu qazana bilərmi. Geri dönəndə camaatımız haxda Allah bilir nələr danışacaq oralarda. Ayıbdı, vallah.

**I KƏNDLI -** Eh, Hətəm məllim, oğrulux da var oğrulux da... Güzəran ağırlaşdıqca hərə bir cür oğurruyur. Hətta diyirlər, taxılı qumara qoyanlar da var.

**ZIRPI HƏTƏM -** *(Əsəbiləşir.)* Ə bu nə söhbətdi yayılıb kəndə? O adamı camaatın gözü qabağındaca güllələyərdim, lap mənə ömürlük türmə versələr də. Bərəkətnən, camaatın puzusuynan da qumar olar?

**QARPIZ SATAN ARVAD -** *(Geri qayıdıb bağlamasını yığışdırır.)* Hətəm məllim, bəlkəm bir yaxşılıx iliyəsüz, bu qarpızları buğda ilə dəyişəsüz, soora da camaata böləsüz.

**ZIRPI HƏTƏM -** *(Hirsini boğaraq.)* Ağıllı fikirdi. Gərəydi birinci günnən iliyəydik bunu.

**QARPIZ SATAN ARVAD -** Daa iliyəmməsüz?

**ZIRPI HƏTƏM -** Baxax görəy də.

**REPRODUKTOR** – *(Musiqi fonunda qadın səsi.)* Daha bir elan. Alça, zoğal, xiyar-pamidor, göy lobya satanların nəzərinə. Tormoz Camal Meşəli-Göysu reysi açıb. Həftənin üçüncü və altıncı günləri o, özünün "Belarus"una lafet qoşub sizi o başdannan küləklənə-küləklənə bazara aparacaq və axşam üstü də qaytarıb gətirəcək. Yol pulunu apardığınız malı satandan sonra ödəyəcəksiniz. Işdir, əgər məhsulunuz satılmasa adınızı tormoz Camalın nisyə dəftərinə yazdıra bilərsiniz.

**ZIRPI HƏTƏM -** *(Əlini bərkdən stola çırpır. Çay dağılır.)* A kişilər, görürsüz, görürsüz, qalxozun lapetini sobstvenni malına çevirib. Göysu şəhərinə reys açıb. Belə dağıdırlar ee, dövlətin əmlakını.

**II KƏNDLI -** Hirslənmıyin, Hətəm məllim. Vallah, yaxşı işdi bu. Camaata çox köməyi dəyə bilər. Əgər Cümşüd məllimin başına gələnnəri eşitsəydiz, özüüz düzüb qoşardınız bu işi.

**ZIRPI HƏTƏM -** Cümşüd məllimə nə olub ki?

**II KƏNDLI -** Elə bir şey olmuyub. Unu qurtarıbmış. Uşaxları dirrikdən bir az lobya yığıb məllimi Göysuya göndəriblər ki,

lobyanı satıb bir az taxıl alsın, gətirib üyütsün. Bazarın qapısından içəri girməmiş alverçilər qabağını kəsib lobyanı bir yerdən kilosunu min üç yüzə istiyiblər. Bazarda iki məmmədə satılan lobyanı Cümşüd məllim də min beş yüzdən aşağı verməyəcəyini diyib.
Alverçilərnən sövdəsi baş tutmayandan sonra lobyanı kilo-kilo özü satmaq qərarına gəlib. Ancax axşama kimi günün altında qalsa da bir kilo belə sata bilməyib. Axırda yalvarıb ki, kilosunu bir nizamıya da varsa alın, qoy geri qayıtmağa heç olmasa yol pulu düzəlsin, səhər gələndə də qonşudan borc alıb gəlmişəm. Genə də sata bilmiyib.
Gecəyə qalmasın diyib pulsuz-parasız tələsik yola çıxıb. Yol pulu əvəzinə sürücüyə bir torba lobya təklif iliyib. Şofer də insaflı adam imiş, lobyanı götürmüyüb, diyib, a kişi, ayıbdı, düş get, gündə neçə belə pasajirə rast gəlirəm, birinci dəfə dölü ki.
Cümşüd məllim də bir yekə "Sağ ol" diyib torbaları alır dalına, gəlir dayanacağa. Axşam düşdüyündən ordan da kəndə maşın olmuyub. Axırda əlacı kəsilən yazıx məllim dalında iki səhləm lobya payi-piyada gecə yarısı gəlib çıxır evlərinə.
Hindi üç gündü ki, Cümşüd məllimin uşaxları çörək əvəzinə şəhərləri, bazarları gəzib qayıtmış lobya yiyirlər. Məllimisə fikir götürüb, görəsən qonşunun borcunu nəynən qaytaracax, haçan qaytaracax.

**V KƏNDLI -** Məllimlərin şalvarsatan ayıdı da. Bir azdan onnar maaş almağa başdıyacaxlar. Bəs bizdər neyniyəciyik?

**II KƏNDLI -** Yox, didiyim odu ki, kəntdən şəhərə belə bir reys açılarsa, bu çoxlarını Cümşüd məllimin gününə düşmükdən qurtarar.

**ZIRPI HƏTƏM -** Özünüzə təzə sədir seçərsiz, o sizin üçün lap Maskvaya reys açar. Mən bacarmıram. Büyüm rayonnan yoldaş Görüşovun özü gələcək. Sözüüzü diyərsiz ona. Sabahdan daa işdəmicəm. Biri miqrafun açıb ağzına gələni danışır, biri qəzit şıxardır, biri tiatır çıxardır... Yox, daa bu kənd mənnik dölü.

**Alik padnosda çox qalın bir dəftər və qələm kəndlilərə yaxınlaşır.**

**ALIK -** Kimin adına yazım?

**I KƏNDLI -** Yaz mınim adıma.

**Alik dəftəri vərəqləyərəq lap axırda bir boş yer tapıb Birinci kəndlinin adını yazır. Stəkan-nəlbəkini padnosa yığıb Hətəmin stoluna yaxınlaşır.**

**ZIRPI HƏTƏM -** Adə, o üzə elə onu, mənim asdımı yazma ora. *(Ayağa qalxıb ciblərini qurdalayır. Bir cibinə bir neçə dəfə əl salsa da pul tapa bilmir. )* Zəhrimar... O biri şalvarın cibində qalıb diyəsən. Sonra göndərərəm.

**ALIK -** Eyibi yox, göndərməsəəz də olar. *(Dəftəri qoltuğuna vurub çayniyi, stəkanı padnosa yığır.)*

**ZIRPI HƏTƏM -** Yox, yox, arxayın ol. Gün uzunu burda çabalayırsan, bir-iki məmmədin yiyəsi olmalı dölüsənmi? *(Gedir.)*

**QARPIZ SATAN ARVAD -** *(Onun dalınca düşərək.)* Hətəm məllim, Hətəm məllim, bəs qarpızlar necə olsun?

**ZIRPI HƏTƏM -** *(Əsəbi.)* Sabahdan təzə sədir gələr, o, istəsə lap balqabaq da alar kəndlilərinə.

**QARPIZ SATAN ARVAD -** *(Başını bulaya-bulaya qarpızlarının yanına qayıdır. Bərkdən.)* Qarpız! Qarpız! Bal kimi şirin qarpız! Özü də ucuz! Biri bir nizamiyə! Ay müştəri, gəl mala, tez ol, qalma dala!

## DOQQUZUNCU FRAQMENT

**Kəndlilər hələ yerlərində oturublar.**
**Reproduktorda sakit bir musiqi başlayır.**

**II KƏNDLI -** *(Göyə baxaraq.)* Büyüm də diyəsən yaman isti olacax.
Vapşe, bu yay dəhşət istilər keçir. Hər yan od tutub yanır. Buralar belə olan gör aşağılar necə cəhənnəmdi. Yağsa, sel gələcək, kəndin cır məhləsini yuyacaq.

**I KƏNDLI -** Türkiyədə meşələrə od düşüb, yüzlərlə hektar meşə yanıb. Vertolyotlarla söndürürlər meşələri.

**II KƏNDLI -** Guya ki, bizim meşələrimiz yanmaz? Lap kəndə də od düşər, bizdə onu heç söndürən də olmaz.

**V KƏNDLI -** Bunun qışı nə olacax ee? Bu il yaman yemişən var, palıd qozası da boldu. Soyux keçəcək qış. Gərəy hindidən odun ehtiyatı görək.

**VI KƏNDLI -** Eh, meşədə odun qalıb ki. Dağa getmək lazımdı. Çətin olacax işimiz.

**I KƏNDLI -** Odun demişkən, ay Ramazan, traxtrın işdiyir? Bir az otum var, axşam sərinində onu gətirib yığax dama.

**VI KƏNDLI -** İşdəməyinə işdiyir e, salyarka tapa bilsəm...

**I KƏNDLI -** Gör bir təhər iliyə bilirsənmı?

**VI KƏNDLI -** Sənin canın üçün, dünən axşam üstü on litr nisyə töküb cır məhləyə getmişdim. Məllim Bəhlulnan bir kəlmə sözüm vardı. Heç on dəqqə oturmadım onnarda. Bir istəkan çay içən arada nə vaxt keçər ki? Qayıdıb gəlib nə illah ilədim traxtrı xoda salammadım. Orasını-burasını qurdaladım. Traxtır diyir, öldür məni, xoda düşmərəm ki düşmərəm. Mətəəl qaldım. Birdən qırağa atılmış şlanqı gördüm, ürəyim cız elədi. Baxıb görürəm ki, bakda bir udum da salyarka qalmıyıb.

Bilirəm ki, o tərəflərdə traxtır işdədən yoxdu. Bəs bu kimin işi olar? Baş açammadım. Bir də baxıb görürəm ki, qıraqda balaca bir qız uşağı bic-bic gülür. Toladıb soruşdum ki, burdan salyarka çıxardanı görmədin? "Gördüm" didi. "A bala, kim idi?" Çəkinə-çəkinə diyir: "Məhlənin arvaddarı. Şlanqı salıb tələm-tələsik xorhaxor soorub çıxardılar." "A bala, arvaddarın salyarka nəyinə lazımdı?" Gülüb diyir: "Nicə yəni nəyinə lazımdı? Odeyy..." Evlərdə bir-bir yanan nöyüt ləmpələrini göstərir.

**Gülüşürlər.**

**REPRODUKTOR** – *(Qadın səsi.)* Quq-quu... Siz Meşəli radiosunu dinləyirsiniz. Bir təkzib... "Meşəli" qəzetinin keçən sayında kiçik bir xəbər getmişdi. *(Kişi səsi.)* Həmin xəbəri yadınıza salırıq. *(Qadın səsi.)* Şərəbanı qarının nəvələri höyrə axtaran düyələrini ambardar Fərzəlinin ipdə saxlanılan iki illik cöngəsinin yanına aparıblar. Ambardar düyəyə baxıb uşaxlara diyib ki, bu heyvan çox cansızdı, bir dəfəyə höyrə getməz, gərək bir neçə dəfə gətirəsiz. Amma nənənizə deyin ki, hər seansa bir şirvan da pul göndərsin. Yoxsa, mənim cöngəm bu işi edəmiyəcək. Lap nənəniz özü gəlsə də edəməyəcək.

*(Kişi səsi.)* Bu söhbəti eşidən kəndin ağbirçəyi hirslənərək Ambardara bir bağlama yağlı söyüş göndərib ki, cöngənin yanına qoy Fərzəlinin anası getsin, arvadı getsin, bacısı getsin, qızı getsin. Ambardar Fərzəli bu gün redaksiyamıza gələrək burda bir yanlışlıq olduğunu bildirmişdir. O, Şərəbanı qarını cöngənin yanına çağırmayıbmış, demək istəyibmiş ki,

qarı onun yanına xahiş-minnətə gəlsə də cöngə yenə o işi tutmayacaq. *(Musiqi.)*

**Gülüşürlər. Səmə Geroy "siqnal verə-verə maşınını sürərək" gəlir. Bir neçə uşaq da onun dalınca düşüb eləcə "maşın sürərək" gəlir. Səmə onlardan aralanmaq istəsə də uşaqlar əl çəkmirlər.**

**I KƏNDLI -** *(Uşaqları dalaşır.)* Rədd olun, köpəy uşaqları! Nə istiyirsiz o yazıxdan? Sizin heç böyüyüz-kiçiyiz yoxdu?

**Uşaqlar aralanırlar. Yerdəki pulları görüncə əllərinə yığıb havaya atırlar. Xəzan yarpaqları kimi tökülən əskinasların altında oynayırlar.**

**SƏMƏ GEROY -** *(Oturanlara yaxınlaşır.)* S-s-salam! Ç-ç-çay içməyə pulunuz yoxsa verim. *(Çantasından bir sıxma pul atır stolun üstünə.)* Nə qə-qə-qə-qədər lazım olsa, diyin, hö-hö-kümətə zəng iliyicəm, göndərəcək mənə. *(Telefon dəstəyini qulağına tutur.)* Alo! Alo! Hökmət! Ge-ge-geroydu danışan. Ço-o-o-xlu pul göndər! Ki-ki-şilərin çay içməyə pulu yoxdu. Yekə pullardan göndər! O-o-o-ldumu ?

**IV KƏNDLI -** Hə, oldu. Di sən get, pul gələndə gələrsən.

**SƏMƏ GEROY -** B-b-b-aş üstə, qa-a-a-mandir! *(Gedir.)*

**Qarpız satan arvaddan bir qarpız pay qopartmış uşaqlar yenə onun dalınca düşürlər.**

**REPRODUKTOR –** *(Musiqi yavaşıyır. Kişi səsi.)* Quq-qu... Əziz meşəlilər bildiyiniz kimi, kəndimizin su dəyirmanı və təzə açılmış tok dəyirmanı yenidən işə düşüb. Dəyirmanlarda tünlük yaranıb. Hamı istəyir ki, öz taxılını tez üyütsün. Bu da camaat arasında narazılığa səbəb olur. Odur ki, dəyirmana buğda gətirənlərin nobadı təşkil edilib. Indi həmin siyahını sizə oxuyuruq. Birinci: tülkü Səftərqulu – 14 kilo. Ikinci: mırıx Şirəli – 9 kilo. Üçüncü: saqqal Şaban – 20 kilo. Dördüncü: Cümşüd müəllim – 5 kilo. Beşinci: Həsənquku kişi – 18 kilo. Altıncı: dam-dam Həsən – 10 kilo. Yeddinci: çoban Mürsəl – 8 kilo. Səkkizinci: ləzgi Səlim – 21 kilo. Doqquzuncu: Şərəbanı qarı – 3 kilo. Sonra priboy Ramazandı – 11 kilosu var. Ramazandan sonra müəllim Bəhluldu – 7 kilo. Molla Pirvəli – 30 kilo. Nemes Cəllad – 24 kilo. *(Səs tədricən eşidilməz olur.)*

**VI KƏNDLI -** Eh, vaxtıynan hər kəndin bir su dəyirmanı olardı, hərə bir səhləm buğdasını dalına alarax gətirib üyüdüb gedərdi. Soora dünya dəyişdi. Maşınnarnan qapı-qapı gəzdirərək hazır, ağ-appaq un satmağa başdadılar. Nağdı-nisyə. Ən aşağı maaşa da, pensiyaya da beş-altı tay un almax olurdu. Daa boğda üyütməyinə dəymirdi. Dəyirmanlar da beləcə çıxdı aradan. Eh, hardan bileydik ki, bir gün onnar genə lazım olacax bizə?

**II KƏNDLI -** A kişi, dəyirman kəndə həmişə lazımdı. Genə sağ olsun Əzəmməd kişini, köhnə su dəyirmanını işə saldı. Un bahalaşandan soopa hamı genə boğdaya qaçıb. Bu dəyirman işdəməseydi vəziyyətimiz necə olardı?

**I KƏNDLI -** Əzəmməd kişinin dəyirmanı da özü kimi ağır-ağır işdiyir. Keçmişdərə baxma, hindi belə dəyirmanan kəndi öhd iləmək çətin işdi.

**VI KƏNDLI -** Buna görə də rayonnu xeyriyəçi gəlib burda tok dəyirmanı açdı də.

**I KƏNDLI -** Nə xeyriyyəçi, a kişi? Öz qazancı üçün açıb. Adını elə qoyurlar da.

**VI KƏNDLI -** Hər nə isə də. Işimiz ki aşır.

**I KƏNDLI -** İşıq olsa aşar.

**VI KƏNDLI -** Hərdən olur də.

**V KƏNDLI -** Düzdü, hindi dəyirmannarın ikisi də işdiyir, ancax üyütməyə boğda tapılsa...

**I KƏNDLI -** Boğda nə qarta desən var. Bazarda, xırmanda, qalxozun ambarında, bəzi-bəzi adamların damında. Camaatda isə yoxdu.

**VI KƏNDLI -** Yaxşı dövrandı. Nəsə yoxdu dimək mümkün dölü, hər şey var hindi, ürəyin nə istəsə ala bilərsən. Təki pulun olsun. Pul isə yoxdur... Olan pula da, dimək olar ki, heç nə düşmür.

**I KƏNDLI -** Hələ şükür iləmək lazımdı ki, inpilyaziya yavaş-yavaş enir.

**II KƏNDLI -** Elə keçmişdə də beləydi də. Pul hardeydi, boğda hardeydi? Camaat kövşənnərdən sünbül yığırdı, onu döyüb boğda iliyirdi, aparıb üyüdürdü. Bu axır beş-on il idi ki, bir az alababat dolanmağa başdamışdıx. Allah ermənilərin öyünü yıxsın. Davanı salmasalardı...

**KƏNDLI -** Keçmişdə göygöz Veysəl kimiləri yox idi də. Köpəyoğlu dəyirmannarı kəsdirib durub. Guya rayonnan tapşırıx var, zırpı Hətəm də bildirib – bölgü çıxmayınca təzə taxıl üyütmək qadağandı. Ona görə ki, boğda oğruluğu, alveri baş alıb gedir. Bunun qarşısını almax lazımdı. Bir söznən, "Kimdə təzə taxıl tutsam, o adam getdi daha, əlli-ayaxlı. Həmin dəyirmanı da bağlatdıracam" diyib.

**VI KƏNDLI -** Bəs özü niyə üyüdür? Köpəy oğlu... Keçən gecə görüblər ki, tox dəyirmanı xəlvəti işdiyir, Göygöz də dəyirmanda dolaşırmış. Həmin axşamı da onu xırmanda görüblərmiş, tormoz Camalın traxtrına taxıl yığdırırmış. Beş-altı igid pusquda durur, gecə yarısı görürlər ki, Göygöz Tormozun traxtrına altı tay un yüklədi. Bir minik tapıb onnarı düz rayona qədər qarabaqara izliyiblər. Görüblər ki, un torbaları Veysəlin evinə boşaldıldı.

**I KƏNDLI -** Gerisindən xəbərin yoxdu bəs? Başına döndüyümüz o igidlər səhər açılmamış kəsdiriblər polis rəisinin qapısını, hadisəni olduğu kimi söyləyiblər. Rəis də diyib ki, o adam haqqında qulağıma çox sözlər dəyir, siz narahat olmuyun, arxayınca gedin, mütləq ölçü götürəcəyik.

**VI KƏNDLI -** E, heylə diyən şeydilər də. It itin ayağını basarmı?

**I KƏNDLI -** Yox, bu rəisi yaxşı adam söylüyürlər. Axırda diyib ki, qələt iliyir o donuz oğlu, gedin boğdanızı üyüdün, camaat acından qırılası dölü ki. Oğru tutandı, gedib xırmannan tutsun, taladan tutsun. Hələ zırpı Hətəmin də kürkünə birə düşüb. Hindi and-aman iliyir ki, mən elə söz diyib-eləməmişəm, köpəy oğlu özündən düzəldib. Əlinzə keçən boğdanı az-az üyüdün, yaxın günlərdə bölgü çıxacaq. Hamınıza yetdik boğda vericəm. Camaatı ac qoyası döləm ki.

**II KƏNDLI -** Hər nə isə, daha dərmannar işdiyir. Ona görə də belə tünlük yaranıb.

**REPRODUKTOR** – *(Get-gedə eşidilməz olmuş səs tədricən artır.)* TayqulaqUsuf – 6 kilo, tormoz Camal – 23 kilo, fıstıq Səftər - 12 kilo, çaqqal Mirzəli – 13 kilo, uzun Fərəc – 4 kilo, mirzə Müxbir – neçə kilodusa oxunmur, oçki Vəli – 50 kilo. Camaatdan xahiş olunur ki, bu buğdalar üyüdülməmiş

dəyirmana daha buğda gətirməsinlər. Işıq sönməsə, bir-iki gecəlik işdir. Şahıd pulu – on kilosu bir nizami, bir yüzlük. Pulu olmayanlar pulun yerinə yumurta da versə olar. *(Musiqi davam edir.)*

**Divar qəzetinin önündə yeni adamlar görünür.**

## ON BİRİNCİ FRAQMENT

**Tayqulaq Usuf yarımsərxoş halda oxuya-oxuya gəlir.**

**TAYQULAQ USUF -** Haydı söylə, səni nətəər söydüyümü haydı söylə. Təpikləyib döydüyümü haydı söylə... Salamlar, kənd əhli! Dünya yırğalanır, xəbəriniz varmı? Yerin altındakı öküzlər daa dözmür. Axır zaman yaxınlaşır. Keyfiniz çəkin heç olmasa. *(Üstü klyonkalı stolun arxasında oturur, əlini çırpır.)* Alik! Gəl bura! Gəl, al. Bir dənə "Ağdam" gətir amma. Yer silkələnir. Bu gün-sabah hamımız torpağın altında olacağıq. Qalan beş-on gündə doyunca içək heç olmasa...

**Alik bir şüşə "Ağdam" gətirir.**

*(Pulların hərəsini bir əlində tutub.)* Oyna! Oynamasan verən dələm. Haydı söylə... Dünən bazara getmişdim, yaxşı alverim oldu. Doyunca vurdum özümçün.

**II KƏNDLI -** Bəs səhər-səhər harda vurmusan?

**TAYQULAQ USUF -** Hələ vurmamışam. Dünənkinin dəmidi. Adə, oyna dimirəm sənə! Pul istəmirsən?

**Alik məcburən əl qaldırıb fırlanır. Usuf pulları onun başına atır.**

Ədə, bir zakuska da gətir, insafın olsun.

**Alik pulları götürüb gedir.**

**VI KƏNDLI -** Ə, Tayqulax, sən Allah, bir söylə görək, o mismar əhvalatı necə olmuşdu?

**TAYQULAQ USUF -** Nə mismar, ə? Hə, o pesox əhvalatını diyirsən? *(Butılkanı açır.)* A kişilər, hər dəfə rayona gedəndə bir şeytan məni qıdıxlıyırdı. Allah haqqı, padyo-tilivizır satılan mağazaya girib "Sizdə pesox var?" soruşmamış dura bilmirdim. Satıcı da acıxlanıb diyirdi: "A kişi, bir dəfəlik bil, burda pesox satılımır." Axırda hiddətlənib xəbərdarlıq ilədi: "Bax, əgər bir də gəlib mənnən pesox soruşsan, o tək qulağını divara mismarlayacağam." Aradan bir-iki gün keçdi, genə yolum düşdü rayona. Inanmayacaxsız, vallah genə dayana bilmədim, girdim həmin mağazinə.

**VI KƏNDLI -** Soruşdun, pesox var?

**TAYQULAQ USUF -** Yox, bu dəfə soruşdum: "Mismar var?" Satıcı bir tərs-tərs baxdı, amma insafən, bir söz demədi, başını buladı. Elə bu an həmin şeytan genə qıdıxladı məni. Eləmə arsızlıx, didim: "Elə isə bir söz də soruşum, pesox necə, var?" Kişini elə bil od götürdü, əlindəki balaca radyionu dalımca elə tulladı ki, radyo divara dəyib para-para oldu.

**Gülüşürlər.**
**Iki uşaq gəlib qarpız satan arvaddan pul verib qarpız alıb aparır.**

**QARPIZ SATAN ARVAD -** *(Bundan fərəhlənərək yenə bərkdən çağırır.)* Qarpız! Qarpız! Bal kimi şirin qarpız! Özü də ucuz. Biri bir nizamiyə. Düm havayı. Ay müştəri, gəl bəri! Gəl mala, qalma dala!

**Alik boşqabda bir neçə dənə göy alça gətirib qoyur Usufun stoluna.**

**TAYQULAQ USUF -** *(Bir stəkan içir.)* Hə.. Bəs fıstıx Səftər neyniyib, heç bilirsiniz?

**II KƏNDLI -** Fıstıx da sənin tayındı da elə.

**TAYQULAQ USUF -** Yo-ox, o, mənnən də betər şeydi... Gedib bazara, soğan satandan soruşub ki, kilosu neçəyədi? Soğan satan da diyib ki, kilosu iki məmmədə. Fikirləşib ki, acı soğandı da, buna iki məmməd versin-verməsin. Bilirsiniz də, cibinnən pul çıxanda elə bilir ağzından canı cıxır. Bir baş soğan götürüb əlinə diyib, yaxşı, bu bir dənəsini neçəyə verərsən? Soğan satan da yazığı gəlib diyib ki, a kişi, heç neçəyə, elə-belə götür apar. Köpəyoğlu Fıstıx da bu sözə

bəndmiş kimi tez diyib: "Çox sağ ol, a qardaş, hindi ki, bir dənəsi heç neçəyədi, elə isə bir əlli dənə ver."

**Gülüşürlər.**

## ON İKİNCİ FRAQMENT

**VI KƏNDLI -** Ə, bu fıstıx Səftərnən mırıx Şirəlinin arvadı taytaxt Söhbətin arasında nə olub e? Uçastkovı Veysəl əl çəkmir onnardan.

**II KƏNDLI –** Ə, yox... Fıstığı bəziyiblər. Guya arxın başında kolluqda Söhbətə sataşıb. Prosto, su üstə dalaşıblar. A kişilər, bu Fıstıx gecə-gündüz qara div kimi suyun başında yatıb qalır da, qoymur ki, camaatın od tutub yanan əkənəyinə bir udum su getsin. Yazıx taytaxt Söhbət də axırda hirslənib əlindəki lapatkanı vurub Fıstığın başına. Kişini qan aparıb. Yannarında da heç kim olmuyub. Əlacı kəslən Söhbət özü onun başını suya soxub ayıldıb.

**VI KƏNDLI -** Hə, Fıstıx da ordan durub başının qanı axa-axa payi-piyada gedib rayona, şikayətə. "O qancığı qoduxluğa salmasuz əl çəkən döləm" diyib durub.

**II KƏNDLI -** Diyirlər, Şirəlidən də düz ikipaçkə şirik istiyiblər. "Yoxsa, olan ömründə bir də arvadının üzünü görməyəcəksən" bildiriblər. Hindi yazıx Mırıx düşüb ora-bura pul dilənir. Pul da kimdə var ki? İnəyini satmax istiyib, alan olmuyub, arvadın divardakı cehiz palazını satmaq istiyib, genə alan olmuyub. Axırda qapıdakı qoyunnarın hamısını dəyər-dəyməzə verib qəssaba. Nə isə, güc-bəla bir paçkə düzəldib. Göygöz də diyir ki, iki paçkə olmasa nəçənnik bu işə yaxın durmaz

**TAYQULAQ USUF -** Eh, ağlı yoxdu mırıx Şirəlinin, o pulları versin mənə, gör onun işini bu lələş necə düzəldir.

**I KƏNDLI -** Hə, sən yaxşı düzəldərsən.

**II KƏNDLI -** Qorxma, paçkıya yaxın duran olub. Mırıx qohum-əqrəbasıynan bir-iki dəfə barışıx qoymaxdan ötrü Fıstığın

qapısına getsə də işi atılmıyıb. Ancax Fıstıx paçkə söhbətini eşidən kimi diyib, "Eh, daa keçib, o şirikləri versin mənə, gedib ərizəmi geri götürüm."
Canının dərdindən Şirəli yazıx da pulları verib ona. Fıstıx da səhər tezdən cumub rayona, başdıyıb yalvar-yaxarmağa ki, nəçənnik, bağışda məni, bir qələtdi iləmişəm, başım-zadım yarılıb iləmiyib, elə-belə hirslənmişdim, kişi də arvad xeylağından şikayət iliyərmi?

**VI KƏNDLI -** Əlqərəz, əhvalatdan xəbər tutan Göygöz indi Şirəlinin arvadini buraxib yapişib Fistixdan. Heç demə, bunnan neçə dəfə imiş ki, əli aşaği olantək Fistix kiməsə özünü döydürtdürürmüş, başini-qolunu sindirtdirirmiş, soora da həmin adamnan pul qopardib barişiq qoyurmuş. Dalaşanlar da cannarinin dərdinnən Fistiğin dediyini verirmiş.

**V KƏNDLI -** Bah, atonnan, ə, bu Fıstıx nə köpəyoğlu adammış...

**I KƏNDLI -** Hər halda Fıstıx o itdərdən insaflıymış, iki paçkıya düzəlmiyən işi bir paçkıya yoluna qoyurmuş.

**TAYQULAQ USUF -** Ə, kefdi bu Fıstıx. Sentyabr qabağı məktəbə gedən oğluna ayaqqabı almaxdan ötrü "Uşax aləmi" dükanına girib soruşur: "Sizdə qırx iki razmer uşax ayaqqabısı varmı?"

**ON ÜÇÜNCÜ FRAQMENT**

REPRODUKTOR – Quq-qu... Meşəli radiosu verilişlərini davam etdirir. Redaksiyamıza bir afişa təqdim edilib. Onu olduğu kimi sizə oxuyuruq.
*(Qadın səsi.)* Yaxın günlərdə. Yay səhnəsində. Şou konsert. Kəndimzin ulduzu Huraman xanımın iştirakıynan. Çalırlar: mis qazançalarda dam-dam Həsənin balaca gedəsi, tütəkdə çoban Mürsəl, sintezatorda – kəndimizin rayon toylarında çalan talantlı manısı Maqsud Şirvanşah. Zor konsert olacaq. Repertuarda: türk mahnıları – "Davay, söylə," pozulub yazılıb "Haydı söylə", "Haydı, haydı mələyim", "Bəbəyim –köbəyim", "Lələk Fatma" və ilaxır. Biletin qiyməti – balacalar üçün bir yumurta, böyüklər üçün iki yumurta. Başdıyır mallar naxırdan gələndən sonura.

**Eşşək anqırır.**

*(Kişi səsi.)* Hoç, hoç! Rədd ol, a köpəyoğlunun heyvanı.

**TAYQULAQ USUF -** Qıllının eşşəyi hələ indidən başdıyəb ki, qanzertə. Haydı söylə, səni nə təəər söydüyümü.

**Elə bu an aralıdan qancıq Fatmanisənin səsi gəlir: "Tayqulax huuy! Tayqulax huuy-uuy!"**

**TAYQULAQ USUF -** *(Narahatcasına.)* Adə, bu it qızının əlindən bir təhər qaçıb canımı qurtarmışam, gəlib burda da məni rahat qoymayacax ee... *(Ayağa qalxır, bilmir nə etsin.)*

**Fatmanisənin səsi yaxınlaşır.**

Bax, məni görüb-eləməmüsüz ha! *(Butılkasını, stəkanını götürüb stolun altına girir.)*

**FATMANISƏ -** *(Əlində dəyənək gəlir. Elə bil ağzından od püskürür.)* Ay pyaniskə köpəyoğlu, eşşey, donuz oğlu, ayı oğlu, öyün pullarını oğrurruyub hara qaçmısan? Səni görüm gorbagor olasan, səni doğub gedən dərin getsin! Meyitin gəlsin! Uşağa bir cüt qaloş almır, əlinə keçəni sidik zəhrimara verib içir.

**Kəndlilər xəlvətcə qımışsalar da ona məhəl qoymaq istəmirlər.**

Harda gizlənmisən? Kişisən, çıx üzə. Onsuz da səni tapıb bu salbeyi başıva çırpacam. Çıx deyirəm sənə! *(İçəri girib baxır, daha da əsəbi halda çıxır. Oturanlara.)* Nə ağzuvuza su alıb durmusuz? Guya ki, siz görmədiiz o köpəyoğlunu?

**I KƏNDLI -** Ay Qan... *(Tez sözünü dəyişir.)* Fatmanisə xanım, biz hindilər gəlmişik, görüb-eləməmişik...

**Usuf stolun altında stəkana çaxır töküb içməyindədir. Arada əlini uzadıb stolun üstən alça da götürür.**

**FATMANISƏ -** *(Alikə yaxınlaşır.)* Adə, harda gizlətmisən o alçağı? Sənnən döləm? Niyə dinmirsən?

**Alik çiyinlərini çəkir.**

Sənsən onu yolundan çıxardan. Əlinə keçəni gətirib sənə verir  diyə belə qahmarlıx iliyirsən? Eyibi yox... Mənə də Fatmanisə deyərlər. İndi gör mən neyniyəcəm? *(Gəlib altında Usufun gizləndiyi stolun arxasında oturur.)* Di bir şüşə də mənə gətir, a şəngülüm! Bu gündən mən də başdıyacam içməyə, acıxnan. Hə, nə durub baxırsan? Gətirsənə! Pul istəyirsənsə, ala! *(Bir neçə minlik atır.)* O dağıda bilir, mən dağıda bilmirəm öyün pulunu?

**Alik naəlac halda pulları götürüb gülümsəyərək gedir. Usuf stolun altından  işarə edir ki, gətirməsin. Ancaq Alik onu görmür.**

*(Donquldamağına davam edir.)* Eyibi yox, köpəy oğlu, gör sənin başına nə oyun gətirəcəm? Mənə də Fatmanisə deyərlər...

**I KƏNDLI -** Ay Fatmanisə xanım, bir sakitləşin, əstəğfrullah diyin. Arvad xeylağısız, "Ağdam" içmək yaraşarmı sizə?

**II KƏNDLI -** Hə... bir söylüyün görək, təzə nə fal  açmısız? Dünyanın  işdəri necə görünür? Irəlidə bizi nə gözdüyür?

**FATMANISƏ -** Nə gözdüyəsidi? Arvadlar da alkaşlıx edəcək.

**Alik bir şüşə "Ağdam", stəkan və boşqabda bir neçə alça gətirib qoyur. Usuf stolun altından başını çıxarıb xəlvəti baxır.**

Aç də! Mən nə bilirəm o zəhrimarı necə açırlar?

**Alik butılkanı açır.**
**Usuf birdən stolun altından çıxıb arvadın qabağındakı butılkanı götürüb qaçır.**

Ay səni it oğlu! Paçamın arasında gizlənibmiş. Dayan adə! Dayan, diyirəm sənə! Sən ölmüyəsən, hara qaçsan da əlimdən qurtaran dölüsən! Donuz oğlu, qaban oğlu, piyaniskə köpəyoğlu, eşşəy oğlu, çaqqal oğlu, porsux oğlu, ayı oğlu... *(Söyə-söyə dalınca qaçıb gedir.)*

**Gülüşürlər.**
**Eşşək yenə anqırır.**

**I KƏNDLI -** Arvad məhv etdi bu yazığı. Tayı-bərabəri olmayan usta idi.

**II KƏNDLI -** Arvad vərdiş olmuşdu Usufun qazanıb gətirənnərinə. Daa usta işdədən var ki? Lobya-xiyar satmaxnan külfət saxlamax olar? Qancıx da ki, ağızdan heyvərə. Gününü qara iliyib Usufun. O da harda görmüşdü ki, arvad ona söz desin. Dərdinnən içir də...

**Repreduktorda şən bir mahnı başlayır. Hərdən diktorun da səsi eşidilir: "Meşəli radiosu... Meşəli radiosu..."**
**Bir müddət dimnəzcə musiqini dinləyirlər.**

*(Birinciyə.)* Getməyəkmi daa?

**II KƏNDLI -** Hə, gedək daha yavaş-yavaş... *(Ayağa qalxır.)* Bizi bağışdıyın, bir yer var, ora dəyməliyik.

**V KƏNDLI -** İşinizdə olun. Biz də bir beş-on dəqqə oturax, hər halda mirzə Müxbir hindilər gəlib çıxar bura.

**VI KƏNDLI -** Kəndin xəbər agenti, hə?

**V KƏNDLI -** Hə də, gəlsin, söyləsin görək kənddə təzə nə var, nə yox. Soora da çıxıb gedək işimizə-gücümüzə.

**Birinci və İkinci kəndli gedir.**
**Göygöz Veysəl qoltuğunda qalın bir qovluq gəlir. Salamlaşıb aralıdakı stolun arxasında oturur. Nə fikirləşirsə durub kəndlilərə yaxınlaşır, onlarla oturur.**

**GÖYGÖZ VEYSƏL -** Çay niyə içmirsiniz?

**V KƏNDLI -** İndicə içmişik.

**GÖYGÖZ VEYSƏL -** Genə için. Çay nədi, say nədi. *(Çağırır.)* Adə, Alik, bir yekə çaynik! *(Kəndlilərə.)* Bu səs-küy nəydi hindilər burda?

**VI KƏNDLI -** Heç əşşi... Qancıq Fatmanisəydi, yenə ərinə segah oxuyurdu.

**GÖYGÖZ VEYSƏL -** Tayqulaq da yəqin ki, düppədüz imiş. Əlimə keçmir də heylə vaxtı, aparıb bir on beş sutka yatdırım ki, ağlı gəlsin başına.

**VI KƏNDLI -** Özünüzü pis kişi niyə iliyirsüz? Onsuz da o düzələn əyri dölü.

**GÖYGÖZ VEYSƏL -** Neyniyək? Vəzifəmizdi də. Gedib rəisin qulağına çatsa ki, mən belə şeylərə göz yumuram, bilirsiz

neyniyəllər? Yağlı bir töhmət yapışdırarlar boynumun dalına. Elə bilirsiz, asandı işləmək? Gərək elə iliyəsən ki, nə şiş yana, nə kabab. Həm onnarın yanında hörmət qazanmalıyam, həm də camaatın. Amma mümkün olmur. Birinə göz yumanda , o biri çıxır əldən.

**VI KƏNDLI -** *(Veysələ xoş gəlsin deyə.)* Hə, elədi vallah. Çətin işdi hindi məsul vəzifədə işdəmək.

**GÖYGÖZ VEYSƏL -** Çətin yox e, lap it zülmüdü. Böyüklər yüz şey tapşırır. Düzüb-qoşmadın – qanın getdi daha. Hindi mənnən elə bir şey istiyiblər ki, lap başımı itirmişəm.

**V KƏNDLI -** Nədi ki elə?

**GÖYGÖZ VEYSƏL -** *(Pıçıltı ilə.)* A kişilər, bir kilo anaşa istiyiblər. Bir nəşəxor gəlib rayona, rəisin dostudu, mənə də diyiblər ki, hardan varsa tap gətir. Hardan tapım? Onun nə təhər şey olduğunu bilən kopoyoğludu. Birdən-ikidən görmüşəm ki? Siz biləni, kənddə əkib-iliyən yoxdu ha? Qorxmuyun e. Pulunu vericəm. Adı da gizli qalacax. Neyniyim da... Yuxarının tapşırığından çıxa bilərəmmi?

**Susurlar.**

Hə, heylə bir adam varsa, diyin mənə. Onsuz da kməsə satmalıdı da. Qoy mənə satsın. Hürküsüz-qorxusuz. Inanın ki, böyük köməy iləmiş olar. Sizə də bir cib xərcliyi verərəm. Neyniyim, cərimədi də, çəkməliyəm.

**V KƏNDLI -** Nəçənnik, vallah, ağlım kəsmir bizim kəntdə belə işnən məşğul olan tapılsın. Genə də qonşu kəntdən bir soraqlaşın.

**GÖYGÖZ VEYSƏL -** A kişi, elə bilirsən, soruşmaq olur. Bu elə bir şeydi ki... Özü də sistem işçisinə kim boyun olar? Daha hardan bilsinlər ki, mən nə dərddəyəm... Eh, adamı göndərirlər düzəlmiyən işə, sonra da adını qoyurlar yarıtmaz. Hindi mən neynim görəsən? Hara gedim, kimə ağız açım?

**Alik çay gətirir.**
**Veysəl ayağa qalxır.**

**V KƏNDLI –** Çay niyə işmədüz, nəçənnik?

**GÖYGÖZ VEYSƏL -** Siz için. Mən gedim görək başıma bir çarə qıla bilərəmmi? Alik, çaynik mənim hesabımadı ha. *(Gedir.)*

**QARPIZ SATAN ARVAD –** Sabahınız xeyir, nəçənnik.

**GÖYGÖZ VEYSƏL -** Sabahın xeyir. Hə, necədi, dəyib-dolaşan yoxdu ki?

**QARPIZ SATAN ARVAD -** Yox, əşşi, yaxşı camaatdı. Qonağa hörmət iliyirlər.

**GÖYGÖZ VEYSƏL -** Bir şey olsa, mənə xəbər ver, cannarını alaram.

**QARPIZ SATAN ARVAD -** *(Yekə bir qarpız verir.)* Uşaxlara pay apar.

**GÖYGÖZ VEYSƏL -** *(Guya utanır.)* Əşşi, ayıbdı, uşaxlar qarpızı neynir?

**QARPIZ SATAN ARVAD –** Götürün, götürün. Qarpızdı da, yesinlər.

**GÖYGÖZ VEYSƏL –** Çox sağ ol, payın çox olsun. *(Götürür.)* Hindi ki, verirsən, bir balacasını da ver. Bizim bir dəcəlimiz var, gərək həmişə özünə ayrı qarpız kəssin.

**QARPIZ SATAN ARVAD -** Qurban dölümü? Özünüz seçin, hansını istiyirsiz götürün.

**Veysəl o biri qoltuğuna da iri bir qarpız vurur. Qovluğunu bilmir neyləsin.**
**Sonra qovluğu da ağzında tutub gedir.**
**Kəndlilər onun ardınca baxıb gülüşürlər.**
**Motosklet səsi eşidilir.**
**Bir kişi aralıdan "Mis alıram, alminum alıram! Mis alıram! Kimdə varsa gətirsin. Yaxşı pul vericəm!" deyərək haraylaya-haraylaya keçib gedir.**

## ON BEŞİNCİ FRAQMENT

**VI KƏNDLI –** Tülkü köpəyoğlu, özünü çoxbilmiş hesab iliyir, bu birisini qanmaz. Fikir verdinmi, bizdən söz qopartmaq istiyirdi ha. Yəqin qulağına nəsə üfürüblər.

**V KƏNDLI -** Yox, əşşi... Onun azarı nədi, bilmirsən? Molla Pirvəlinin həyətindən oğurlanmış ağacları axtarır it oğlu.

**VI KƏNDLI -** Nə ağaclardı elə?

**V KƏNDLI -** Xəbərin yoxdu guya? Fil qulağında yatmısan, nədi? Uşaxlar gimgəyə yığışanda "İy gəlir... nəsə bir cür iy gəlir..." diyə nəyə söz atırdılar? Düz iyirmi dənə şitil əkibmiş. Fikirləşib ki, heç kimin ağlına gəlməz kəndin mollası belə bir iş tutar diyə. Həyəti də yolun qırağındadı e. Bunu kimdən

gizlətmək olardı?

**VI KƏNDLI -** Sağ ol səni, keşiş köpəyoğlu.

**V KƏNDLI -** Keçən gecə dələduzlar cürləşib iyirmisini də kəsib aparıb. Molla o qədər özünü çaşdırıb ki, "Həyatimə oğru girib!" diyə hay-haray qopardıb, Göygözü dartıb gətirib hadisə yerinə. Göygöz it kimi burun çəkə-çəkə ətrafa göz gəzdirib soruşub: "A molla, nəyini aparıblar?" Yalnız bu zaman neynədiyini annıyan şeyx özünü itirmədən diyib: "Hələ xəbərim yoxdu..." Anaşa ağaclarını yerində görməyən Veysəl az qala ağlamsınaraq sual edir: "Bunnar nədi belə ay molla?" Pirvəli tutulur, çaşıb qalır, kəsilmiş köklərə baxıb tez cavab verir: "Ee, bunnar keçən ildən qalmadı..." Uçastkovı başnş bulayıb, "Yaxşı, çox dilə-dişə salma" diyib molladan aralanır, başdıyır oğruları axtarmağa. Daha doğrusu, oğurranmış malı axtarmağa. Ona görə də hindi, görmürsən, bir yerdə dayana bilmir. Isti-isti malın izinə düşmək istəyir.

**VI KƏNDLI -** Vay səni, eşşək oğlu. Özü də hələ diyir ki, onun nə cür şey olduğunu bilən kopoyoğludur.

**V KƏNDLI -** Düm yalandı. Mollanın həyatində əkilmiş ağaclardan hamıdan qabax bəlkə də onun xəbəri vardı. Ağaclar yoxa çıxanda diyibmiş ki, tələsiblər it uşaxları, kal-kal yığıblar, üççə gün də gözləsələrdi əla olardı. Üç gündən sonra şöbədən də bir adam gətirib özü götürəcəkmiş zəhrimarı. Bir nəfər də gözaltı iliyibmiş məhsulu, iki gündən sonra o yığacaqmış. Molla Pirvəli də yana-yana diyirmiş ki, zalım uşaxları bircə gün də möhlət versələrdi, yığacaqdım da özüm.

**VI KƏNDLI –** Kəndin müqəddəs atası belə işlərlə məşğul olanda, başqalarından daa nə umursan?

**V KƏNDLI -** Yazıx neynəsin ee? Deyirmiş ki, bu il də həccə gedə bilmədim, tövləm də yarımşıq qaldı eləcə.

**VI KƏNDLI –** Sağ ol səni, hacı şeyx...

## ON ALTINCI FRAQMENY

REPRODUKTOR – *(Musiqi səslənir. Qadın səsi.)* Quq-quu... Dünən gecə kolxozun təftişı xəstə Qasımın körpə balalı inəyi yonca yeyərək köpmüş və gəbərmişdir. Xəstə Qasımın

dərdinə şərik oluruq və məsləhət bilirik ki, artıqnəfislik edərək gecələr mallarını açıb başqalarının bağlarına salmasınlar daha. Vallah, səsini kəsmədən anasını haraylayan o yetim dananın ahı tutar adamı. *(Musiqi davam edir.)*

**V KƏNDLI -** Ə, bu xəstə Qasım heç kəndə qoyulası kopoyoğlu döyülmüş e... Onun xəstə canında nələr varmış?

**VI KƏNDLI -** Genə neyniyib?

**V KƏNDLI -** Canına dərd. Keçən il, elə bu vaxtlar olardı da, hə, Həsənqulu kişi nəvəsi cinni Rəcəbdən ötrü onun qızına elçi gedibmiş. Qız da bir qız olsa dərd yarıdı e, tay-tüşləri çoxdan ərdədi, oğul-qız yiyəsidi, bu hələ büzüşə-büzüşə evdə oturub. Arvad razılaşıbmış. Xəstə iki ayağını bir başmağa diriyib durub, olmaz ki olmaz.

**VI KƏNDLI -** Bəhanə nə gətirib?

**V KƏNDLI -** Nə gətirəsidi? Bəyənmiyib Həsənqulu kişini, nəvəsini. "Su axar, çuxurunu tapar" diyib. Guya özü böyük zibilmiş.

Cinni Rəcəb bunnan bir az da cinnənib, toya bəslədikləri cöngəni kəsir, satır, pulunu da cibinə qoyub düz gedir Tümenə, orda işdiyən əmisi uşaxlarının yanına. Hindi bir həftədi Cinni qayıdıb gəlib, "Cip"di, nədi, o lap bahalı maşınlardan da birini gətirib sürür belədən-eləyə, elədən-beləyə.

Bunu görən Qasım özünü salıb Həsənqulu kişinin yanına ki, əşşi, bir qələtdi, iləmişəm, p.yimişəm, lap heylə belə də diyib ha, bəs gəlin qızıbuzu aparın, Allah mübarək iləsin.

Lakin məlum olub ki, bu bir il ərzində xəstə Qasımın bəyənmədiyi Həsənqulu kişinin nəvəsi cinni Rəcəb orda neyniyib, neynəmiyib – nəinki özünə xarici maşın alıb, hətta bir xarici arvad da alıb, ingilisdi, nemesdi qızıdı diyirlər, qəşəng bir metis oğul atası da olub, hindi də istiyir ki, kəntdə babat bir ev alıb arvad-uşağını da gətirsin bura. Xəstə Qasım da suyu süzülə-süzülə qayıdıb boxçaya qoyduğu qızının yanına və o yıxılandı, xəstəliyi bir az da çoxalıb, diyirlər.

## ON YEDDİNCİ FRAQMENT

**Orta yaşlarında olan mirzə Müxbir gözündə qara eynək, başında köhnə**

**yay şlyapası, qoltuğunda bir qalaq əzik-üzük, saralmış qəzet gəlir. Özünü oturanlara göstərsə də dayanmadan keçib getmək istəyir.**

**V KƏNDLI -** Ay Mirzə, hara gedirsən? Bir burdan gəlsənə.

**MIRZƏ MÜXBIR -** Yox, gələmmərəm. Işim var, tələsirəm.

**VI KƏNDLI -** İş qaçmır. Gəl bir söylə görək, təzə nə eşitmisən, təzə nə yazırsan?

**MIRZƏ MÜXBIR -** *(Guya ki, narazılıq edir, başını bulaya-bulaya gəlib oturur. Çayniyin qapağını qaldırıb baxır.)* Çay var hələ?

**V KƏNDLI -** Ə, niyə yoxdu? Sən təki söz sandığının ağzını aç, nə qədər istəsən çay təşkil edərik. Alik bala, bir stəkan da ver.

**MIRZƏ MÜXBIR -** Söz sandığım bom-boşdu. Gedirdim görək nə tapıb toplaya bilirəm.

**VI KƏNDLI -** Hər halda, küncdə-bucaqda bizə yetdik nəsə tapılar. Hə, başda görək.

**MIRZƏ MÜXBIR -** Ə, əl çəkin mənnən. Nə söyliyəsiyəm e? Özüüz bu kəntdə olmursuz?

**V KƏNDLI -** Olmaxnan dölü ki. Hər kəsin bir şakəri var. Sən yekə-yekə, palazqulağı qəzetlərdə çıxış iliyən bir müxbirsən. Biz hara, sən hara?

**MIRZƏ MÜXBIR -** *(Fəxrlə qoltuğundakı qəzetləri stola çırpır.)* Siz lağ edin, amma fakt budur ki, düz doxsan səkkiz qəzetdə mənim imzam gedib. *(Qəzetləri göstərir.)* Görürsüz?.. İki dənə də çıxsa düz yüz olacax. Onnarı da yazmışam, amma hələ göndərməmişəm.

**VI KƏNDLI -** *(Qəsddən şişirdir.)* Pah atonnan... Ə, vallah, hələm-hələm müxbirin işi dölü e bu. Ay Mirzə, nə əcəb səni Bakıya dartıb aparmırlar? İtib getmisən e buralarda.

**MIRZƏ MÜXBIR -** Ee, neçə dəfə dalımca gəliblər. Ev, maşın söz veriblər. Özüm getməmişəm. Mən getsəm, bəs bu Meşəlinin dərdlərini kim yazar e? Kim çatdırar bizim problemlərimizi o başda oturanlara?

**V KƏNDLI -** Yaxşı, a Mirzə, bu qədər yazmısan, tənqid etmisən, bunun camaata bir xeyri olubmu? Nəyisə dəyişdirə bilmisənmi, yoluna qoya bilmisənmi?

**MIRZƏ MÜXBIR -** Xeyri olub deyəndə ki... Mirzə Sabir demişkən, mən şairəm, vəzifəm budur əşar yazım, əyrini əyri, düzü həmvar yazım... Mən müxbirəm, yazmalıyam. Yazdıxlarımı düzəltmək başda oturannarın işidi, borcudu.

A kişilər, zaman gələcək, dünya dəyişəcək, *(Yenə qəzetləri stola çırpır.)* bütün bunnar isə tarixə çevriləcək. Heç olmasa, gələcək nəsillər biləcək ki, biz nə zülmlər çəkmişik, onnarın yaşadıxları firavan həyat üçün biz nələr qurban vermişik.

**Alik stəkan-nəlbəki gətirir.**

**VI KƏNDLI -** Vallah, düz diyir bu kişi. Tarixdi də bütün bunnarın hamısı. Genə sağ ol ki, yazıb qoyursan. Yoxsa gələcəkdə hardan biləcəklər ki, biz kim olmuşux, necə yaşamışıx?

**MIRZƏ MÜXBIR -** Bəs necə? Bunu hamı başa düşmür e. Ağzı göyçəklər məni gözümçıxdıya salırlar ki, guya kəntdə bir toyuğun yumurtası tərs gəldi, qəzetə yazıb biabır eləyirəm onnarı. Eyibi yox, mən dözərəm, necə ki, Sabir dözmüşdü, Mirzə Cəlil dözmüşdü. Daa qanmirlar ki, tənqid olmasa inkişaf da olmaz.

**V KƏNDLI -** Qələt iliyirlər, başa düşən düşür, sən işində ol. De görək, hindi bizim üçün təzə yazdıxlarından nə oxuya bilirsən? Qoy bütün respublikadan əvvəl biz duyux düşək bu işdən.

**MIRZƏ MÜXBIR -** *(Yenə narazılıqla başını bulayır.)* Saqqızımı oğurladız da. Di yaxşı. Iki dənə təzə yazım var. Bomba kimi yazılardı. Hələ heç yerə göndərməmişəm. Onnarı oxuyaram sizin üçün. Amma... *(Barmağını ağzına tutur.)* Bir daş altda, bir daş üstə. Bildiz də.

**VI KƏNDLI -** A kişi, arxayın ol. Döşə gəlsin.

**MIRZƏ MÜXBIR -** *(Qoltuğundan bir qalaq yazılı kağız çıxardır. Seçib əzik-üzük olmuş bir vərəqdən dəbdəbə ilə oxuyur.)* Kəndimizin ilk fərariləri. *(Səsini dəyişir.)* Amma qorxuram, bu yazıdan sonra gedələri gəlib tutub aparalar, qarğış yiyəsi olum.

**VI KƏNDLI –** Qorxma, ay Mirzə, hindi hər diyəndə adam tutmurlar, pulunu alıb buraxırlar.

**MIRZƏ MÜXBIR -** Oxuyum diyirsiz?
Günnərin bir günü gördük ki, kəndimizə əli-qolu, başı-gözü sarıqlı, üstü qan ləkəli, ayağı gipsli, əli kastelli iki nəfər yaralı əsgər gəlir. Adə, bunnar kimlər olsa yaxşıdı – ambardar Fərzəlinin gombul oğlu Mustafa, molla Pirvəlinin nəvəsi arıx Abbasqulu.

Qonum-qonşular, tanış-bilişlər yığışdılar, ah-uflar, sorğu-suallar başlandı: "Can balıalar, siz harda belə yaralanmısınız? İndi axı döyüş getmir."
Məlum oldu ki, yazıqlar minaya düşübmüşlər, nə müddət imiş ki, qospitalda yatırmışlar.
Kimsə dedi ki, axı bunnar əsgər gedən heç üç-dörd ay deyil, bunnarı nə tez cəbhə bölgəsinə aparıblar? Fərzəli, Pirvəli başdarını bulayarax cavab vrdi ki, çatan kimi yazıx uşaxları basıblar ön xəttə.
Nə isə, iki-üç gün keçdi, bir də gördük ki, yaralı əsgərlərimiz sap-sağlam, qolu-qıçı salamat, kastelsiz-filansız, təzə qrajdanski paltarda, ciblərində məmmədəminlər lövbər qurublar dədəquş Mamedin oğlu zəqrəniş Alikin çayxanasında və gecə səhərə qədər kart oynayırlar. *(Üzünü yana tutur.)* Alik, oğlum, sənnik bir iş yoxdu ha burda.*(Davam edir.)*
Şükürlər didik ki, yazıx balalarımız belə tezliklə sağalıblar. Və bir də əsil can dərmanı olan Meşəli kəndinin havasına, suyuna əhsən dedik. Doğrudan da, möcüzədir, necə xəstə olur-olsun, bir-iki günə sağalır burda.
Indi deyirlər ki, voenni doxturlar istiyirlər ən böyük qospitalları Meşəliyə köçürtsünlər. Uzun sözün qısası, kəndimizdə nəyə desən təsadüf etmək olardı, bircə fəraridən başqa. Daha nə dərdimiz, fərarimiz də var, özü də qoşa-qoşa.

**VI KƏNDLI -** Bəh-bəh... Əla, əla!...

**V KƏNDLI -** Amma bir şey düz dölü ha, Mirzə. Son günnər daa o uşaxları bu çayçıda görən olmuyub. Nəsə heç küçədə də gözə dəymirlər. *(Aralıdakı Alikə.)* Heylə dölümü, Alik bala?

**ALIK -** Hərbi hissədən bir leytenant gəlib diyirlər. Uşaxların dalınca. Kopoyoğlu bazarımı pozub. Uşaxlar onun-bunun evində gizlənirlər. Bu it oğlu isə çıxıb getmək bilmir.

**VI KƏNDLI -** Hara gedir e? Hər gün birinin evində qonaxdı. Gah ambardarın, gah mollanın, gah da qohum-qardaşlarının. Camaat yiməyə bir loxma tapmır, buna isə hər gün çolpa qızartması, tut arağı, əzgil arağı... Hara gedir daa? Sərin yer, müftə yemək, hörmət-izzət...

**V KƏNDLI -** Qonaxdı da... Bəsdi daa, çıx get demək olarmı?
**REPRODUKTOR** – *(Musiqi.)* Quq-quuu... Danışır Meşəli radiosu. İdman xəbərlərini veririk.
*(Qadın səsi.)* Bildiyiniz kimi, rayonda futbol birinciliyi keçirilir. Kəndimizin "Meşəli" komandası da bu çempionatda

uğurla iştirak edib, yarımfinala çıxıb. Lakin keçən gün yarımfinal oyununda iştirak etmədiyindən adına məğlubiyyət yazılıb, yarışdan çıxarılıb. Komanda oyuna getməyə yol pulu tapmayıb. Oyunçular payon mərkəzinə piyada getməyi qət etsələr də baş məşqçi Zərbəli Zərbəlizadə razılıq verməyib, bunu biabırçılıq hesab edib. "Onsuz da yorğun-yorğun oynaya bilməyəcəkdiniz, uduzacaqdınız" deyib.
*(Kişi səsi.)* Daha bir idman xəbəri.
Keçən gecə kəndimizin babat evlərindən birində kart üzrə kənd birinciliyi keçirilib. Oyunçular olimpiya üslubuna bənzər bir stildə oynayıblar, belə ki, uduzanlar, tükü tükənənlər oyunu tərk edib tamaşaçıya çevriliblər. Qalib səhərə yaxın müəyyənləşdirilib. Bu sizin hamınızın yaxşı tanıdığı, adını çəkməyə ehtiyac olmayan ev sahibidir.
Turnirin birinci pilləsinə qalxmış çempion bütün iştirakçılar dağılandan sonra ölçüb görüb ki, qalib kürsüsünün hündürlüyü cəmi beş məmməd paçkası boyda imiş.
Çempionatın hər altı oyunçusu axırda şifahi saziş bağlayıb ki, bir az tüklənəndən sonra növbəti yarışa başlasınlar. Ümid var ki, bu dəfə birinci pillənin hündürlüyü bir az da yuxarı olacaq. Bəzi fərziyyələrə görə isə bəlkə əvvəlkindən də aşağı olacaq. *(Musiqi davam edir.)*

**V KƏNDLI -** Get-gedə hamıda pullar tükənir də.

**VI KƏNDLI –** Nə olardı, o çempiyon udduğu pullardan bir az verəydi fitbolçulara...

**V KƏNDLI -** Ay Mirzə, bu "Meşəli" qəzetinə niyə bir şey yazmırsan? Burdan- buradı.

**MIRZƏ MÜXBIR -** Yox, o dahilərin qəzetidi, radiosudu. Kənddə yasdı, onnar partapart musiqi verirlər.

REPRODUKTOR – Bəzi kənd sakinləri bizə irad tuturlar ki, kənddə yas ola-ola niyə biz musiqi səsləndirməyi davam etdiririk. Onlara cavab olaraq bildiririk ki, saqqal Şabana hamıdan əvvəl biz başsağlığı vermişik, dərdinə şərik olmuşuq. Radiomuzda səslənən musiqilər, əgər fikir vermisinizsə, çox astadan səslənir, özü də həzin musiqilərdir. Bir də ki, ölənlə ölmək olmaz, həyat davam etməlidir. *(Musiqi davam edir.)*

**MIRZƏ MÜXBIR -** Bunlar nə tez eşitdilər mənim sözümü?

**V KƏNDLI –** Hindicə özün demədinmi ki, dahidi onlar?

**MIRZƏ MÜXBIR -** Lap dahilərin dahilərimişlər.

**VI KƏNDLI -** Yaxşı, o ikinci yazı nə oldu bəs?

**MIRZƏ MÜXBIR -** Gecikirəm. Onu da oxuyub gedirəm. Daa vaxtımı almıyın ha.

**VI KƏNDLI -** Buyur, buyur.

**MIRZƏ MÜXBIR -** *(Yenə cibindəki yazıların arasından qat kəsmiş, əzik-üzük olmuş bir vərəq çıxardıb oxuyur.)*

Pıça çıxdı... Yəqin ki, bu ifadə əvvəllər "puça çıxdı" şəklində olub, sonralar dialekt formasına düşüb. Fərqi nədir? Mənası ki dəyişməyib. Pıça çıxdı, yəni ki, puça çıxdı, boşa çıxdı. Bildiyiniz kimi, dilimizdə bu ifadə çox yerdə işlənir. Filankəsin işi pıça çıxdı, zəhməti pıça getdi. Bu mənanı verən "pıça qoz", "pıça fındıq", "pıça baş" bə sair bu kimi ifadələr də sizə yaxşı tabışdır.

Bu günlərdə kəndimizdə qəribə bir hadisə baş verib. Bu hadisədən sonra az qala bu qəbildən olan təzə bir ifadə də yaranacaqdı.

Məllim Bəhlulun toyunun səsi yəqin ki, hələ çoxunun qulağındasdır, bu toyda içilmiş araqların dəmi bəlkə hələ də kiminsə başından getməyib. Bir sözlə, gözəl toy idi.

Bəhlul özü də yaxşı uşaxdı. Yetim baladı. Anası nı zülmnən oxutdurub onu. Tələbə ikən kurslarından bir qıza vurulur. Qız qonşu kənddən, özü kimi kasıb bir ailədən idi. Beş il platonik bir sevgi olub aralarında. Iki il idi ki, hər ikisi gəlib öz kəndlərində işləyir, toya pul yığırdılar.

Nəhayət o xoşbəxt gün gəlib çatır. Kənd camaatı yığışıb layiqli bir toy edirlər cavanlara. Özü də bu toy kəndimizin digər toylarından fərqli olaraq dava-dalaşsız keçmişdi, işıqlar da sönməmişdi heç. Doyunca çalmışdılar, oynamışdılar. Amma kaş bu toyda da işıqlar sönəydi, dava düşəydi, başlar yarılaydı, polisə düşənlər olaydı, göygöz Veysəl şirvanlar qopardaydı dalaşanlardan, təki... təki bu biabırçılıq olmayaydı.

Yəqin ki, bildiniz hansı simə toxunmaq istəyirəm. Bəli, toyun səhəri günü, alaqaranlıqdan məllim Bəhlulun evindən iki qadın xeylağı çıxıb başıaşağı halda, dinməz-söylməz, görüb-iliyən olmasın diyə ara yolla, payi-piyada, tələsə-tələsə yeddi-səkkiz kilometrdəki qonşu Cökələr kəndinə üz tutdu. Yəqin ki, bu qadın xeylaqlarının da kim olduğunu bildiniz. Bəli, biri yetim Bəhlul balanın başıbəlalı gəlini, biri də onun yengəsi...

Heç demə, gəlinin də pıça çıxanı olurmuş. Diyirdilər, keçmişlərdə hərdənbir belə şeylərə təsadüf edilirmiş.

Amma şəxsən biz öz yaşımızda belə hadisə görməmişik, eşitməmişik.
Burda incə bir mətləb var: pıça çıxan, pıça çıxası gəlin bəlkə də keçmişdəkindən indi daha çoxdur, amma... hə, özünüz bilirsiniz də, belə şeyləri necə ört-basdır iliyirlər, pıça qozu müştəriyə necə sırıyırlar. Məllim Bəhlul görünür bu zəmanə müştərilərindən deyilmiş. Heç yengəyə də acıqlı bir söz demiyib. (Kəndin cavannarı diyirmişlər ki, oh, o yengə keçəydi bizim əlimizə həmin gecə.) Gəlinəsə diyib ki, bu gecə mənim qonağımsan, səhər o başdan üzüsulu sivişib gedirsən bu evdən.
Gəlin yazıx, diyilənə görə, xeyli göz yaşı töküb, özünün heç bir günahı olmadığını söylüyüb. Heç dimə, institutda oxuyarkən imtahandan kəsilibmiş. Xeyli pul istiyiblərmiş kasıb, çarəsiz qızdan. Pulu da olmayıb. Axırda məllim diyib ki, yaxşı, axşamlar gəl bizə, özüm hazırlaşdıraram səni imtahana. Və görünür, yaxşı hazırlaşdırıbmış...
Bu hazırlıq məşğələləri sonrakı kurslarda da beləcə davam edib, etməyib – bu barədə danışıq getməyib.
Uzun sözün qısası, beş illik, daha doğrusu, yeddi illik məhəbbət həyəcanları, böyük ümidlər, xəyallar, əziyyətlər, xərclər, sevinclər, arzular, niyyətlər, bir sözlə, gözəl, sakit, dava-dalaşsız bir toy, bir yetim balanın toyu pıça çıxdı.
Düzünə qalsa, bu yazıya elə "Pıça gəlin", yaxud "Pıça toy" başlığı vermək istəyirdik, sonra ehtiyat etdik. Yeni ifadələrlə dili zənginlkəşdirmək yaxşı işdir, amma dilimizdə belə ifadə yaranmaması daha yaxşıdır. Pıça qoza, pıça fındığa dözmək olar, pıça toya dözmək isə, vallah, çox çətin işdi. Məllim Bəhlulun vəziyyətini təsəvvür edin. (Kəndin bəzi cavannarı məllimin dalınca danışırmış ki, lap əfəlin biriymiş ki məllim, pıça da olsa bir həftə keyfini çəkəydi də.)
Nə isə, Allah heç kimə pıça toy qismət etməsin. Və dilimizdə də qoy belə ifadə yaranmasın.
Mirzə Müxbir, 1995, yay, Meşəli kəndi.
Hə, necədi?

**Bir müddət susurlar.**

**V KƏNDLI -** Ay Mirzə, bu lap kədərli yazı oldu ki.

**VI KƏNDLI -** Bəs niyə göndərmirsən onu bir yerə? Kağız əzim-əzim olub axı.

**MIRZƏ MÜXBIR -** Paket almağa pulum yoxdu hələ. Marka, paket tapan kimi göndərəcəyəm. Bu düz yüzüncü yazım olacaq mətbuaatda. *(Ayağa qalxır.)* Daa mən qaçdım.

**V KƏNDLI -** A kişi, bir dayan görək. Oxuduqların məlum şeylər idi. Bir-iki sveji xəbər də denən, sonra get. Biz də qalxırıx. Burda oturub qalası dölük ki.

**MIRZƏ MÜXBIR -** *(Başını bulaya-bulaya geri qayıdır.)* İkicə xəbər, cəmi ikicə xəbər deyəcəm, qısaca. *(Stulun küncündən oturub başını aşağı əyir, yarımpıçıltı ilə.)* Dünən gecə çoban Mürsəlin oğlu mantiyor İsa mırıx Şirəlinin qızını qaçırdıb. Cavannar əlində üç il olurdu ki, nişannıydılar, amma toylarını edə bilmirdilər. Mırıx olan-olmazını satıb arvadını qoduxluqdan qurtarmaqdan ötrü Fıstığa verdiyinə görə qız fikirləşib ki, belə getsə daha bir üç il də evdə qalmalı olacaq. Ona görə də gedəyə qoşulub qaçıb. Qonşular eşidib ki, guya Şirəli acıqlanıb deyirmiş, dünya dağılsa da barışıq qoymayacam, gedəni də tutdurub dama basdıracam. Bəziləri də söyləyir ki, guya Şirəli özü qudasına diyib, a kişi, qızı el qaydasınca apara bilmirsiniz, mən də köçürdə bilmirəm, heç olmasa belə bir iş iliyün, daa nə qədər mən sizin adamınıza çörək verim.

**VI KƏNDLI -** Hə, bax bu oldu sveji xəbər. Bəs ikincisi nədi?

**MIRZƏ MÜXBIR -** Şəhid Cəfərin baş daşından ötrü yığılmış pulları cavannar arağa-konyaka veriblər. Dünən rayonda yiyib-içiblər, bu gün də burda davam etdirəsidilər. *(Ayağa qalxır, Alikə.)* Alik, hazırlaş, yaxşı müştərilərin olacaq bir azdan. *(Gedir.)*

**QARPIZ SATAN ARVAD -** *(Yenə kiməsə qarpız satır, müştərisini yola salıb bərkdən səslənir.)* Qarpız! Qarpız! Bal kimi şirin qarpız! Özü də ucuz. Biri bir nizamıya. Yumurtaya da dəyişirəm, çolpaya da, buğdaya da. Ay müştəri, gəl bəri! Gəl mala, qalma dala!

**V KƏNDLI -** Köpək qızı nisyə versəydi, bir-iki qarpız apararrdıx uşaxlara.

**VI KƏNDLI** - Görmürsən, vermir də. Qalx gedək. Şabangilə dəyək bir. Qəbir qazmağa genə adam tapmırlar yəqin ki.

**Qalxıb yavaş-yavaş uzaqlaşırlar.**

**REPRODUKTOR** – *(Musiqi.)* Quq-quuu... “Meşəli “qəzetinin bu günki sayında getmiş yazılardan sətirlər.
*(Qadın səsi.)* Çaqqal Mirzəlinin iti murdar olub. Deyilənə görə, o yekə, zırpı köpəyi Mirzəlinin şəhərdə yaşayan ögey qızı Huraman xanım kəndə qonaq gələn gecəsi itlər boğub. Ağır itkidi. Amma maraqlıdı, görəsən kəndin itləri nə üçün boğub bu kişinin itini?
*(Kişi səsi.)* Keçən gecə itsiz qalmış çaqqal Mirzəlinin həyətinə çaqqal gəlib. Kimsə də deyir ki, guya iki ayaqlı çaqqal olub. Həyəti, evin həndəvərini dolaşıb çıxıb gedəndə gölməçə başında qaqqıldayaraq haray qoparan iki qazı tutub aparıb. Allah əvəzini versin. Bu köpəyoğlunun çaqqalı görəsən başqalarını qoyub niyə gedib özününkinə sataşıb?
*(Musiqi.)*

**QARPIZ SATAN ARVAD -** *(Alikə yaxınlaşır.)* Sən bu qarpızlara bir göz ol, mən bir o üzə keçib gəlirəm.

**Alik başını yırğalayır.**
**Arvad gedir. Alik də içəri keçir. Həmin andaca iki uşaq əyilə-əyilə gəlib hərəsi bir qarpız götürüb qaçır.**

**Səhnəcikdə bir neçə nəfər görünür. Huraman da onların arasındadır. Ancambl məşqə hazırlaşır.**

**REPRODUKTOR** – *(Musqi davam edir.)* Quq-quuu... Kim kolxoz sədri olmaq istəyir? Bir az əvvəl səsləndirdiyimiz elanı təkrar edirik. Zırpı Hətəm istefa ərizəsi yazıb. Lakin rayon rəhbərləri hələ ki, onun istefasını qəbul etməyiblər. “Yerinə bir adam tap, sonra baxarıq” deyiblər. Bu axşam yay səhnəsində kəndin ümumi iclası olacaq. Rayondan hətta Görüşov cənabları özü sizin görüşünüzə təşrif buyuracaq. Zırpının ərizəsi müzakirə ediləcək. Hamının iştirakı vacibdir.

**Musiqi davam edir.**
**Yenə motosklet səsi. Bir kişi haraylayır: “Mis alıram! Alminum alıram! Kimdə varsa gətirsin! Yaxşı pul vericəm!..”**
**Haralardasa yenə qıllı Qulamın eşşəyi anqırır.**

**A N T R A K T**

## İ K İ N C İ   H İ S S Ə

**Axşam tərəfidir.**
**Radioda ritmik estrada mahnısı səslənir.**
**Səhnəcikdə kənd ansamblı məşq edir.**
**Ipdən beş-altı ədəd kiçik mis qazançalar asılıb. Balaca bir oğlan çubuqla onları döyəcləyərək tritm tutur. Çoban Mürsəl tütək çalır. Gözündə qara eynək təkəbbürlü bir oğlan sintezator arxasında oturub. Ekstravaqant geymli, qara eynəkli Huraman əlində mikrafon oxuyur.**

**Çayxanada üç nəfər yarımsərxoş oğlan oturub qəlyanaltı ilə konyak içir. Oğlanlardan biri Huramanın oxuduğu mahnıya rəqs edir. Biri üzünü səhnəciyə tutub əl çalır. Digəri bütün diqqətilə əlində tutduğu kiçik foto şəklə baxmaqdadır.**

**Aralı stolun arxasında bir neçə nəfər oturub domino oynayır.**
**Qarpız satan arvad qatlama çarpayısında uzanıb dincəlmək istəyir, görünür musiqi ona mane olur, qulağına pambıq tıxayırsa da rahatlana bilmir.**
**Iki balaca qız ona yaxınlaşır. Qızlıardan biri onu söhbətə tutur, digər qız fürsətdən istifadə edib qarpızlardan birini götürüb qaçır.**

**Yazıçı divar qəzetinin önündə görünür. Qəzeti gözdən keçirdir.**

**Musiqiçilər məşqi saxlayıb öz aralarında nə barədəsə danışırlar. Yarımsərxoş oğlanlar konyak içirlər. Domino oynayanlar oyunlarına davam edirlər.**

**YAZIÇI -** İstidən kölgəlikdə gizlənmiş quşlar sərin düşəndən sonra bir-bir üzə çıxdıqları kimi axşam enincə kənd sakinləri də adətləri üzrə yavaş-yavaş meydanda görünürlər. "Tamaşaçıxardanlar və konsertverənlər" məşqlərinə başlayır, yeyib-içənlər, domino, loto oynayanlar stol arxasında yerlərini tuturlar. Bu axşam meydanda həmişəkindən də çox adam olacağı gözlənilir. Hamı rayondan təşrif gətirəcək yoldaş Görüşovun görüşünə gəlmək istəyir.

**Reproduktorda musiqi davam edir.**
**"Konsertverənlər" işlərinə fasilə verib çayxanaya enirlər, çay sifariş edirlər.**
**Yazıçı görünməz olur.**

## İYİRMİNCİ FRAQMENT

**Əlində fotoşəkil tutmuş gənc qəbir üstə nitq söyləyirmiş kimi sağlıq deyir.**

**III GƏNC -** Bizi bağışda, şəhid Cəfər...

Kəndimizin ilk və hələ ki, yeganə şəhidisən.

Biz səninlə fəxr edirik.

Bəzi ağzıgöyçəklər deyirlər ki, guya sən erməni gülləsilə ölməmisən, guya bərk piyan ikən iri yemək qazanına yıxılıb ölmüsən. Əlbəttə, hamı bilir ki, bu ağ yalandır. Biz buna qətiyyən nana bilmərik. Bir də nə fərqi var ee, ömrün ki cəbhə xəttində başa çatıb.

Çox yerlərə yazdıq, amma deyəsən, "milli qəhrəman" məsələsi düzəlmir. Odur ki, istiyirik heç olmasa sənin adını ya oxuduğun məktəbə, bu da olmasa işlədiyin, can qoyduğun kolxoza, fermaya da varsa verdirək. Bunlar da olmasa, hərdən gəlib yeyib-içdiyin, piyan olanda ağladığın bu çayxanaya da varsa verdirək

Indi hər kənd, şəhər öz şəhid övladlarına qara mərmərdən gözəl baş daşı düzəltdirir. Biz də belə bir işə girişmək istədik. Bundan ötrü rayonda çox qapılara təpik döydük. Dərdimizə şərik çıxdılar, mütləq kömək edəcəklərinə söz verdilər. Lakin getdik-gəldik, gəldik-getdik, axırda orda qapıçıdı, nədi işləyən bir arıx qoca vardı, bizə xəlvəti dedi ki, a kişilər, ayağınızı nahaqdan yormuyun...

Nə isə, əlacımız kəsildi, qapı-qapı düşdük məmmədəmin toplamağa. Məmmədəmin çox az adamda tapıldı, yenə də bir az əzik-üzük nizami, qızqalası toplaya bildik. Getdik genə rayona, baş daşı düzəldənin yanına. Yığdığımız pula baxıb gülərək dedi: "A kişilər, sizin dünyadan, bazardan xəbəriniz yoxdu, nədi? Bu pula qara mərmər baş daşının heç quyruğu da düşməz. Gedin, filan qədər dollar gətirin, keyfiniz istədiyindən düzəldib verim." Ay rəhmətlik, sən görmüşdün ki dolları, biz də görək?

Kor-peşiman qayıtdıq gəldik, heç bilirsən hara, düz bura, sənin köhnə oylağına. Indi oturub həmin pulların kəramətinə "Bakuş"la konyak vururuq sənin ruhunun xatirinə. Düzdü, sən içəndə həmişə araq içərdin, amma neyniyək, arağa gücümüz çatmır. Gör bu gidi dünya necə kəllə-mayallaq olub, vaxtı ilə arağı kasıb-kusub içərdi, konyakı yekələr. Indi hər şey tərsinədi.

Bağışda bizi, şəhid Cəfər... Zəmanənin üzü qara olsun, bir

kəndin ki camaatı vətən uğrunda qurban getmiş ilk və yeganə şəhid oğluna mərmərdən baş daşı düzəltdirə bilmir, bəs bu ucuz konyakdan da varsa içməyib neyləyək?
Başqa kəndlərdəki, şəhərlərdəki şəhid baş daşları, heykəlləri, vallah, göz dağı olub bizə.
Sənin onlardan nəyin əskikdi ki? Kasıb olmusan, yetim olmusan diyə qara mərmərdən baş daşı düz gəlmir sənə? Onsuz da şəhidlərin çoxu kasıb balalarıdı. Onsuz da vətən kasıblarındı. Varlıya bütün dünya vətəndi. Dara düşəndə gedib istədiyi yerdə yaşayacaq. Eh, nə isə...
Bağışda, bağışda bizi, şəhid Cəfər. Heç olmasa, Allah sənin ruhunu şad etsin.

**Içirlər. Susurlar.**
**Bayaqdan bir kənarda dayanıb bu "sağlığı" dinləyən Alik onlara yaxınlaşır. Dimnəzcə oturur. Süzüb bir qədəh də özü içir.**

**ALIK -** Fikir eləmiyin, uşaqlar. Cəfər qardaşımızın baş daşı mənciyəzin boynuna. Qoy payız olsun. Dubayda alver iliyən qağam gəlsin. Gedib o goreşənin üzünə bir paçka yüzlük dollar çırpacağam ki, başdaşının birini özünə, birini də dədısinə düzəltsin. Allah haqqı, doğru sözümdü. Qağama da hindidən xəbər iliyicəm ki, baş daşını lap elə o Dubaydan gətirsin. Qoy payız gəlsin bir... Konyak verim yenə?

**Heç kim dinmir. Alik daha bir şüşə konyak gətirir.**

## İYİRMİ BİRİNCİ FRAQMENT

**REPRODUKTOR –** Quq-quuu... Danışır Meşəli radiosu. Əziz həmkəndlilər, kimdə şirvana xırda var?.. Qəmnict İsrəfil məllim redaksiyamıza gəlib bir işdə ona kömək göstərməyimizi xahiş eliyib.
Bildiyiniz kimi, rayonun kommunistləri hər həftənin şənbə günü rayon mərkəzindəki "Palıd" çayxanasına yığışır, keçmişləri yad edir, ölkəni düşdüyü böhrandan çıxarmaq üçün yollar fikirləşirlər.
Isrəfil müəllim də hər həftə uşaqlarından, qohumlarından beş məmməd alıb – iki məmməd o yana, iki məmməd bu yana yol pulu, bir məmməd də çaya – "Palıd"a gedir, köhnə dostları  ilə görüşür, keçmişləri xatırlayaraq dərdini dağıdır.

Bu dəfə ona pul verə bilən olmadığından qonşularını bir-bir gəzib borc etmək istəyib. Lakin heç kimdə beş məmməd tapılmayıb. Yalnız Səlbiyə arvad ona bir şirvan verib və deyib ki, xırdala gətir, beşi sənin olsun, beşi də mənim, mən də sabah qonşu kənddə ərdə olan ekiz uşaq doğmuş qızımın yanına getməliyəm.
Qəmnist İsrəfil neçə adama ağız açıbsa da şirvana xırda tapa bilməyib. Kimsə deyib, üç aydı pensiya almıram, bir başqası deyib, altı aydı uşaq pulu gözləyirəm, biri dı deyib ki, a kişi, pulun necə şey olduğu yadımdan da çıxıb. Xülasə, heç kimdə xırda olmayıb.
Hər yandan əli üzüləndən sonra redaksiyamıza gəlib, xahiş eləyib ki, radio ilə elan verək, bəlkə kimsə ona kömək elədi. Əziz həmkəndlilər, kimdə şirvana xırda varsa, bu gün mütləq İsrəfil müəllimin pulunu xırdalasın. Qoy köhnə kommunist sabah öz dostlarından kənarda qalmasın. *(Musiqi davam edir.)*

**DOMINO OYNAYANLARDAN BIR NƏFƏR -** Adə, Alik, o qəmnistin pulunu niyə xırdalamırsan? Genə səndə olar.

**ALIK -** Bir az əvvəl gəlmişdi bura, düzəlmədi. Özünə demişəm, bəlkə bir azdan oldusa.

**SINTEZATOR ÇALAN OĞLAN -** Alik, gəl çayın pulunu çıx. *(Cibindən on minlik çıxardır.)* Amma bizdə də şirvandı. Vallah, başqa pulum yoxdu.

**HURAMAN -** Dayan görüm. *(Çantasını qurdalayır.)* Məndə olmalıdı. *(Bir neçə minlik tapıb çıxardır.)* Götür, hamısını götür. Onsuz da sabah yenə gəlib içəcəyik də.

**Ayağa qalxırlar.**

## İYİRMİ İKİNCİ FRAQMENT

**Səhnəciyin yanında əlində bir vərəq kağız balaca bir oğlan uşağı dolaşır.**

**SINTEZATOR ÇALAN OĞLAN -** Ə, Cuppulu, burda nə gəzirsən?

**CUPPULU QƏŞƏM -** Mən... mən də istiyirdim ki... *(Utandığından sözünü deyə bilmir.)*

**SINTEZATOR ÇALAN OĞLAN -** Ə, bir danış görək nə olub?

**CUPPULU QƏŞƏM -** İstiyirdim ki, mən də... danışım... bu mikrafonnan. Bu kağızdakını oxuyum, bəlkə eşitdilər...

**SINTEZATOR ÇALAN OĞLAN -** Nə kağızdı o elə? Kimə eşitdirmək istəyirsən? *(Kağızı götürüb baxır. Xətti oxuya bilmir.)*

**HURAMAN -** *(Onun əlindən kağızı götürür, höccələyib oxuyur.)* Şərəbanı qarının nəvəsi cuppulu Qəşəmin Qədr gecəsndə mələklərə və məlaikələrə yazdığı məktub. *(Qəşəmin başını sığallayır.)* A Cuppulu, Qəşəm bala, qəşəng bala, mələklərə nə yazmısan belə? Çıx ora, oxu görək. Hə, sağ tərəfdəki düyməni bas. Di başla. Dinləyək, uşaqlar. Çox maraqlıdı deyəsən.

**Cuppulu Qəşəm tribunaya qalxır, boğazını artlaya-artlaya sözə başlayır. Əvvəlcə utana-utana, sonra hər şeyi unudaraq özünə qapılıb məktubu oxuyur.**

**CUPPULU QƏŞƏM -** Bismillah, ya Allah! Salam, hörmətdi mələklər və məlaikələr. Nə təərsiz? Yaxşısızmı? Mən də pis dələm. Diyirlər, qədr gecəsində siz göylərdən enib öyləri gəzirsiz. Hansı öydə ki, yatmayıb səhərəcən Allaha ibadət iliyirlər, siz onnarın arzularını, niyyətdərini həyata keçirdirsiniz. Mən də bu gecə yatmayacaxdım səhərəcən. Saat üçəcən bir təhər dözdüm, daa dözə bilmirəm.
Ona görə ki, çox yorğun olmuşam büyüm. Axşam üstü əl arabasıynan iki reys kəndin aşağısındakı arxdan su gətirmişəm. Bizim öy də kəndin başında, hündürdədi. lap nəfəsim kəsilmişdi. Kəndin artizanı yayından işdəmir. Matoru yanıb, diyirlər. Gərəy hər öy dörd-beş şirvan pul topluya ki, düzəldə bilələr. Camaatda da pul yoxdu diyə yığa bilmirlər. Sonura da meşədən yekə bir şələ odun gətirmişəm. Payızda bir lapet odun düzəltmişdik meşədə, gətirə bilmədik. Tormoz Camal üç şirvan istiyir, on litir də səlyarka, meşəbəyi də iki şirvan, bir çolpa. Sonura malların altını kürüyüb peyini xizəknən bağdakı ağacların dibinə dartmışam.
Əslində, hər günüm belədi, amma büyüm işdər lap çox olub. Əsniyə-əsniyə qalmışdım. Didilər, tünd çay içəndə adamın yuxusu qaçır. Çayımız olmadı. Nənəm qənd yandırıb dəmləmişdi, bəhməznən içdik. Bu da elə bil adama daa da yuxu gətirdi. Həm də soyuxdu. Yuxu gözümnən tökülür. Diyəsən, yatmalı olucam. Odur ki, istiyirəm sizdərə bir məktub yazıb pəncərəyə - ləmpənin yanına qoyum ki, gəl-

səz, xaiş iliyirəm, onu oxuyasız.
Bax, birincisi, bir cüt ayaqqabı istiyirəm. Ayaqqabımın altı yarılıb, məktəbə gedəndə ayaqlarım tamam suyun içində olur. Sonura bir qurtqa istiyirəm. Məktəbdə də soyuxdu. Bu il yaman pis qışdı. Düzdü, qar azdı, bu yay diyəsən quraxlıx olacax, amma hər gün külək əsir, şaxtadı, soyuxdan donuram. Keçən qış qurtqasız bir təhər keçinmişdim, bu qış diyəsən heç dözəmmirəm.
Sonura, heç olmasa, on dənə ruçka istiyirəm. Bu İran ruçkaları elə tez qurtarır ki.  Rayonda bir nizamıya verirlər, kəntddə isə bir məmmədə satırlar. Həftədə bir məmməd hardan tapım? Mənə diyirlər ki, az yazım, kağız da yoxdu. Neynim, yazmaya bilmirəm. Diyirlər, belə getsə, gələcəkdə bəlkə yazıçı oldum. Mən də istiyərdim e yazıçı olum. Amma kağıza, ruçkaya neyniyərdim bəs onda?
Vəssalam... bu qədər... hə, bir də, vallah, yazmağa da utanıram, mümkün olarsa, hərdənbir iki yüz, üç yüz manat cib xərcliyi də göndərin ki, bəzi uşaxlar budkadan bakuş, biskivit alanda, mənim də ürəyimdən keçir ki, kaş mənim də bir az pulum oleydi, mən də hərdənbir burdan bir şey alıb yiyeydim.
Qardaçım diyir ki, bunnar nədi ə, istiyirsən, heç olmasa  bir paçka yüzdük dollar istə. Mən bilirəm ki,  bu mümkün olan iş dölü. Sizdər dolları hardan tapasız? Amma mən diyənnəri bəlkə tapa bildiz.
Məktubun axırında sizdərdən xaiş iliyirəm ki, mənim yatmağımı üzürlü hesab iliyəsiz. Vallah, gecə yuxudan ayılıb çölə çıxanda qayıdıb genə sizdərə dua iliyicəm. Xahişim budur ki, mənim dualarımı eşidəsiz, arzularımı yerinə yetirəsiniz. Başqa heç kimə gümanım yoxdu. Amin!
İmza: Qəşəm.

**Diqqətlə qulaq asırlar.**

**HURAMAN -** *(Kövrəldiyini gizlədərək.)* Afərin, Cuppulu... *(Hətta əl də çalır.)* Bunu haçan yazmısan belə?

**CUPPULU QƏŞƏM -** Qışda yazmışdım. Ləmpənin yanına qoymuşdum ki, mələklər gələndə oxusunnar. Amma diyəsən onnar heç gəlmədilər, məktubu görmədilər, oxumadılar. Hindi diyirəm, mikrafonnan bərkdən oxuyum ki, bəlkə eşidələr.

**HURAMAN -** *(Onun başını sığallayır.)* Arxayın ol, Cuppulu... mütləq eşidərlər. Onların da qulaqları kar deyil ki.

**QARPIZ SATAN ARVAD –** *(Bayaqdan valehcəsinə Qəşəmə qulaq asır, əlində iri bir qarpız yaxınlaşır.)* Hə, Qəşəm bala, qəşəng bala, deyəsən mələklәe eşitdi səsini və mənnən bu qarpızı sənə pay göndərdilər. Di götür.

**Qəşəm çaşqın-çaşqın baxır.**

Özləri də mənə bərk-bərk tapşırdılar ki, qarpızı mütləq verim sənə.

**Qəşəm çəkinə-çəkinə qarpızı götürür.**

**SINTEZATOR ÇALAN OĞLAN -** *(Nə fikirləşirsə cibindəki on minliyi çıxardıb xəlvəti havaya atır. Pul Qəşəmin qabağında yerə düşür.)* Oho, deyəsən, mələklər göydən sənə bir şirvan da göndərdilər. *(Pulu götürüb ona uzadır.)* Götür bunu da.

**Qəşəm mətəəl qalıb, pulu götürmək istəmir.**
Götür, götür, yoxsa onnar inciyər sənnən.

**CUPPULU QƏŞƏM -** *(Çəkinə-çəkinə pulu da götürür.)* Bunu harda xırdaladacağam ki?

**ALIK -** Sabah axşam üstü gələrsən yanıma, xırda düzəldərəm o vaxtacan. Bu gün daa İsrəfil məllimə söz vermişəm.

**HURAMAN -** *(Nə isə düşünərək.)* Cuppulu, hələ heç bilirsən nə olacax? Sabah heç, birisi gün səhər sən yerindən qalxanda eyvanınızda görəcəksən ki, qəşəng bir qış kurtkası, qış ayaqqabısı və bir paşka, hə, düz bir paçka ruçka, bir topa dəftər səni gözləyir. Hələ yüzlükləri, bir kulok "Bakuş"u, biskiviti demirəm.

**CUPPULU QƏŞƏM -** Hardan bilirsiz?

**HURAMAN -** Bildim də. Mələklər indicə qulağıma pıçıldadılar ki, sənə deyim.

**Qəşəm özünü itirmiş halda çıxıb gedir.**
**Susurlar.**
**Radioda musiqi davam edir.**
**Elə bu vaxt eşşək bərkdən anqırır.**

**ALIK -** Vaş!.. Qıllı yenə zəngulə vurmağa başladı ki.

## İYİRMİ ÜÇÜNCÜ FRAQMENT

**Meydanda tək-tək yeni adamlar görünməyə başlayır.**
**Kimi çayxana ctolunun arxasında, kimi aralıdakı kötüklərin üstə oturur.**
**Səmə Geroy da dalınca bir neçə uşaq "maşınını sürə-sürə" meydanda dolaşır.**

**HURAMAN -** Uşaqlar, məşqimizi saxlayaq daha. Camaat yığışır. Bir azdan iclas başlayacaq. Sabah davam etdirərik.

**JURNALIST -** *(Huramana yaxınlaşır.)* Salam, Huraman xanım.Vaxtınız varsa...

**HURAMAN -** A, salam, Cavid. *(Əl verib görüşür.)* Xeyir ola?

**JURNALIST -** Bizim "Meşəli" qəzeti sizinlə bir müsahibə hazırlamaq istəyir.

**HURAMAN -** *(Təəccüblə.)* Booy! Mənimlə müsahibə? Çox sağ olun. Ancaq mən kiməm ki?

**JURNALIST -** Niyə belə düşünürsünüz? Siz kəndimiz üçün çox qeyri-adi adamsınız.

**HURAMAN -** *(Yoldaşlarına.)* İnstrumentləri yığışdırın. Səhər görüşərik bir də.

**Huramanla Cavid danışa-danışa aralanırlar, çayxananın ctollarından birinin arxasında otururlar.**
**Musiqiçilər səs aparatlarını yığışdırırlar.**

**REPRODUKTOR –** Əziz həmkəndlilər, gecikməyin, meydana yığışın. Yoldaş Görüşovun gəlişi anbaan gözlənilir. O, gələn kimi iclas başlanacaq. Bu çox mühüm iclasdır. Öz sözünüzü deyin. *(Musiqi davam edir.)*

**JURNALIST -** *(Qələm-kağızını hazırlayıb suallar verir, qeydlər edir.)* Siz kimsiniz, Huraman xanım?.. Haqqınızda o qədər şaiələr, söz-söhbətlər gedir ki, açığı, nəyin yanlış, nəyin həqiqət olduğunu bilə bilmirik.

**HURAMAN -** *(Gülümsəyir.)* Hamısı düzdü. Dəliyəm, başdan xarabam, oğlanları yoldan çıxardıram, falçıyam, karatist, müğənni, bir sözlə, necə istəyirəm elə də yaşayıram. Beləcə də yazın.

**JURNALIST -** *(O da gülümsəyir.)* Başa düşürəm, haqqınızda danışılanlar sizi əsəbiləşdirir. Gəlin biz həqiqəti aydınlaşdıraq.

**HURAMAN -** Əslində deyilənlərin hamısında bir həqiqət var. Ancaq əsas məsələ həqiqətə hansı gözlə baxmaqdadır. Insanın ən böyük faciəsi odur ki, onu başa düşmürlər, anlamırlar.

**JURNALIST -** Gəlin bir qədər dəqiq danışaq.

**HURAMAN -** Vallah, heç kimi qınamıram, hərdən elə hərəkətlər, elə işlər görməli oluram ki, kənardan baxanda bunların hamısı ağıldan seyrək adamın işləkləri kimi görünür.

**JURNALIST -** Axı bu işlər nədən ibarətdir? Bəlkə bir açıqlayasınız.

**HURAMAN -** Mənim həyatım yalnız bir məqsədə xidmət edir: qızlarımızı, qadınlarımızı qəfəsdə saxlayan çərçivələri qırıb dağıtmaq. Mən tamamilə əminəm ki, hərəkətlərim bütün zərif məxluqların ürəyindəndir, onlar da məmuminiyyətlə bunları edərdilər, lakin çərçivələr onların əl-qolunu bağlayır.

**JURNALIST -** Məsələn?

**HURAMAN -** Dəhşətdir. Deyək ki, bir qızın bir oğlandan xoşu gəlir. Oğlan kütbaş da bunu hiss etmir. Hiss edirsə də, cəsarətlənib tərpənə bilmir. O qız da heç zaman qəfəsi aşıb ürəyini oğlana aça bilmir. Içində qovrula-qovrula qalır. Günah deyilmi bu? Deyin, hansı böyük qəbahətdir, günahdır – içində yana-yana qalmaq, yoxsa birbaşa öz ürək sözünü demək, imkan varsa, lap elə hər hansı bir ünsiyyətdə olmaq? Qızlar hələ bir yana, belə oğlanlarımız da var. Təsəvvür edirsinizmi, mənə "şanlı məktublar" yazırlar, amma cürət edib "Sən mənim xoşuma gəlirsən" kimi adi bir cümləni özümə deyə bilmirlər.
Danışırlar ki, guya oölanları yoldan çıxardıram. Axı mən kimi yoldan çıxartmışam? Xoşum gələn bir adamla dostluq etmək istəyirəmsə - bu əxlaqsızlıq olur məgər? Təbiət bu bədəni mənə veribsə, nə üçün mən onun əsil sahibi olmayım?.. Vallah, elə oğlanlarımız var ki, toy gecəsinə qədər əli qadın bədəninə toxunmayıb. Yazıq deyillərmi?..

**JURNALIST -** Maraqlıdır.

**HURAMAN -** Hamımız kəndliyik. *(Əlilə uzaqları göstərir.)* Bu talalar, meşələr heç sizi səsləmirmi? Səsliyir, özü də necə səsliyir. Siz oğlanlara nə var ki? Istədiyiniz vaxt istədiyiniz

yerə gedə bilərsiniz.  Ancaq qızlarımız?.. Vallah, o talalara çoxlarının ayağı dəyməyib. Mən isə itimizi yanıma salıb qarış-qarış dolaşmışam oraları. Meşələri gəzmişəm, çaylarda, göllərdə çimmişəm, qumluqlarda uzanıb qaralmışam tək başıma.

Sizi inandırım ki, qızlarımızın heç birinin bədəninə ömür boyu gün dəymir. Elə bilirsiniz onlar istəmirlər bunu?  Elə istiyirlər ki. Ancaq qəfəsdən çıxa bilmirlər. Qəfəsi dağıtmaq o qədər də asan iş deyil. Nəyə görə mənə it gəzdirən deyirlər? İtimiz olmasa, mən tək-tənha gəzə bilərdimmi o yerləri? Nəyə görə məcbur olub karate öyrənmişəm? Hünəri var, qoy ən zırpı oğlan pis niyyətlə mənə yanaşsın. Onun boyun çuxuruna üçüncü dərəcəli elə bir zərbə endirərəm ki, elə ordaca qalar.

**Jurnalist gülümsəyir.**

Ee, vaxt gələcək yeni, ali nəsil insanlar yaranacaq. Heç kimin heç kəslə işi olmayan, heç kimin heç kəsin işinə, həyatına müdaxilə, təcavüz etməyən insanlar. O zaman daha nə it gəzdirməyə ehtiyac qalacaq, nə karate zərbələrinə. Ancaq bu çox sonralar olacaq,  indisə hələlik bunlarsız keçinmək olmur.

**JURNALIST -** Gələcəyi görmək qabiliyyətiniz də var deyirlər.

**HURAMAN -** Altıncı duyğu hər bir insanda var, baxır nə dərəcədə inkişaf edib... Görünür, bu məndə lap üzdədir. Bir adamın üzünə diqqətlə baxan kimi onun içini görürəm, taleyini görürəm. Özü də bunu həmin adama demiyə bilmirəm. Deməsəm, sanki ağırlaçıram, xəstəhal oluram. Deyəndə də oluram – falçı.

**JURNALIST -** *(Təbəssümlə.)* Falçı xanım, görürsünüz ki, camaatın güzəranı gündən-günə ağırlaşır. Meşəli böhran içindədir. Bunun bir sonu olacaqmı? Nə qədər davam edəcək belə?

**HURAMAN -** İndi hər yanda belədir. Köhnəsi dağılıb, təzəsi hələ yox. Keçid dövrüdü də. Beş-altı ildən sonra yavaş-yavaş hər şey yoluna düşəcək. Ola bilsin, vəziyyət bundan da ağırlaşsın. Ancaq camaat çətinliklərə vərdiş edəcək, qurtuluş üçün hərə özünə  balaca bir çarə tapacaq. Indisə elə bil birdən-birə qaranlığa düşmüşük, zaman keçincə gözümüz

qaranlığa alışacaq. Unutmayaq ki, bütün qaranlıqların sonu – işıqdır. Bir qədər dözmək lazımdı qaranlığa. Meşəli oyanıb. Indi o özünün sübh çağını yaşayır. Görmürsənmi, divar qəzetləri, radio, hayd-park səhnəsi...

**JURNALIST -** Allah gözəl səs də verib sizə deyəsən.

**HURAMAN -** Yox, Allah verməyib, bəlkə də bu meşələr, talalar verib o səsi mənə. Uşaq vaxtımda bu yerləri tənha-tənha dolaşanda o qədər qəmli mahnılar oxumuşam ki.

**JURNALIST -** Yuxu yozmaq qabiliyyətiniz də var həm də. Kişilər üçün işlədiyiniz "Yuxu yozumları" kitabçası əlyazma şəklində olsa da bizə də çatıb. Yeri gəlmişkən, onları ciddi qəbul etmək olarmı? Yoxsa bunlar bir zarafatdır? Yazırsınız ki, əgər kişi yuxuda qadın görərsə...

**HURAMAN -** *(Gülümsəyir.)* Ac toyuq yuxusunda darı görər də.

**JURNALIST -** Əgər yuxunu görən kişi üzüaşağı yatıbsa...

**HURAMAN -** Üzüaşağı yatıbsa – heç... üzü yuxarıdırsa, deməli, qarşıda onu hələ bir qadınla görüş gözləyir. Subaylar bu görüşdən ötrü canfəşanlıq etməlidilər, yoxsa qadını ancaq yuxularında görəcəklər.

**JURNALIST -** Məsələn, rahibə...

**HURAMAN -** Deməli, arvadınız öləcək, lakin bundan o qədər də sevinməyin, çünki ömrünüzün axırınacan subay qalacaqsınız.

**JURNALIST -** Fahişə...

**HURAMAN -** Fahişə elə fahişədir də...Ondan qaçmaq çətindir. Yuxunuza gəlibsə, mütləq həyatda da qarşınıza çıxacaqdır. Yaxın günlərdə rastlaşmasanız sonrakı günlərə ümid etməyin. Çünki onlar sözlərində sədaqətli olmurlar. Allah bilir, kiminsə yuxusuna, bağışlayın, yatağına giriblər deməli.

**Gülüşürlər.**

**JURNALIST -** Deyirsiz, yəni bunlara inanmaq olar?

**HURAMAN -** Özünüz bilin. Istiyirsiz inanın, istəmirsiz inanmıyın. Yoxlaya da bilərsiniz. Hər halda Huraman yalan danışmaz.

**JURNALIST -** Sizin həyat yolunuz digər qızlara, qadınlara nümunə ola bilərmi?

**HURAMAN -** Allah eləməsin, necə deyərlər, kəndin dəlisi bir olar. Heç vaxt istəməzdim ki, Meşəlidə ikinci bir Huraman da peyda olsun. Amma əgər hardasa mənim kimi biri yaşayırsa, bunun o kəndə nə ziyanı? Bizlər yalnız onu istəyirik ki, qızlarımız heç olmasa bir balaca cəsarətə gəlsinlər, dövrələrindəki səddləri azacıq da varsa aşa bilsinlər.
Mən heç, mən çox qorxunc yolla gedirəm. Bu yolu heç kimə arzulamıram. Ancaq inanıram ki, dünya belə qalmayacaq, elə bir zaman gələcək ki, mənim gördüyüm bütün işlər adi bir iş sayılacaq. Gələcək nəsillər daha böyük qəfəsləri yıxacaqlar.

**JURNALIST -** Huraman xanım, sonuncu sual, necə oldu ki, özünüzə belə bir, necə deyərlər, həyat qurban tələb edən ağır yol seçdiniz?

**HURAMAN -** Yox, bunu mən özüm seçmədim. Bəlkə də bir alın yazısı, tale qismətidir bu. Lakin ən əsası... keçib gəldiyim həyat yolunun nəticəsidir bütün bunlar. Axı siz bilməmiş deyilsiniz, mənim çox qəribə ömür tarixçəm olub... Nə isə, keçmişlərə baş vurmayaq, hönkür-hönkür ağlaya bilərəm. *(Bir balaca doluxsunur.)* Mənə ağıllı təkliflər edənlər də olur. Istəsəm, günü sabah babat bir dayının oğluna ərə gedib hamı kimi yaşaya bilərəm. Ancaq o zaman... kəndimizin mənim kimi dəlisi olmszdı axı...

**JURNALIST -** Huramansız Meşəlinin nə gözəlliyi, eləmi?

**Huraman başını yırğalayır, çantasından siqaret çıxardıb yandırır.**

**JURNALIST -** Çox sağ olun, Huraman xanım. Sizə bu çətin və başqaları tərəfindən anlaşılmayan yolda uğurlar diləyirəm. *(Ayağa qalxır.)* Camaat yığışır daha. Görüşov cənabları da gəlib çıxacaq indilər. Görək nə danışacaqlar bu iclasda?

**Huraman da ayağa qalxır.**

## İYİRMİ DÖRDÜNCÜ FRAQMENT

**Radioda şux bir melodiya.**
**Meydanda kəndlilər çoxalır. Gəzişənlər var. Iki-bir, üç-bir dayanıb söhbət edənlər var. Bəziləri də oturub çay içir, domino oynayır.**

**Bir neçə nəfər qarpız satan Arvadın başına yığışıb. Alver gedir. Aralıda oturub qarpız yeyənlər də var.**

**Səmə geroy "maşınını sürə-sürə" adamların arasında dolaşır. Bir dəstə uşaq onun ardınca qaçışır.**

**Bir neçə nəfər səhnəciyə stol-stul qoyur.**

**Qaranlıq düşdüyündən əvvəlcə çayxananın həyətindəki ağaclardan asılmış lampalar, sonra isə səhnənin üstündəki lampalar bir-bir işıqlanır.**

**REPRODUKTOR –** Quq-qu... Danışır Meşəli radiosu. Aldığımız son məlumata görə, məsul yoldaş Görüşov artıq Palantökən aşırımını aşıb kəndimizə tərəf gəlməkdədir. Yoldakı çalalar mane olmasa, on-on beş dəqiqəyə burdadır. Yoldaş Görüşovu qarşılamaq üçün zırpı Hətəm öz əsabələrilə Arababatan çayının körpüsündə gözləyir. Zırpı Hətəm bu məsul yoldaşın qarşısına keçmişlərdə olduğu kimi əli gül-çiçəkli bir dəstə qız çıxartmaq istəyib, lakin qızlar artıq bunun köhnəlik əlaməti olduğunu bildirərək imtina etmişlər. *(Musiqi davam edir.)*

**HƏSƏNQULU KIŞI** *(Səhnəcik önünə gəlir.)* Ay camaat, fürsətdən istifadə iliyib qonaq gəlib çıxanacan sizdərə bir məlumat vermək istəyirəm. Yəqin ki, eşidənlər var, respublikamızın prezdentinə məktub yazmışam, daha doğrusu, nəvəmə yazdırmışam. Bilirsiniz ki, mənim savadım yoxdu. Digər nəvəmə də oxutdurmuşam. Uşax sağ olsun, ağzımdan necə çıxıb heylə də yazıb. Kəndin tamaşa çıxardanları saqqızımı oğurruyub həmin məktubun əsas yerlərini özdərinin diliynən disək, səhnələşdiriblər. Hindi istiyirəm, o məktubnan siz də tanış olasız. Məktubu hələ göndərməmişəm. Bəlkəm diyirəm, daa nəsə artırmax lazımdı. Hər halda prezdent balaca adam dölü, hər şeyi ona yazmax da düz dölü. Hə, nə diyirsiz?

**YERDƏN SƏSLƏR -** Buyur, buyur, Həsənqulu kişi. Çox sağ ol ki, dərdimizi heç olmasa kiməsə yazmısan.

- Bu həsənsoxduda nə məktub, a kişilər?
- Ə, sən otur yerində. Yəqin səə xeyir iləmir.
- Ə, bir dayanın da görək, nə yazıb o kişi!
- Başdıyın, başdıyın, onsuz do oturmuşuz da.

**I AKTYOR -** *(Tribunaya gəlir. Həsənqulu kişi kim i gözünə eynək taxıb. Zərfdən bir neçə vərəq çıxardıb eynilə onun danışıq ədası ilə oxuyur.)* Hörmətdi prezdent, mənim yetmişdən artıx yaşım var. Bu dünyada bir çox maraxlı hadisələrin şahidi olmuşam. Son günlər kəndimizdə baş vermiş qəribə əhvalatları isə olan ömrümdə görməmişəm.

Bilirəm, vaxtınız çox dardı, lakin genə də sizdən təvəqqe iliyirəm ki, arada imkan tapıb bu məktubu axıracan oxuyasınız. Bunu elə-belə, sizə də maraxlı gəlsin diyə yazdırmamışam, sözümün canı var.
Bu günnərdə gördük ki, bu skorı maşınnarına oxşuyan bir xarici maşın gəlib gimgədə dayandı. Alçaxboy, yoğunboyun, iri qarınnı, əynində təzə qəsdum, ağ köynək və boynunda da qırmızı kalstux bir kişi maşından düşüb bizə yaxınnaşdı, ədəb-ərkannan salam verdi, hamıynan əl tutub görüçdü. O adam kim idi, nəçiydi, bilmirdik.

**II AKTYOR -** *(Səhnəyə gəlir.)* Narahat olmuyun, ay camaat, hindi tanış olarıx. Mən rayonumuzun imkannı piznesmeniyəm. Mən bilirəm ki, hindi hamının güzəranı ağırdı. Odur ki, sizin kəndi isponsurluğa götürmüşəm. Lap açığı, istiyirəm ki, siznən bazar qiymətdərinnən xeyli aşağı alış-veriş iliyim. Bax, görürsüz bu maşını? Onda nə istəsəniz tapa bilərsiniz. Içində də ağ xalatdı satıcısı. Qiymətdər də bazardan çox-çox aşağı. Məsələn, bazrda qəndin kilosunu beş-altı məmmədə verirlər, mən sizə üç məmməd bir nizamıya vericəm. Pesox, özünüz bilirsiniz ki, bazrda dörd məmmədədir. Amba mən iki məmməd bir nizamıya verirəm. Qaloş bazarda üç şirvanadı, bırda iki şirvana. Özü də bu İran buraxan taxta qaloşlardan dölü ha, əsil Urusiyyət qaloşudu... Soora, pılıız yoxdu, eyib etməz, yerinə qoz verin, fındıx verin, nə bilim, şor verin, yumırta verin.

**III AKTYOR -** *(Səhnəyə gəlir.)* Ay piznesmen məllim, vallah, disəm, inanmayacaxsız, bu il quraxlıx oldu, meyvə də yoxdu, mallar da sağılmır, toyuxlar da yem dərdinnən yumurttamır.

**II AKTYOR -** Eyib etməz, mən nisyə də verə bilərəm. Hələ onu da diyim ki, ayın axırında verdiiz pulun əlli faizini də özünüzə qaytaracam. Amba iki şərtim var. Birincisi, gərək bu barədə heç yanda danışmayasız, yoxsa kənar kəntdərdən gəlib məndən ucuz alıb aparıb bazarda baha satacaqlar. Yaxud kimsə digər yerdə yaşayan qohumnarına da burdan ucuz mal alacax. Ikincisi, belə qatışıxlıx düşməsin diyə gərək siz paspırtdarızı məə verəsiz, mən sizin addarızı qeyd iliyim. Mən bu malları ancax sizin üçün gətirmişəm. *(Çəkilir.)*

**I AKTYOR -** Hə, beləcə hər gün kişi gəldi kəndimizə, başdadı həqqətən ucuz qiymətdərə mal satmağa. Hələ orası da az qala yadımnan çıxacaxdı, sözümüzü eşidib kişi gələn dəfə vallah kəndə şor da gətirdi, yumırta da gətirdi.

Çaş-baş olub qaldıx. Didik, diyəsən dünya düzəlir, bizim də qayğımızı çəkən tapılıb.
Hörmətdi prezdent, sən Allah, bir az səbir elə, gör hələ sonura nələr olub.
Ertəsi gün gimgədə dayanıb genə avtodükanı gözdüyürdük, bir də gördük ki, bir ağ otuz bir gəldi dayandı qabağımızda, dolu bədən, salidni geyimni, kalstuxlu başqa bir kişi düşdü maşınnan, bu da ədəb-ərkanan salam verdi, hamıynan əl verib görüşdü. Amma bu adamı tanıdıx. O, əslən bizim kəntdəndi, neçə illərdi ki, Bakıda alm işdiyir, brafissurdu. Amma e, çoxdan kəndə gəlib iləmirdi. Axırıncı dəfə heç bilirsiz onu haçan görmüşdük? Hə, onda, hələ Brejnev sağ idi, yağ qıtdıöı olmuşdu haa, bax onda tez-tez gəlirdi kəndə, hər dəfə də beş-on qarubka slivişni yağ gətirirdi, verirdi kəntdə yaşıyan əmisi oğluna, o da kilosunu satırdı yeddi manıt əlli köpüyə.

**IV AKTYOR -** *(Səhnəyə gəlir.)* Ay camaat, nə çaş-baş olub qalmısız, mən də bu kəntdən deyiləmmi? Professor Qulamovsoygilzadəliyevskini nə tez unutdunuz?

**III AKTYOR -** *(Ona yaxınlaşır.)* Hə, brafissur Qulamov? *(Əl verib görüşür.)* Xoş gəlmisiz, xoş gəlmisiz. Sizdən nə əcəb bizdəri yad iləmisiz?

**IV AKTYOR -** Brafissur Qulamov yox, professor, elmlər doktoru, dosent Qulamovsoygilzadəliyevski. Keçmişdəkilər keçmişdə qaldı. Hərü, hindi hamı özünün soy kökünə qayıdır. Mən də gəldim sizləri görməyə. Nöşün ki, mən də bu kənddənəm, sizlərdən biriyəm. Nə olsun ki, Bakıda oluram. Düzdü, mənnən bir az inciksiz, ona görə ki, Bakıya oxumağa gələn, işləməyə, alverə gələn kəndçilərimə hörmət eliyə bilməmişəm. Inanın ki, imkanım olmayıb. Hərü, göz açmağa qoymurlar. Hindi Allaha şükür, zəmanə dəyişib. Imkanlarım da çoxalıb. Gəlmişəm ki, pasportlarınızı yığıb sizi siyahı eləyim. Kim oxumax istiyirsə, bütün vuzların qapılarını açacam onların üzünə. Lap özəl universitet olsun, pulunu özüm verəcəm. Neçə min dollar olsa da. Qalmağa yeri olmayanlara otellərdə öz pulumnan nömrə alacam, evimdə yerləşdirəcəm, təki oxuyub adam olsunlar. Kim harda işləmək istəsə, iş tapacam. Prezident aparatında da admım var, lap o ministirlər qabinetində də. Hələ milli məclisdə də. Təki siz südlü inəy olun, hərü. *(Çəkilir.)*

**I AKTYOR -** Ertəsi günü genə gimgədə dayanmışdıx. Genə bir maşın gəldi. Əli sumkalı, gözü oçkili bir kişi düşdü qaz iyirmi dörtdən.

**V AKTYOR -** Salam, camaat! Mən həkiməm, mal həkimi yox ha, adam həkimi. Sizin kəndi şefliyə götürmüşəm. Pasportdarınızı verin, sizi qeydə alım. Hamınızı tibbi yoxlamadan keçirdəcəm. Hindi dərman bahadı, həkim xərci də çoxdu diyə əksər adamlar ölümcül xəstə olsalar da doxdura gedə bilmir. Belə getsə, bir çox nəsillərin kökü kəsilə bilər. Mən kimdə nə azar varsa aşkar iliyicəm. Və həmin adamı pulsuz-parasız öz dərmanlarımla sağaldacam. *(Çəkilir.)*

**I AKTYOR -** İki gündə məlum oldu ki, kənd camaatının yarıdan çoxu naxoşmuş. Və hər birində də bir neçə löyüm xəstəlik varmış. Təkcə 95 yaşlı Xeyransa qarının canında heç demə 9,5 löyüm azar varmış. Sağ olsun o kişi, yeşik-yeşik dava-dərman gətirdi, cürbəcür otdar gətirdi və başdadı həqiqətən də onnarı pulsuz camaata paylamağa. Vallah, şəfa tapannar da oldu, xəstəliyi bir az babatdaşnnar da. Yalnız Xeyransa qarı... bir dənə kinə udan kimi o dünyalıq oldu. Doxdur didi ki, bu kinəlik dölü, qarının fərzinin tamam olmasıynan kinə udması eyni günə düşüb, bu bir təsadüfdü. Buna baxmayarax, doxtur qarının yasını da öz hesabına ötürdü, üçgünnüyün ertəsi günü, vallah, kişi elə bir şves buğası kəsib xeyrat verdi ki, yalan olmasın, çoxdan ət yimiyən camaat iki günə yeyib qurtara bilmədi o buğanı.
Sonura bir kişi də gəldi.

**VI AKTYOR -** Salam-məlöyküm. Mən injinerəm. Yollarınız çox bərbaddı, onu düzəldicəm. Arababatan çayının üstündəki körpünü təzəliyicəm. Cavannara istadiyon tikdirəcəm. Təzə fitbol qamandası yaradacam. Pasportdarınızı verin, sizi uçota götürüm. *(Çəkilir.)*

**I AKTYOR -** Bir gün də gözəl-göyçək, incə-mincə bir xanım da gəlib çıxdı.

**VII AKTYOR -** Salam. Mən də mədəniyyət işçisiyəm. Sizin kəndin mədəni səviyyəsini qaldırmağa söz vermişəm. Kənddə video salon tikdirəcəm. Yekə bir Qrosnu antena gətirib qoyacam kəndin ortasına, qoy dünyanın bir çox kanalları gəlsin öyünüzə. Nə? Televizorlarınız xarabdı? Pul dərdindən düzəltdirə bilmirsiniz? Eyibi yox, usta gətirərəm, bir-bir öyləri gəzib sınıx televizorları öz hesabıma

düzəltdirərəm. Qlubunuzu da remont elətdiricəm. Qocaların, qarıların xorunu düzəldicəm. Konsertdər verərsiz burda. Hər həftə Bakıdan bura məşhur artistləri gətirtdirəcəm. Lap elə Zeynəbin özünü də, Arif Quliyevi, Şou Əlini də. Türkiyədən hətta Sezən Ağsunu da gətirtdirəcəm. Bir sözlə, qısa müddətdə kəndin mədəni həyatı şəhər səviyyəsinə qalxacaq. Nə? Acqarına nə mədəni səviyyə? Arxayın olun, qarnınız da doyacax. Söz verirəm. Təkcə siz pasportdarınızı mənə verin. *(Çəkilir.)*

**I AKTYOR -** Vallah, hörmətdi prezdent, çaşıb qalmışıx. Diyirik , daa diyəsən müharibə də qurtarıb, qaçqınnarımız da qayıdırlar öz yuvalarına, dünya da başdıyır əvvəlkinnən yaxşı olmağa.
Elə bu zaman məsələnin üstü açılır. Onsuz da bu paspırt söhbətindən mən nəsə şübhəyə düşmüşdüm. Sən dimə, kəndimizə gələn bu qonaxların hamısı diputat olmax istiyirmiş. Hindi diyirlər ax, milli məclisə seçkilər başdıyıb.keçmişdə belə şeylər görməmişdik. Bizi heç itirib axtaran olmazdı. Hindi diputatdarın özdəri öz ayaxlaıynan gəlir yanımıza. Hamısı başdıyır kəndin, camaatın işdərinə yarımağa ki, istədikləri imzanı topluya bilsinlər, biz onnara səs verək. Doorudu, onnarın didiknərinin hamısı düz olmasa da, həyata keçənnəri də var. Vallah, xeyli faydalı işdər dı baş verib.
Möhtərəm prezdent, bu məktubu yazmaxda sizdən təvəqqəm odu ki, bu diputat sekilərini tez-tez salasınız, beş ildən bir yox, beş-altı aydan bir. Bəlkə bizdəri də beləcə tez-tez yad iliyən, bizdərə də bir balaca köməy əli uzadan tapıla.
Vəssalam, şüttamam.
Hörmətnən: Həsənqulu kişi, Meşəli kəndi, 1995.

**Kimlərsə əl çalır.**
**Fit çalanlar da var.**

**YERDƏN SƏSLƏR -** Əladı, əla! Elə-belə də göndər getsin.

- Qəşəng! Sağ ol səni, Həsənqulu kişi.
- Bu nədi ə? Kəndimizi biabır iliyib.
- Sənə sərf ilədi diyəsən. Hamısını düppədüz yazıb ki
- O kişini tutub dama salanda diyicəm, düz idi, yalan idi. Gəlib bizdərə hörmət iliyirlər, biz də bu hörmətdərini başlarına çaxırıx. Daa kim üz tutar bu tərəflərə?

- Belə hörmət bizə lazım dölü. Bu hörmət yox, rüşvətdir. Uşax aldadan kimi aldadıblar bizdəri. Hələ çox şeyi yazmayıb, mənnən olsa, hələ bir az artırmax lazımdı.

## İYİRMİ ALTINCI FRAQMENT

**MOLLA PİRVƏLİ -** *(Yerindən qalxır.)* Ay camaat, ay camaat, bir hour sakit olun. Mənim də bir sözüm var. Orda heç məscid məsələsinə toxunulmuyub. Məscid heç bir diputatın yadına düşmüyüb. Yenə sağ olsunnar Ərəbistandakə varlı-karlı qardaşlarımız.

**YERDƏN SƏS -** *(Gizli bir istehza ilə.)* Ay molla, hörmətdi ruhanisiz, bir keçin qabağa, ordan diyin sözünüzü. Qoy camaat sizi bir əməlli-başlı görsün, eşitsin.

**SƏSLƏR -** Hə, düzdü, keç, keç qabağa, ordan danış.

**MOLLA PIRVƏLI -** *(Səhnəciyin önünə gəlir. Boğazını artdayır, uzun təsbehini çevirir.)* Bismillahi-r-rəhmani-r-rəhim... Hə, onu diyirəm axı... Ay camaat, biabırçılıxdı vallah. Ərəbistandakı müsəlman qardaşlarımız öz pullarıynan dədə-babalarının xeyratına kəndimizdə məscid tikdirmək istiyirlər. Bizim razılığımıza gözdüyürlər. Mən yas yerində bu barədə çox danışdım, ancax bir qərara gələ bilməmişik. Hindi camaatın çoxu burdaykən bu söhbəti bir də açmax istiyirəm. O kişilər Allah rizasına ciblərinin puluynan bizə məscid tikdirib bağışdıyırlar. Siz niyə bu işə razılıx vermək istəmirsiniz?

**YERDƏN SƏS -** Bizə məscid lazım deyil!

**MOLLA PIRVƏLI -** Küfr danışmıyın! Hindi hər kəndin, şəhərin öz məscidi, minarəsi var. Çox yerlərdə azan da çəkirlər.

**Elə bu vaxt hardasa eşşək bərkdən anqırır.**
**Gülüşmə qopur.**

**YERDƏN SƏS –** Bu da bizim azan.

**MOLLA PIRVƏLI -** Bax ona görə də belə geri qalmışıx da.

**YERDƏN SƏS -** Yox, bizi geri qoyan məscidlərdi. O varlı-karlı müsəlman qardaşlarımızın bizə elə canı yanırsa, niyə bizim kənd üçün məktəb tikdirmir, məscid tikdirir? Peygəmbərimiz də buyurub ki, yüz il ibadət etməkdənsə, bir saat elm, savad öyrənmək daha əfsəldir. Din insanı təmizliyə səsləyirsə, elm bu işi daha tez görür. Təmiz paltarın yuyulmağa ehtiyacı

olmadığı kimi ziyalı, təmiz insanların da dinə ehtiyacı yoxdur. Bizə məscid yox, məktəb lazımdır, savad lazımdır. Kənd məktəbinə baş soxmaq olmur. Sinif otaqları mal pəyələrinə oxşuyur.

**YERDƏN SƏS -** Tamamilə doğrudur. Məsciddənsə bizə məktəb daha əfsəldir. Heç olmasa, bir dənə hamam tikdireydilər. Bir vedrə su ilə nə qədər gəndalaşlıxda, lobyalıxda çimmək olar? Hamını bit-birə basıb.

**MOLLA PIRVƏLI -** Bəxtimizdən məscidin proyektində hamam da çıxa bılər, artizan da çıxa bilər.

**HƏMIN ŞƏXS -** Hə, bax bunnarın xatirinə tikir tiksin. Mən razı.

**BIR NƏFƏR -** *Bərkdən.)* Ay camaat, ay camaat, mənim bir təklifim var. Gəlin məscid yox, kilsə tikdirək. Akop Ağacanı da ora baş keşiş qoyaq.

**Ümumi gülüşmə.**

**MOLLA PIRVƏLI -** Tfu! Daa mənim sizə heç bir sözüm-zadım yoxdu.

**HƏMIN ŞƏXS -** Dayan ee! Niyə acıqlanırsan? Sözümün canı var. Heç bilirsən, kəndimizdən Bakıda olan neçə nəfər cavan uşax xristianlığı, krişnadı, nədi, onu qəbul iliyib?

**MOLLA PIRVƏLI -** Hərəsinə bir az pul-para verib şirnikləndirirlər də. O dinsizlər, kafirlər də ağıl ucbatından haram pullara uyurlar.

**YERDƏN SƏS -** Təkcə pula görə deyil. Siz mollalar öz dinimizi o qədər hörmətsiz iləmisiz ki, çoxları ondan imtina etmək istiyir. Düz diyir o kişi, bizə kilsə laszımdı. Çünki belə getsə, xristianlığı qəbul iliyənlərin sayı gündən-günə çoxalacaq.

**MOLLA PIRVƏLI -** Ay Allahın bisavad bəndələri, siz bilmirsinizmi ki, hindi hər şey kimi din də azaddı? Kim hansı dini istəsə seçə bilər. Xəbəriniz yoxmu ki, elə xristianların özdərinnən nə qədər islamı qəbul iliyənlər var? Özü də bizimkilər onnara pul-zad da verib eləmirlər.

**BIR NƏFƏR -** Ay camaat, məni bir başa salın görüm, diyirsiz ki, hindi ya pul alıb, yain ki, heç pul da almadan dinini dəyişənnər peyda olub. Bəs onnarın şalvarlarının altı necə olur, orasını da dəyişdirirlərmi?

**Ümumi gülüşmə.**

**MOLLA PIRVƏLI -** *(Daha bərkdən əsəbiləşir.)* Tfu! Doordan da, sizə heç bir din, məscid lazım deyilmiş. Hayıf mənim zəhmətim... *(Acıqlanıb çıxıb gedir.)*

**Eşşək yenə hardasa anqırır.**

**YERDƏN SƏS -** Aha, azan başladı. Şeyximiz getdi namazını qılmağa.

**Gülüşürlər.**

## İYİRMİ YEDDİNCİ FRAQMENT

REPRODUKTOR – *(Musiqi.)* Quq-quu... Diqqət, diqqət! İndicə aldığımız son məlumata görə meydana yığışıb səbirsizliklə yolunu gözlədiyimiz hörmətli cənab Görüşov öz "Niva"sıyla artıq kəndimizə yaxınlaşmaqdadır. Heç demə, bu məsul vəzifəli şəxs hələ günorta kəndə çatmamış zırpı Hətəm onu Çeşməli bulağa aparıbmış, qonağın şərəfinə balaca bir quzu kəsibmiş, iki dənə də balaca qarpız kəsibmiş, beş-altı dənə də balaca araqlardan açıbmış.

**Yaxınlaşmaqda olan sürəkli maşın siqnalları diktorun sözünü ağzında qoyur. Musiqi davam edir.**

**YERDƏN SƏSLƏR -** Aha, gəldilər, gəldilər!..

**Maşınlar tormoz verib dayanır. Qapılar açılır, çırpılıb bağlanır. Zırpı Hətəm qabaqda, onun ardınca Görüşov, xəstə Qasım, ambardar Fərzəli səhnəyə daxil olurlar.**

**Oturanlardan kimlərsə ayağa qalxır, kimlərsə əl çalır. Fit çalanlar da var.**

**Dinməzcə səhnəyə qalxırlar. Bir az əvvəl hazırlanmış stolun arxasında yerlərini tuturlar, üzlərini meydana çevirib camaatın sakitləşməsini gözləyirlər.**

**ZIRPI HƏTƏM -** *(Sərxoşluğunu gizlətməyə çalışaraq, qabağındakı kağızlara baxa-baxa.)* Bağışdıyın, bir az gecikdik...
Nə isə, iclasımıza başdıyırıx.
A yoldaşlar, sizdərə yaxşı məlumdu ki, əlində bir ildir mən

qalxoz sədriyəm. Özümü tərifləmək olmasın, bu böyük srokdu. Mənnən əvvəlki sədirlər ən çox işdəyəndə altı ay işdiyiblər. Son on ildə qalxozumuza iyirmiyə qədər adam rəhbərlik iliyib. Onnarın içində bu vəzifəni məəm qədər çox aparan olmuyub. Mən də daa yorulmuşam, camaatnan üz-göz düşmüşəm, açığı, daa işdiyə bilmirəm. Bir aydan çoxu ki, ərzə yazmışam, işdən çıxmax barəsində. Amma ki, ərzəmə baxmırlar. Diyirlər ki, yerimə adam tapmalıyam, soora. Büyüm bura yığışmaxda da məqsədimiz budu ki, özünüzə təzə sədr seçəsiniz. Sabahdan daa mən işə çıxmayacam.
Bu məsələni tam obyektiv və demoqratik yolla həll iləmək üçün hətta yoldaş Görüşovun özünü də dəvət iləmişik. Hörmətdi qonağımızı siz yaxşı tanıyırsız. Gəlin onu alqışdıyax və sözü ona verək. Və həm də yoldaş Görüşovu iclasımıza sədir seçək, qoy məclisimizi idarə iləsin...*(Bərkdən əl çalır.)*

**Oturanlar da əl çalırlar.**

**GÖRÜŞOV -** *(Azacıq səndirləyə-səndirləyə tribunaya gedir, bir neçə udum su içir, əlini çallaşmış saçına çəkir, qalstukunu düzəldir, gözünə eynək taxır, boğazını artlayaraq sözə başlayır.)* Yoldaşlar... mən demək istəyirəm ki, dəfələrlə sizin belə məclislərinizdə iştirak eləmişəm. Mən demək istəyirəm ki, o zamanlar başqa zaman idi, yuxarıdan nə deyirdilərsə siz də "Baş üstə" deyirdiz və biz də, mən demək istəyirəm ki,istədiyimiz adamı sizə sədr təsdiq edirdik. İndi zaman dəyişib, xalq özünə rəhbəri özü seçməlidir. Və mən demək istəyirəm ki, indi əlinizə gözəl şans düşüb, bundan istifadə eliyin. Və mən demək istəyirəm ki, bəlkə əvvəlki idarəetmə üsulu səhv imiş, odur ki, kolxoz sədrləri beş-altı ay işləyib istefa verirdilər. Və yaxud biz özümüz onları çıxarıb başqa işə göndərməli olurduq. Və mən demək istəyirəm ki, yenə də istəsək biz Hətəmovun yerinə layiqli bir kadr təyin edə bilərdik. Amma mən demək istəyirəm ki, bu doğru olmazdı. Demək istəyirəm ki, yeni qurduğumuz müstəqil dövlətin prinsiplərilə düz gəlməzdi. Və mən demək istəyirəm ki, di buyurun, indi söz sizindir.

**Meydan bir müddətliyinə susur.**

*(Sükutu pozaraq.)* Danışmaq istəyən yoxdumu? Varsa, buyursun, əlini qaldırsın və mən demək istəyirəm ki, onlara bir-bir söz verək.

**Birdən hamı əlini qaldırır. Hətta iki əlini qaldıranlar da var.**

Baho... *(Təəccüblə geri dartınır.)* Mən demək istəyirəm ki, hamınızın ürəyi sözlə dolu imiş ki. Daha denən ki, *(Üzünü Hətəmə tutub yalnız onun eşidəcəyi tərzdə.)* gecə yarısınacan burdayıq.

**Hətəm əlilə, gözülə işarə sedir ki, narahat olmasın.**

*(Eynəyini burnunun ucuna sallayıb meydanı süzür, baxışlarını gəzdirərək əlini hamıdan yuxarı qaldırmış fıstıq Səftərin üstə saxlayır.)* Buyurun... *(Adını yadına salmağa çalışır.)*

**YERDƏN SƏS -** Fıstıq Səftər.

**GÖRÜŞOV –** hə, hə... Fıstıq, ee, Səftər kişi. Mən demək istəyirəm ki, buyurun, danışın. *(Tribunadan enir.)*

**Stol arxasındakılar ayağa qalxıb onun öz yerinə keçməsini gözləyirlər. Zırpı Hətəm bir az da yaxın oturub onun qulağına nəsə pıçıldayır.**

**FISTIQ SƏFTƏR -** *(Tribunaya qalxır, yumruğunu ağzına tutub öskürür.)* Əvvəla, mən dimək istiyirəm ki, bizim kəndimizə xoş gəlmisən, hörmətdi yoldaş Göyüşov.

**Meydan qımışır.**

**ZIRPI HƏTƏM -** *(Əlini ağzının qırağına tutub tribunaya tərəf əyilir, pıçıltı ilə.)* Göyüşov yox, ədə, Görüşov, Görüşov.

**FISTIQ SƏFTƏR -** Hə?.. Bağışdıyın. Əvvəla, mən demək istiyirəm ki, bizim kəndimizə xoş gəlmisən, hörmətdi yoldaş Göyrüşov.

**Meydan bir az da bərkdən qımışır.**
**Görüşov eynəyinin üstən fıstıq Səftərə tərs-tərs baxır.**

**ZIRPI HƏTƏM -** *(Əsəbiləşmiş tərzdə tribunaya tərəf bir az da əyilir, ucadan pıçıldayır.)* Göyrüşov yox, ədə, Göyüşov, Göyüşov, ee, Görüşov, Görüşov.

**Meydanda gülüşmə qopur.**

**FISTIQ SƏFTƏR -** Bəs mən nə təər diyirəm, a Zırpı? Örüşov da, Örüşov.

**ZIRPI HƏTƏM -** *(Lap əsəbiləşir.)* Örüşov yox, ədə, Öyüşov, Öyüşov. Ee, tfu, Göyüşov, tfu, Görüşov, Görüşov!

**Gülüş səsləri meydanı başına götürür.**
**Görüşov pərt halda başını stola dikib oturur.**

*(Ayağa qalxır, əsəbi halda qabağındakı jurnalı, kağızları stola çırpır, toz qopur, acıqlanıb qışqırır.)* Tfu! Ayıb olsun sənə, fıstıq Səftər! Hörmətdi qonağımızın familiyasını sən nə tez yaddan çıxardın? Bir dəfəlik aç qulağını, həmişəlik yadında saxla! Görüşov, Görüşov! Bildin, qandın?

**FISTIQ SƏFTƏR -** *(Yalandan yazıqcasına.)* Bağışdıyın, vallah, başım xarab olub diyəsən. Hindi mən necə diyim diyirsən: Gödüşov, Goduşov?

**Meydan sanki gülüşdən partlayır.**
**Görüşov artıq yerində otura bilmir, bir əlilə üzünü tutaraq sürətli addımlarla səhnədən çıxır.**

**ZIRPI HƏTƏM -** *(Hiddətlənmiş halda Səftərə yaxınlaşır, yumruğunu havaya qaldıraraq bağırır.)* Tfu! Nə Goduşov, Goduşov salmısan əə? Gülüşob, Gülüşob! Qandınmı? Ee, səni görüm lənətə gələsən! Düş aşağı, düş, düş! Başımızı yerə soxdun. *(Səftəri dartıb tribunadan salır, tez Görüşovun dalınca qaçır.)*

**"Rəyasət heyəti"ndə oturanlar da yanğın baş vermiş kimi tələm-tələsik onun ardınca qaçırlar. Xəstə Qasım nəsə fikirləşib geri qayıdır, ayaq üstə durub meydana baxa-baxa qalır.**

**FISTIQ SƏFTƏR -** *(Öz-özünə danışa-danışa səhnəcikdən enir.)* Mən nə təər didim, əə? Gəlişov didim, Gedişov didim?

**XƏSTƏ QASIM -** *(Əlindəki xətkeşi stola döyəcləyərək camaatı sakitləşdirir.)* A yoldaşlar, a yoldaşlar! Bir qulax asın görək nə diyirəm?..

**Səslər bir qədər azalır.**

Ə, Fıstıx, bir qanacağın, mərifətin olsun. O boyda hörmətdi yoldaş... *(Səhv edəcəyindən ehtiyatlanaraq bir an susur.)* Görüşovu təhqir etdin. Indi kişi gedib polisə zəng vuracax ki, gəlin aparın onu, salın qoduxluğa. Axırın nə olacax əə sənin?

**YERDƏN SƏS -** Ay telefonlar işdədi ha...

**XƏSTƏ QASIM -** Telefonlar işləməz, ratsiyanan danışar. Bəlkə hələ cib telefonu da var onun. Bu boyda cinayətə göz yummax olar?

**FISTIX SƏFTƏR -** *(Yerndən atılır.)* O hansı cinayətdi əə? Nə böyük iç olub. Çaşıb kişinin familiyasını düz deməmişəm, görürsənmi. Buna statya-zad yoxdu. Heyliyə qalsa, birinci o məni təhqir iliyib. Gül kimi adımı qoyub mənə Fıstıx diyib.

**Meydan yenə uğuldayır.**

Fıstıx, Fıstıx... Pah atonnan! Qələt iləmədim ki, bir- iki dəfə aparıb bazarda fıstıx satdım. Heyliyə qalsa, qalxozun tonnarnan buğdasını satıb yiyirsiz, mal-qarasını yiyirsiz, otunu, silosunu satırsınız. Onda mən də diyim: silos Qasım! Xoşun gələr?

**XƏSTƏ QASIM –** Bəsdi, ə, bəsdi. Sən onsuz da düzələn əyri dölüsən. Elə düzünə liyib Şirəlinin arvadı Taytax vurub başını yarıb.

**FISTIX SƏFTƏR -** Sən get öydə qarıyan qızıvun dərdini çək, get Həsənqulu kişinin ayaxlarına yıxıl ki, nəvəsi gəlib onu alsın, xarici arvadına qulluqçu da varsa götürsün.

**XƏSTƏ QASIM –** Tfu! Həyasızın biri... Sən də get onnan-bunnan şikayət yazıb pul qopart.

**Elə bu vaxt zırpı Hətəm, yoldaş Görüşov, ambardar Fərzəli sıra ilə səhnəyə qayıdır, heç nə olmamış kimi yerlərini tuturlar.**

## İYİRMİ SƏKKİZİNCİ FRAQMENT

**AMBARDAR FƏRZƏLİ -** Hə... camaat, hərçəndi bir balaca çepe oldu, bunsuz işimiz keçmir də, nə isə... İclasımız davam edir. Buyurun, yoldaş... Görüşov.

**GÖRÜŞOV –** *(Başını dikəltmədən.)* Hətəm, çıx tribunaya, camaatın qabağına. Sənə bir neçə sualım olacaq.

**Hətəm bir an özünü itirən kimi olur, lakin tez də "Baş üstə" deyib tribunaya yanaşır.**

*(Əlindəki qələmi stola vura-vura sözləri ayrı-ayrı tələffüz edərək soruşur.)* Mənə düzünü de görüm, sən nə üçün işləmək istəmirsən?

**ZIRPI HƏTƏM -** Yoldaş Görüşov... bilirsiz... mən dimək istiyirəm ki... *(Tutulub qalır.)* Mən dimək istiyirəm ki...

**FISTIQ SƏFTƏR -** *(Ayağa qalxıb yerdən söz atır.)* Mən diyim, o niyə işləmək istəmir?

**GÖRÜŞOV -** *(İkrahedici baxışlarla baxır və etinasızcasına.)* Hə, buyurun, Səftər kişi.

**FISTIQ SƏFTƏR -** *(Həyəcanla.)* Ona görə ki, qalxozu elə yiyib dağıdıb ki, vaxtında aradan çıxmaq istiyir.İstiyir ki, bütün kəm-kəsirlər təzə gələnin boynunda qalsın. Üzü gəlib daa heç kimi işdədə bilmir. Iş getmir. Vaxtı ilə qalxoz min tondan çox buğda becərirdi. Bu bizim kənd kimi üç-dörd kəndə bəs iliyirdi. Hindi hamımız acınnan qırılırıx. Yüz qram buğda bölmək istiyir.

Torpaxları fermer adıynan ona-buna satıb. O fermerlər də otuz-qırx faizini kimlərəsə rüşvət verməknən dövlətdən küllü-miqdarda suda alıb, "beş-üç ilə ya xan ölər, ya eşşək" diyə bəy kimi dolanırlar. Çoxu da elə adamlardı ki, ömründə əkin-biçin işilə məşğul olmayıb. Düzdü, aralarında yaxşı işdiyənnər də var.

Bəs biz neyniyək? Torpağı ancaq pullulara verirlər. Bizə vermirlər ki, biz nə ilə əkib becərəcəyik? Bir yana baxan elə düz də iliyirlər. Mən iyirmi sotux yerimi şumladıb dirrik əkə bilmirəm, hektarlarla yeri necə şumladım? Texnika qalıb hindi? Toxumu hardan alax, nəynən alax?

Qonşu qalxozlar var, həmişəki kimi işdiyirlər. Yaxşı da dolanırlar. Diyirlər, biz ölərik, qalxozu dağıtmağa qoymarıx. Amma bizdə qalxozu öldürüblər lap. Beş-altı aydan bir təzə sədir gəlir, bu leşi bir az da söküb gedir.

Hər dəfə də təpik bizə dəyir. Neyniyək? Necə dolanax? Gedib rayonda işdəmək mümkün dölü. Birincisi iş yoxdu,

ikincisi, lap iş tapsan da, hər gün gərək iki məmməd o üzə verəsən, iki məmməd də bu üzə. Bu da ayda bir paçkadan yuxarı iliyir. Hindi harda adama o qədər maaş verirlər ki?

**ZIRPI HƏTƏM -** *(Çox dözsə də, axırda səbri çatmır.)* Burnunnan gəlsin, fıstıq Səftər, sənə ilədiyim yaxşılıqlar. Türmədə çürüyürdün indi, mən olmaseydim. Hindi bunun dilinə bax.

**II KƏNDLI -** *(Yerindən qalxıb.)* Niyə acığına gəlir? Düz deyir də.

**ÇOBAN MÜRSƏL -** *(Ayağa qalxıb onun sözünə qoşulur.)* A kişilər, qartuşka əkməknən, lobya satmaxnan külfət saxlamax olarmı? Bu olsa-olsa ailəyə bir köməkdi. Vallah, günnərnən bizim öyümüzdə çay içilmir. Hardan alım iki-üç gündən bir üç-dörd məmməd pesoğa pul? Əppək də heylə. Uşaxlar bir az sünbül yığmışdı. Iki dənə də qoyun satıb ucuz arpa almışdım. Hamı kimi mən də arpaya bir az boğda qatıb az-az üyüdüb verirəm uşaxlara. Bu da çəksin bir ay, iki ay. Bəs sonra? Bəs sonra nə vericəm? A kişilər, ayda dörd tay un işdədirik. Buna beş milyon pul lazımdı. Üst-üstə mən ayda iki şirvan tapa bilmirəm.

**V KƏNDLI –** *(Ayağa qalxır.)* Daa dözə bilmirik. Məni bağışdıyın, həyəcannan danışa da bilmirəm. Başa düşürəm. Hindi hər yanda çətindi. Amma vallah bizdə lap çətindi. Həmişə işdəmişik də. Heç olmasa, qalxoz boğdamızıca versə, digər şeylərə bir əncam qılmax olar. Biz belə deyildik axı. Meşəli belə olmuyub heç vaxt. Fərsiz rəhbət ucbatından bu günə qalmışıx. Bu hətəmlər yıxdı bizi. A kişilər, pardıyıram, boğdanı xırmandan gecəynən başqa kəndin adamlarına satırlar, bizə yox. Fermerlərə satırlar, tonnarnan. Onnar da aparıb bazarda baha qiymətə satırlar, guya ki, özdəri əkib-becəriblər. Ay Hətəm, nə olar, onsuz da oğurruxdu diyən bir az ucuz satırsan, heç olmasa, onu öz camaatıva sat da. Satmırsan. Qorxursan axı, camaat üzüvə dura. Bəs nə cür rəhbərsən ki, camaatıvın qeydinə qala bilmirsən.

**ZIRPI HƏTƏM -** A kişilər, mən bacarmadım da. Hindi özüvüzə yaxşı sədir seçərsiz, hansı havanı desəəz, o da həmin havıya oynayar.

**IV KƏNDLI –** *(Bərkdən, lap həyəcanla.)* Yoldaş Görüşov, xaiş iliyirəm, xaiş iliyirəm, məə də söz ver. Kəndimizdə elə bir hadisə baş verib ki, onu eşitsən o zırpı Hətəmin üzünə lombaynan tüpürərsən.

**GÖRÜŞOV -** Danış, danış, a yoldaş. Ancaq səbirnən, təmkinnən. Nəyə həyəcanlanırsan ki?

**IV KƏNDLI -** Yoldaş Görüşov, vallah dəhşətdi bu. O günü axşamüstü kimsə gimgədə bir gop elədi, guya meşənin harasınasa aparıb üç maşın boğda töküblər. Inanan olmadı. Amma bir-iki nəfər "dəlidən doğru xəbər" diyib torba götürərək bir-birindən gizlincə meşəyə yollandı.

**YERDƏN SƏS -** Biri də sən. Özünü niyə dimirsən?

**IV KƏNDLI -** Hə, biri də mən özüm. Mən də torba götürüb getdim. Bəxtimizdən o gecəsi də ay işığı idi. Meşəni çox gəzməli olmadıx, maşın gedə bilən yerlərə baş vurdux. Doordan da, iki yerdə salafan örtüklə xeyli boğda gizlədilmişdi. Kəndə səs düşdü. Əlinə torba alan meşəyə cumdu. Səhərə kimi dalımızda torba-torba daşıdıx o iki maşın taxılı. Sonra başdadıx üçüncü maşını axtarmağa. Düz bir gecə, bir gündüz gəzdik. Nəhayət, ertəsi günü axşamüstü tapdıx üçüncü maşın boğdanı. Daa doorusu, boğdanı yox, boğda boşaldılmış yeri. Inanın mənə, bir maşın taxılı axar çaya boşaltmışdılar. Su boğdanı yuyub aparmışdı. Yerə dağılmış boğdanın üstünü də qumnan, qayırnan basdırmışdılar ki, görüb-iliyən olmasın.

**GÖRÜŞOV –** *(Əyri-əyri Hətəmə baxır.)* Başa düşə bilmirəm, buğdanı meşəyə, çaya niyə boşaldırlar ki?

**IV KƏNDLI -** Xəbər qopur ki, qalxoza qəfil yoxlama gəlir. Ambarda hesaba düşməmiş atrıq məhsulu gizlətməli olurlar. Bir az ora-bura, yerdə qalanı o yan-bu yan iliyə bilmirlər. Allah bilir, neçə ton artıxları varmış. Əlacları kəsilib aparıb meşəyə boşaldırlar ki, ara sakitləşəndən soora ya kiməsə satsınnar, ya da ki, geri gətirsinnər.

**YERDƏN SƏS -** Qumarda uduzulan boğdanı da desənə!

**ZIRPI HƏTƏM -** *(Əsəbi.)* Yalandı bütün bunnar! Böhtandı! İftiradı! Belə şey ola bilməz, qətiyyən! Faşist də bu cür iş görməz. Yoldaş Görüşov, siznən kəsdiyim halal loxmaya and içirəm ki, nə mən, nə də ki, idarənin digər işçiləri belə bir qələt iləməz. Mən xaiş iliyioyrəm, qəmisya yaradın, araşdırın bu işi. Böhtançılar cəzasına çatsınnar qoy!

**Başını yerə dikib qalmış ambardar Fərzəli belini bir qədər dikəldir.**

**GÖRÜŞOV -** Dəhşətli cinayətdi bu. Mütləq araşdırmaq lazımdı. Sən isə Hətəmov, nahaqdan and içmə. Bəlkə heç sənin də xəbərin olmayıb, səndən gizli ediblər.

**Fərzəlinin başı yenidən aşağı əyilir.**

**III KƏNDLI -** Yoldaş Görüşov, bütün kənd bilir, bu vaxtacan dilimdən yalan çıxmayıb. Böhtan deyil bu. Vallah, nəyini gizlədim, həmin buğdadan bizim uşaqlar da bir-iki səhləm gətiriblər. Lap bir meşok da özüm gətirmişəm. Ancaq mətəəlçilikdi. Hər nəyi olsa da, mən də inana bilmirəm ki, Hətəm belə bir işə qol qoysun. Hətəmin xəbəri olmadan başqa kimsənin də belə bir işə girişə bilməsini də ağlım kəsmir. Fikirləşə-fikirləşə qalırsan vallah. Bu buğdanı meşəyə hardan gətirmiş olarlar, kimlər gətirmiş olar?

Yaxınlıxda da elə bir kənd-zad yoxdu ki, diyəsən, bəlkə ordan gətirib gizlədiblər. Nə isə, çox müəammalı işdir.

**I KƏNDLI –** Mən bilirəm o boğdanı bizim meşələrə, çaylara kim gətirib töküb.

**GÖRÜŞOV –** Bilirsən, bəs niyə gizlədirsən?

**I KƏNDLI –** Deyirsiz, açıb söylüyüm?.. Məncə, bunu uçan boşqablarla başqa planetlərdən gələnlər iliyiblər.

**Gülüşmə qopur.**

Deyilənlərə görə, başqa planetlərdə də belə hadisələr olur. Belə ki, orda da kolxozlar öz hesabına min hektar əvəzinə iki min hektar taxıl əkib becərir. Biçin vaxtı məhsulun çoxunu xəlvəti olaraq kənar adamlara satırlar, bizdəki kimi dəyər-dəyməzinə. Orda da elə olur ki, birdən qəfil yoxlamalar gəlib çıxır, hələ sata bilmədikləri, gizlədə bilmədikləri taxılı uçan boşqablara doldurub gətirib bizim meşələrə boşaldırlar ki, özdəri sudan qup-quru çıxsınnar, bizim isə yapon saatı kimi düppədüz işliyən rəhbərlərimiz şərə düşsünnər.

**Hətəm yanıqlı-yanıqlı başını yırğalayır.**
**Görüşov dərndən köks ötürür. Yenə tərs-tərs Hətəmə baxır.**
**Eşitdiklərindən elə heyrətlənib ki, bilmir nə desin.**
**Sükut davam edir.**

**FISTIQ SƏFTƏR -** Hər il tonnarnan tütün verirdik, əlli-altmış kilo barama verirdik. Inişilki tütün pulunu hələ ala bilməmişik. Keçən ilki tütün hələ damda qalır, bu ilki də talada batır. Vaxtlı-vaxtında traxtr vermədin, maşın vermədin ki, yığıb gətirək. Diyirlər, hökümət tütünü sata bilmir. Amma elə sədirlr var ki, onnar satırlar ayrı-ayrı xarici şirkətlərə. Sən də diribaş ol, sat da kolxozun tütününü hara sata bilirsənsə. Camaat tut ağaclarının da hamısını kəsib yandırıb. Bəs bizim axırımız necə olacax? Vallah, a yoldaş Görüşov, bax belə yaramaz rəhbərlərin üzündən bu günə düşmüşük. Düzdü, başda oturannarda da günah çoxdu, amma yerlərdə lap dəhşətdi.

**HƏSƏNQULU KIŞI –** Axırda diyəsən mən də danışmalı olacam. Ay yoldaş Görüşov, mənim xeyli yaşım var, bu dünyada çox şeylər görmüşəm. Əvvəllər bu cür işdər olmazdı axı. Əvvəllər bir vəzifədə on il, on beş il işdiyirdilər. Adamı bir vəzifəyə qoyanda hər şeydən ötrü onu çıxartmazdılar. Nöqsannarı olanda tənbeh iliyərdilər, yaxşı işdə, düzəlt diyərdilər. Hindi kim hansı vəzifəyə keçsə, fikirləşir ki, onsuz da yerimi isitməyə qoymayacaxlar, bir-iki ilə dəyişəcəklər yerimi, nə qədər fürsət var, qoy söküm yiyim, soora nə olar-olar...
Hər təzə gələn qalxoz sədri özünə, qohumlarına yaxşı torpaq alır, qalxoz hesabına bağ saldırır, ev tikdirir, maşın alır, özünü tutur, soora da az aşım-ağrımaz başım diyib sivişir qreslodan ki, qoy hindi də gəlib o birisi söksün, bütün günahlar təkcə onun üstündə qalmasın...
Bax, budu dərdimiz. Hətəm də eləcə. Öz yükünü tutubdu daa. Nə qədər gec dölü, aradan çıxmax istiyir, ona görə də daa o vəzifəyə getmək istiyən yoxdu. Hər halda məddə kiminsə başında çatdamalıdı.
Mən təklif iliyirəm ki, Hətəm öz yerini heç kimə verməsin. Bacarıqlı adamdı, qoy özü işdəsin. Bütün səhvlərini düzəltsin. Düzəldə bilməsə, soora yapışın yaxasınnan. Məddə çatdıyasıdısa qoy elə onun öz başında çatdasın. Çünki qalxozumuzu onun qədər öldürən ikinci bir sədir olmuyub.

**ZIRPI HƏTƏM -** *(Hirsini boğaraq.)* Həsənqulu kişi, ağsaqqal adamsan, sənə çox şey diyə bilmirəm. Ancax sən də ağ iləmə, həddüvü bil... Sökməyə qalsa, ömür boyu əlləşsəm də sənin nəvənin bir ildə gedib Urusiyyətdən gətirdiyi maşının dəyərini sökə bilmərəm. Bir ildə işdiyib belə maşın almax olseydi urusdarın hər birinin əlli dənə belə maşını olardı. Hə, heç olmasa sən danışma.

**HƏSƏNQULU KIŞI -** Birincisi, mənim o maşını haranısa sökərək əldə iləmiyib. Heç elə işdiyib də canını əziyyətə vermiyib, sadəcə qaynatası bağışdıyıb. Kişi orda böyük şirkətdər yiyəsidi. Ikincisi, lap elə haranısa söküb gətiribdi, bacarırsansa, get sən də qıraxdan söküb gətir. Hər halda bunun kəndə ziyanı olmaz ki, xeyri olar. Amma sən bizim içimizi sökürsən. Bir də sən niyə cırnayırsan axı? Sənə pis söz demirəm ki. Təmiz adamsansa, qal yerində işdə diyirəm də.

**VI KƏNDLI -** *(Sanki partdayır.)* Nə? Nə didiz? Yerində qalıb işdəsin hələ, hə? Az yiyib, genə yisin diyirsən? A kişilər, diyəsən sizin hələ çox şeydən xəbəriiz yoxdu. Yoldaş Görüşov, yoldaş Görüşov, sən Allah, icazə ver, mən də ikicə kəlmə diyim. Ürəyim pardıyır axı. Gör bunnar məni nə cür məcbur liyiblər ki, axırda bu savadsız canımla bir sicilləmə ərzə yazmalı olmuşam.
*(Cibindən əzik-üzük bir kağız çıxardır.)* Özü də haralara? Bir surəti irayonun icrayə hökməti başçısına, bir surəti milli məclisə, biri qəmnist qəzetinə, ee, Azərbaycan qəzetinə, biri də düz ora, nədi o, lap o bı-mı-tı-ya. Sən Allah, Görüşov yoldaş, üççə dəqqə məni dinnə, onu sənə də oxuyum, görün bu hətəmlər nə oyunnar açırmış qalxozda.

**GÖRÜŞOV -** Yaxşı, oxu. Ancaq qısa ilə, mən demək istəyirəm ki, vaxtımız çox getdi onsuz da.

**VI KƏNDLI -** Özü də tribunadan, o miqrafunnan oxumasam, ürəyim soyuyan dölü.

**GÖRÜŞOV –** Buyur, buyur.

**VI KƏNDLI –** *(Tribunaya yaxınlaşır. Hətəmə.)* Sən çəkil əə qırağa.

**ZIRPI HƏTƏM -** Ə, Ramazan, bəsdi, genə o peyin söhbətini atıb ortaya iylətmə məclisi.

**VI KƏNDLI -** Hə, nədi, yoxsa xoşuna gəlmir? Qoy gəlməsin, amma qoy hamı bilsin sənin içdəklərini. Düş, düş ordan.

**Əlacı kəsilmiş Hətəm tribunadan çıxıb boynunu buraraq bir kənarda dayanmalı olur.**

**GÖRÜŞOV -** Buyur, buyur, yoldaş... *(Adını xatırlamağa çalışır.)*
**YERDƏN SƏS -** Priboy Ramazan.
**VI KƏNDLI -** Hə, priboy Ramazan. Axsaq Ənnağının uşağı priboy Ramazan yoldaş tərəfindən ərzə. *(Əlində tutduğu kağızdan oxuyur.)*

Bu ərzəmnən yazıb sizə diyrəm ki, bilin, eşidin! Neçə illərdi ki əvvəl dədəm Ənnağı dədəm ölənnən sonura hindi də mən onun uşağı priboy Ramazan qalxozun belarus traxtrını lapetini sürürük!yeddi baş külfətəm. Bir baş uşağım tərtərdə vırışır bir baş uşağım da saldatlıxda təpik döyür. Haçandı gedibləр nə məktub var nə xəbər yannarına da gedəmmirəm. Diyirlər əppəkləri yoxdu özdərinə də bit düşübdü diyirəm cannarı sağ olsun saldat hər şeyə dözməlidi.özüm də qalxuzda işdiyirəm səlyarka da vermirlər zapças da təkər də. Özüm də iki üç aydan bir əlli beş min yəni beş məmməd bir nizamı alıram buna da bir kilo qənd düşür diyirəm cannarı sağ olsun yəqin hökmətdə yoxdu ona görə də şor satıram qapıdan qoyun- keçi satıram bir təər fırranırıx. Diyirəm təki müharibə qurtarsın erməniləri yox iliyək! Sonura hər şey yaxşı olar.

Amma məni yandıran başqa şeydi qalxuzda yihayidi! Boğdanı yidilər meyvəni yidilər torpaxları yidilər. o günü üç lapet boğda gətirmişəm naryadda görürəm biri var iksini yiyiblər bir lapet alma gətirdim naryada düşmüyüb deməli yiyiblər. iki lapet tütün gətirdim onu da yidilər!

A kişilər dəli oluram onda impera idik hər şey urusa gedirdi onda da yiyirdilər amma xəlvəti az-az qorxa-qorxa onda urusunkunu yiyirdilər hindi ki müstəqilik hindi ki hər şey bizimkdi bəs hindi bizimkini niyə yiyirsiz!yoldaşlar soruşun bilin!

A kişilər boğdamı yidilər dimmədim almamı yidilər dimmədim torpağımı yidilər dinmədim tütünümü yidilər genə dimmədim! O gün naryada baxmışam görürəm ki, a kişilər düz əlli ton peyinimi yiyiblər! fermadan daşımışdım yaş-yaş nə zülmnən suyu axa-axa naryadda yoxdu bildim ki peyini də yiyiblər. düz əlli ton ha! Bu qədər peyini də yemək olar mən bilirəm bını buxaltır tək yiyə bilməz! Bırda sədrin də payı var aqronomun da təftişin də. Yoxsa bu qədər peyini tək yimək olar! A yoldaşlar bu ərzəmnən yazıb sizdərdən xaiş iliyirəm ki qoymuyun hər şeyi yiyirlər bizim qalxuzda heç olmasa mənim peyinimi yeməsinnər xaiş iliyirəm nə cür yiyiblərsə eləcə də qaytarsınnar geri! Adam da suyu axa-axa nə zülmnən gətirdiym peyini yiyərmi! Yeddi baş külfətəm

qarabağda vırışanım var saldatlıxda təpik döyənim var özüm də iki üç aydan bir məmməd bir nizamı alıram belə adamın peynini yimək vallah haramdı özü də necə haram!
Müharibəni udmax istiyirik müstəqil olmax istiyirik peyin yiyə-yiyə müharibəni udmax olarmı müstəqil olmax olarmı!
Imza traxtrist priboy Ramazan
Cavab gözdüyürəm haaa!

**Ümumi gülüşmə.**
**Görüşov da gülməkdən özünü saxlaya bilmir.**

**Hardasa eşşək anqırır.**
**Gülüşmə bir az da şiddətlənir.**

**GÖRÜÇOV -** Əyləş, yoldaş Ramazan. Çox sağ ol. Məsələ aydındı . *(Üzünü yana tutub hərəkətsiz dayanış Hətəmi uzun-uzadı süzərək.)* Sən də gəl əyləş. Demək istəyirəm ki, daha hər şey aydındı.

**Hətəm suyu süzülə-süzülə gəlib yerində oturur.**

Çox sağ olun, camaat... Bir çox həqiqətlərin üstünü açdınız bu gün. Hə, demək istəyirəm ki, vəziyyət doğrudan da çox mürəkkəb imiş... *(Köks ötürüb bir müddət fikrə dalır.)* Hə, mən demək istəyirəm ki, keçid dövrü yaşayırıq. Indi hər yanda çətindi. Sizin kənddə isə, demək istəyirəm ki, doğrudan da lap çətinmiş, ağırmış... Bizim də səhvlərimiz olub. Ən böyük səhvi də Hətəmovu bu vəzifəyə qoyanda etmişik. Lakin mən də Həsənqulu kişinin təklifinə şərikəm. Demək istəyirəm ki, Hətəmi bu işdən uzaqlaşdırmaq doğru olmazdı. Gəlin ona möhlət verək. Işləməlisən, Hətəmov. Vicdanla, namusla işləməlisən. Mən demək istəyirəm ki, heç olmasa bu camaatın çörəyini qaytarmalısan. Ancaq sənin üzərinə daimi nəzarət qoyacam. Komissiya təşkil edib köhnə nöqsanlarını da araşdıracağam. Demək istəyirəm ki, cəzasız da qalmayacaqsan.
Ancaq başqa bir məsələ də var. Cəmiyyətdə yeniləşmə gedir. Kolxozların ləğv edilməsi qaçılmazdır daha. Nə qədər nəzarət qoysaq da, hətəmovlar yenə öz bildiklərini edəcəklər. Odur ki, təzə layihə hazırlanır. Torpaq islahatı geniş şəkildə həyata keçiriləcək. Kolxozun torpağı, əmlakı sizin özünüzə paylanacaq.

Mən demək istəyirəm ki, bundan sonra bir neçə ailə birləşib özünə mini kolxoz olacaq. Fermer təsərrüfatlarının inkişafı üçün siz də istəsəniz suda ala biləcəksiniz. Ancaq xan ölsə də, ölməsə də heç kim bu borcu qaytarmaqdan yan qaça bilməyəcək. Bundan tamamilə arxayın ola bilərsiniz. Öz başınızın ağası özünüz olacaqsınız. Hətəmovlar daha sizə lazım gəlməyəcək.

**YERDƏN SƏS –** Bu nağıla oxşadı, belə şey ola bilməz.

**GÖRÜŞOV -** Bəli, nağıla oxşayır. Ancaq bu nağıl bir neçə ilə gerçəkləşməyə başlayacaq. Inanın mənə. Demək istəyirəm ki, dünya belə qalmayacaq. Yavaş-yavaş hər şey düzələcək, güzəranınız yaxşılaşmağa başlayacaq.

**YERDƏN SƏS -** Kolxoz da dağılandan sonra hardan düzələcək güzəranımız?

**GÖRÜŞOV -** Maraqlıdı, vaxtı ilə kəndli kolxoz olmaq istəmirdi, indi kolxozu dağıtmaq istəmir. Nə olar, yenə əl-ələ verib müstəqil, heç kimdən asılı olmayan, hətta dövlətdən belə asılı olmayan təsərrüfat yaradın. Sizə tam azadlıq veriləcək. Nə istəsəniz əkib becərəcəksiniz. Məhsulunuzu kimə istəsəniz, neçəyə istəsəniz sata biləcəksiniz. Mən demək istəyirəm ki, siz belə bir yolun başlanğıcındasınız. Sonra necə istəsəniz elə də hərəkət edəcəksiniz. Başqalarından atalıq qayğısı ummayacaqsınız. Demək istəyirəm ki, özünüz özünüzə ağa olacaqsınız. Əl-ələ verib istədiyiniz kimi işləyəcəksiniz, kasıbçılığın daşını atacaqsınız, əsil insan kimi yaşayacaqsınız. Hətəmovlardan da birdəfəlik canınız qurtaracaq. Demək istəyirəm ki, çətinliklərə dözün bir az. Bu keçid dövrüdü, burda hər şey müvəqqətidir. Lap tezliklə gözəl günlərin qədəmlərini hiss edəcəksiniz.

**TAYQULAQ USUF -** Ay camaat, ay camaat! Niyə qırırsınız bir-birinizi? Xəbəriniz yoxmu, torpağın altındakı öküzlər dözmür daha. Onlar da acdı. Yeri vurub dağıdacaqlar buynuzlarıynan. Dünyanın axırı yaxınnaşır. Qırmıyın bir-birinizi. Yeyin-için, keyf iliyin heç olmasa.

**FATMANISƏ -** *(Əlini belinə qoyub ərinə baxır, axırda dözmür.)* Ədə, Tayqulax, sən də burdasanmış! Axtarmadığım yer qalmayıb, heç dimə, gəlib burda filosoflux iliyirmiş köpəy oğlu, it oğlu, donuz oğlu, eşşəy oğlu!.. *(Söyə-söyə adamların arası lə keçərək onun üstünə gedir.)*

**TAYQULAQ USUF -** *(Qaçır.)* Ay camaat, qaçın, qaçın qurtulun, dünyanın axırıdı vallah... Haydı söylə, səni nə təəhər söydüyümü...

**Gözdən itirlər.**
**Oturanlar gülüşürlər.**

**Birdən göygöz Veysəl bərkdən fit çala-çala sərxoş halda səhnəyə gəlir.**
**Bir müddət çaşqın-çaşqın gah meydanda oturanlara, gah da səhnəcikdəkilərə baxır.**
**Görüşovu görüb tez özünü ələ alır.**
**Əlini başının bərabərinə qaldırıb təzim edir.**

**GÖYGÖZ VEYSƏL -** Xəbər mənə hindi çatdı. Qaça-qaça gəldim. Kimdi burda dələduzlux eliyən? Kimi tutub aparım? Hə, diyin, yoldaş... Göy... Göy... Göyüşov, bağışdıyın, parddon-pardon, Göyrüşov, ee, Gödüşov, tfu, Görüşov?

**Meydanda yenə gülüş qopur.**
**Zırpı Hətəm, xəstə Qasım, ambardar Fərzəli özlərini itirdiklərindən donub qalırlar.**

**GÖRÜŞOV -** *(Ayağa qalxır. Yavaş-yavaş səhnəciyin önünə gəlir. Başını yırğalaya-yırğalaya diqqətlə göygöz Veysəli süzür.)* Məni... demək istəyirəm ki... məni tutub aparın.

**Elə bu an işıqlar sönür.**
**Hər tərəfi qaranlıq bürüyür.**
**Fit səsləri, hay-küy, qışqırıq meydanı başına götürür.**
**Hardasa eşşək də anqırır.**
**Orda-burda kibrit, alışqan işıqları nəzərə çarpır.**

**Tamaşanın əvvəlində gördüyümüzdən xeyli yaşlaşmış Yazıçı avansəhnəyə gəlir.**
**Onun arxasından pərdə yavaş-yavaş enir.**

## İYİRMİ DOQQUZUNCU FRAQMENT

**REPRODUKTOR –** Quq-qu... Danışır Meşəli radiosu... Bu gün------------------------------- -ci il, ----------------, cümə günüdür. Başlanmış yeni gün qoy sizə uğur və səadət gətirsin. *(Sakit, gözəl bir musiqi.)*

**YAZIÇI –** Günləri uzun olsa da, fikir vermisinizmi, ən tez ötüb keçən fəsil yay fəslidir. Həm də ən çox yadda qalan, sonradan həzin qüssə ilə xatırlanan fəsil...
Hər yay olduğu kimi yenə yolum oradır, o doğma Meşəli kəndinə. Nədənsə hər dəfə yolum ora düşəndə həmişə o uzaq yay düşür yadıma. O yay bəlkə də Meşəlinin ən ağır yayı idi. Yoldaş Göyüşov, bağışdayın, Görüşov demişkən, yeni bir yolun başlanğıcında idi meşəlilər.
Illər keçdi, hətəmovlar hakimiyyətinə son qoyuldu, Meşəlinin həyatında dönüş yarandı, həmkəndlilərim çətinliklərdən müəyyən qədər qurtuluş tapdılar. Bir qədər də, Huraman demişkən, çətinliklərə alışdılar. Hər halda Meşəli o yayın Meşəlisi geyil.
Bu yay nə gözləyir məni orda – bilmirəm. Söz yox ki, yenə köhnə zarafatlar, şən əhvalatlar, bəlkə də əvvəlkindən də məzəli, daha gülməli.
"Dərdə ağlamaq hər kişinin işidir, gülmək - ər kişinin" deyər meşəlilər...

**Qatar səsi.**
**Yazıçı çantasını götürüb tələsik gedir.**
**Qatar səsi yaxınlaşır və sonra getdikcə uzaqlaşır, eşidilməz olur.**
**Meşəli radiosunda səslənən həzin musiqi davam edir.**

**S O N**

**Füzuli YAVƏR**
ser.f.yaver@mail.ru
fserkerov@gmail.com